Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 24 (6166) 3 iyul 2026-cı il | Qiyməti 40 qəpik

# Şərəfli xidmət yolu




Bax:səh-3

## Azərbaycan Ordusu gücünə görə dünyada neçəncidir?



**"Türkiyənin ilk onluqda yer aldığı və 60 meyarı nəzərə almaqla Global Firepower (GFP) tərəfindən hazırlanan Güc İndeksində (Power Index) Cənubi Qafqazda ən güclü orduya malik olmaqla Azərbaycan 2026-cı il üzrə ilk atmışlıqda yer alıb". Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, həmin siyahıda Gürcüstan 95, Ermənistan isə 101-ci sırada qərarlaşıb.**

"Təşkilatın qiymətləndirmələrinə görə, son illər Azərbaycanın hərbi strategiyası ciddi modernləşmə mərhələsindən keçib. ABŞ analitikləri etiraf edirlər ki, Azərbaycan Silahlı Qüvvələri müasir müharibə taktikası və qabaqcıl texnologiyalardan istifadəsi ilə seçilir.

Digər ABŞ təşkilatının, "US News & World Report"un hesabatına görə isə, Azərbaycan Silahlı Qüvvələri dünya miqyasında 29-cu yerdə olmaqla dünyanın ən güclü orduları sırasındadır. Göründüyü kimi, Silahlı Qüvvələrimiz dünyada hazırda gücünə görə seçilən ordulardandır. Azərbaycan ordusu daha da modernləşir və güclənir".

## Faiq Qismətoğlunun 70 yaşı qeyd olundu



**Dünən Azərbaycan Mətbuat Şurasında əməkdar jurnalist, "Ədalət" qəzetinin şöbə müdiri Faiq Qismətoğlunun (Hüseynov Faiq Qismət oğlu) 70 illik yubileyinə həsr olunmuş toplantı keçirilib.**

Adalet.az xəbər verir ki, tədbiri giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, 1979-cu ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakultəsini bitirmiş F.Qismətoğlu həyatını doğma peşəsinə bağlayıb, təxminən, 10 ilə yaxın müddətdə Bakı Radio Zavodunun çoxtirajlı "İmpuls" qəzetində çalışıb, 1990-cı ildən indiyədək "Ədalət" qəzetində şöbə müdiridir. MŞ sədri, eyni zamanda, deyib ki, yubilyar ötən müddətdə yüksək bacarığı və istedadı ilə fərqlənib, "Ədalət"də müxtəlif janrlı minlərlə məqalə qələmə alıb, Birinci və İkinci Qarabağ müharibəsi ilə bağlı çoxsaylı materiallar hazırlayıb.

Bax:səh-12

## "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

"Ədalət" qəzetinin əməkdaşı Sübhan Mahmudlu "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin "Ən yaxşı oçerk" nominasiyasının birincisi olub.

Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.

## Türkiyə XİN başçısı İsraildən danışdı: "...icazə verilməsin!"



**"ABŞ və İran arasında atəşkəsin təmin edilməsinə dair anlaşma memorandumunun imzalanmasından çox məmnunuq. Həmçinin, bu atəşkəsin Livanı da əhatə etməsini müsbət bir inkişaf kimi qiymətləndiririk".**

Adalet.az "Report"a istinadla xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan Ottavada kanadalı həmkarı Anita Anand ilə birgə mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Hörmüz boğazından fasiləsiz və sərbəst keçidin təmin edilməsi vacibdir:

"Türkiyə olaraq, ABŞ və İran arasında davam edən danışıqlar prosesinə töhfə verməyə davam edəcəyik. İsrailin bu danışıqları sabotaj etməsinə icazə verilməməlidir və beynəlxalq ictimaiyyət bu məsələdə son dərəcə ayıq-sayıq olmalıdır".

## Trampdan xəbərdarlıq



**ABŞ-də benzinin pərakəndə satışı ilə məşğul olan şirkətlər yanacaq qiymətlərini dərhal endirməlidirlər.**

Adalet.az xəbər verir ki, bunu ABŞ Prezidenti Donald Tramp "Truth Social"da yazıb.

"Benzin pərakəndə satıcıları qiymətlərini dərhal aşağı salmalıdırlar! Neftin hazırda bir barelinin qiyməti 68 dollara və aşağı düşdüyünü nəzərə alsaq, qiymətlər çox yüksəkdir".

O, satıcıların bu açıqlamaya tez bir zamanda cavab verməyə borclu olduğunu söyləyib. Tramp qiymətlərin süni şəkildə şişirdilməsinin qanunsuz olduğunu vurğulayıb.

Prezident qiymətlərin aşağı salınması zərurətindən danışarkən əlavə edib ki, "Satıcılar bunu etməsələr, böyük problemlər yaranacaq".

## Təyyarə dronla toqquşdu

**JetBlue təyyarəsi Nyu-Yorkdakı Con Kennedi Hava Limanına yaxınlaşarkən dronla toqquşub. Bu barədə Federal Aviasiya Administrasiyası (FAA) məlumat yayıb. Məlumatda bildirilir ki, təyyarəyə zərər dəyməyib.**

Təyyarə təxminən 900 metr hündürlükdə eniş etməyə hazırlaşarkən pilot dronla toqquşma barədə məlumat verib. Təyyarə təhlükəsiz şəkildə eniş edib və sərnişinlər hava limanında təhlükəsiz şəkildə eniş edə biliblər. Yoxlama zamanı heç bir zədə aşkar edilməyib. Dünya Kuboku başlayandan bəri dronlarla bağlı xəbərlər kəskin şəkildə artıb. FAA oyunlara ev sahibliyi edən 11 şəhərin hamısında hava limanlarının yaxınlığında aşkarlanan 500-dən çox dron ələ keçirdiyini bildirib.

## GÜNÜN LƏTİFƏSİ



Zakir Fəxrini 15 sutka həbs edirlər. Kamera olanlardan biri soruşur ki, "səni nə üstə həbs ediblər?"

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəccüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında "Qu gölü" baletindəki quşlara çörək atırdım.**

# Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb.

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğuladı.

Türkiyənin ədliyyə naziri dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxundu.

Akın Gürlek, həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını dedi.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident Anlaşma Memorandumunu təsdiqlədi

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu təsdiqlənib.**

Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Eyni zamanda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Esvatini Krallığı Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, 2026-cı il mayın 19-da Bakı şəhərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

# Səhiyyə nazirinin müavinlərinin sayı artırılıb

**Səhiyyə nazirinin müavinlərinin sayı artırılıb. Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.**

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərmana əsasən, səhiyyə nazirinin müavinlərinin sayı 3-dən 4-ə artırılıb.

# XİN: "4 minə yaxın azərbaycanlının taleyi bu günədək naməlum qalıb"

**Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) baş direktoru Katrin Bomberger ilə görüşüb.**

Bu barədə Adalet.az-a Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.

Bildirilib ki, görüş zamanı Azərbaycan ilə ICMP arasında əməkdaşlıq gündəliyi, münaqişədən sonrakı dövrdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyət, habelə bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

C. Bayramov Ermənistanın hərbi təcavüzü nəticəsində təxminən 4 minə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını diqqətə çatdıraraq, itkin düşmüş şəxslər məsələsinin Azərbaycan üçün prioritet humanitar istiqamətlərdən biri olduğunu vurğulayıb. Bu çərçivədə Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri, basdırılma faktları və mina xəritələri ilə bağlı mövcud məlumatların tam şəkildə təqdim edilməsinin itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.



Tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair Saziş layihəsində itkin düşmüş şəxslər məsələsinə dair müddəanın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu istiqamətdə etimadın qurulması və humanitar nəticələrin aradan qaldırılması üçün praktiki addımların vacibliyini qeyd ediblər.

Görüşdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya arasında formalaşmış faydalı tərəfdaşlıq yüksək qiymətləndirilərək, bu əməkdaşlığın itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, identifikasiya imkanlarının gücləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

C. Bayramov Azərbaycan tərəfinin 44 günlük Vətən müharibəsindən sonra humanitar öhdəliklərinə sadiq qalaraq, mürəkkəb təhlükəsizlik şəraitinə və mina təhlükəsinə baxmayaraq genişmiqyaslı axtarış işləri həyata keçirdiyini, aşkarlanmış 2 mindən artıq erməni hərbçisinin cəsədini qarşı tərəfə təhvil verdiyini diqqətə çatdırıb. Bu addım Azərbaycanın beynəlxalq humanitar hüquqa hörmətinin və humanitar məsələlərdə konstruktiv yanaşmasının bariz nümunəsi kimi qiymətləndirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aşkar olunan kütləvi məzarlıqlar, aparılan ekshumasiya və identifikasiya işləri, habelə aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər və ICMP-nin digər ölkələrdə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

## *"Azərbaycana qarşı əsassız qətnamələrin qəbulu mütəmadi xarakter alıb"*

**"Son illərdə AŞPA və Avropa Parlamentində Azərbaycana qarşı əsassız və böhtan xarakterli qətnamələrin qəbulu artıq mütəmadi xarakter alıb".**

Adalet.az bu barədə TÜRKPA Baş katibi Ramil Həsənin iyunun 24-də AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi qətnamə barəsində bəyanatında deyilir.

Baş katib qeyd edib ki, bu cəhdlər Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra onu cəzalandırmağa yönəlmiş cəhdlər olaraq görünür və bu xüsusilə narahatlıq doğuran məqamdır:

"İnsan hüquqları məsələlərinin siyasiləşdirilməsi, manipulyasiya edilməsi, ikili standartlar və onlardan suveren dövlətlərə qarşı alət kimi istifadə olunması qəbuledilməzdir. AŞPA bunun əvəzinə öz torpaqlarını işğaldan azad etmiş və genişmiqyaslı bərpa-quruculuq işləri və humanitar minatəmizləmə fəaliyyəti həyata keçirən Azərbaycana dəstək nümayiş etdirməlidir.

Bu cür qətnamələr qəbul etmək əvəzinə, Azərbaycanla həmrəylik nümayiş etdirmək və öz mandatı çərçivəsində, o cümlədən, itkin düşmüş 4 000 Azərbaycan vətəndaşının taleyinin aydınlaşdırılması istiqamətində həyata keçirilən səylərə töhfə vermək daha konstruktiv olardı".

**TÜRKPA Baş katibi beynəlxalq parlament institutlarını dialoqu, qarşılıqlı anlaşmanı və beynəlxalq hüququn fundamental prinsiplərinə hörməti təşviq etməyə çağırıb.**

# Daxili İşlər Naziri general polkovnik Vilayət Eyvazov cənablarına



**Çox hörmətli cənab general polkovnik!**

**Bu gün dövlətimizin və xalqımızın xidmətində dayanan Azərbaycan polisinin 108 yaşı tamam olur. Tarixə nəzər yetirsək, şanlı bir yol keçmiş Azərbaycan polisi ilə hər birimiz qürur duya bilərik. Belə ki, həm dinc həyatda, həm də Qarabağ savaşında, döyüş meydanlarında düşmənə qarşı rəşadətlə döyüşən dinc sakinlərimizin qorunması, torpaqlarımızın müdafiəsi üçün hətta canından keçən polis əməkdaşları bütün dünyaya sübut etmişdilərki, onlar üçün Azərbaycan insanının həyatı və təhlükəsizliyi ən önəmli vəzifədir. Ona görə də istənilən düşmənlə, istənilən cinayətkarla mübarizə aparmağa Azərbaycan polis bütün səviyyələrdə hər zaman hazırdır.**

**Cənab nazir!**

**Sıralarında Milli Qəhrəmanların, ən yüksək mükafatlara layiq görülmüş igid polis əməkdaşlarının da olduğu Daxili işlər orqanlarının təkcə torpaqlarımızın azad edilməsindəki xidmətləri unudulmaz və təkrarolunmaz bir xidmət səlnaməsidir. Faktlara diqqət yetirsək görərik ki, Qarabağ müharibələrində Azərbaycan Polisi 900-dən artıq şəhid vermiş, onlardan 62-si Milli Qəhrəman adına layiq görülmüş, 400-dən də çox polis qazi olmuşdur. 2023-cü ildə Qarabağda separatizmin kökünün kəsilməsində Azərbaycan Polisi qəhrəmanlıq nümayiş etdirmişdir. Son illər narkotiklərə qarşı polisimizin apardığı mübarizəni də xüsusi qeyd etmək istəyirəm.**

**Bizim hər birmiz bu səlnamənin şahidləriyik.Yeri gəlmişkən, onu da vurğulayım ki, təkcə ön cəbhədə deyil, həm də dinc həyatda insanlarımızı təhlükələrdən qorumaq üçün özünü qurban verən polis əməkdaşları da kifayət qədərdir. Bütün bunlar onu göstərirki, əqidəsi və məramı Azərbaycan dövlətinə və xalqına xidmət etmək olan polisimiz hər zaman hər birmizin yanındadır.**

**Bunun üçün ölkə prezidenti cənab İlham Əliyevin Daxili İşlər orqanlarının fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində atdığı addımlar, verdiyi tapşırıqlar, imzaladığı fərman və sərəncamlar öz bəhrəsini zaman- zaman ortaya qoymuşdur. Bu gün fəxrlə deyə bilərik ki, polisimizin maddi-texniki bazası ən yüksək səviyyədədir. Həmçinin, polis əməkdaşlarının ictimai-hüquqi bilikləri də günbəgün artmaqdadır.**

**Cənab nazir!**

**108 yaşı tamam olan polisimizin - Sizin rəhbərliyiniz altında dövlətimizə xidmət edən hər bir əməkdaşını peşə bayramınız münasibətiylə ürəkdən təbrik edirəm. Azərbaycan polisinə eşq olsun! - deməklə uğurlar diləyirəm. İnanıram ki, bizim polisimiz həmişə olduğu kimi bizimlə olacaq və Azərbaycan insanının qarşısında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəkdir. Bir daha peşə bayramınız mübarək.**

**Hörmətlə: Aqil ABBAS**
**Milli Məclisin deputatı, yazıçı**

## *Azərbaycan Ukrayna ilə memorandum imzalayacaq*

**İtkin düşmüş şəxslərlə bağlı təcrübə və bilik mübadiləsini təşviq etmək məqsədilə Ukraynanın müvafiq dövlət qurumları ilə əməkdaşlıq memorandumunun hazırlanması və imzalanması planlaşdırılır.**

Adalet.az xəbər verir ki, bunu İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) ilə əməkdaşlıq çərçivəsində "İtkin Düşmüş Şəxslər Məsələsinin Həllində Müasir Yanaşmalar Və Əməkdaşlığın Gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun əməkdaşı Ceyhun Rzayev deyib. O bildirib ki, bu məsələ ilə bağlı ilkin müzakirələr 2025-ci il dekabrın 10-da Kiyevdə Beynəlxalq İnsan Hüquqları Konfransı çərçivəsində keçirilib: "Eyni zamanda Azərbaycan Respublikasının xarici işlər nazirinin tövsiyəsi əsasında Dövlət Komissiyasının nümayəndə heyəti 2025-ci ilin aprelində Bosniya və Herseqovinaya səfər edib. Səfərin məqsədi Bosniya və Herseqovinanın İtkin Şəxslər İnstitutu ilə ikitərəfli əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək və itkin şəxslərin taleyinin müəyyənləşdirilməsi sahəsində beynəlxalq təcrübəni öyrənmək olub. Bu təcrübə axtarış, qazıntı və eksqumasiya işləri baxımından faydalı hesab olunur. Bu prosesin nəticəsi olaraq, 2025-ci il oktyabrın 9-da Bosniya və Herseqovinanın İtkin Şəxslər İnstitutu ilə Dövlət Komissiyası arasında əməkdaşlıq memorandumu imzalanıb".

# Şərəfli xidmət yolu

**Azərbaycan polisi yaranmasının 108-ci ildönümünü və peşə bayramını qeyd edir.**

Adalet.az xatırladır ki, 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə əsası qoyulan Azərbaycan polisi ötən 108 il ərzində ölkədə qanunun aliliyinin, ictimai asayişin və vətəndaş təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra isə Daxili İşlər orqanlarının fəaliyyəti yeni inkişaf mərhələsinə qədəm qoyub. Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmana əsasən iyulun 2-si Azərbaycan Polisi Günü elan edilib.

Azərbaycan polisinin tarixində Ulu Öndər Heydər Əliyevin xüsusi xidmətləri danılmazdır. Məhz onun rəhbərliyi dövründə Daxili İşlər orqanlarında ciddi islahatlar aparılıb, peşəkar kadr potensialı formalaşdırılıb, xidmət intizamı gücləndirilib və milli ruhda yetişən polis əməkdaşlarının sayı artıb. Bu inkişaf sonrakı illərdə də davam etdirilərək ölkənin hüquq-mühafizə sisteminin daha da möhkəmlənməsinə zəmin yaradıb.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə Daxili İşlər Nazirliyində genişmiqyaslı modernləşmə həyata keçirilib. Maddi-texniki baza gücləndirilib, polis ən müasir avadanlıqlarla təmin olunub, elektron xidmətlər genişləndirilib, ”ASAN xidmət” mərkəzlərində polis xidmətləri təşkil edilib, ”E-Polis” mobil tətbiqi istifadəyə verilib. Bu addımlar vətəndaş məmnunluğunun artırılmasına, şəffaflığın və operativliyin yüksəldilməsinə mühüm töhfə verib.

Azərbaycan polisi təkcə cinayətkarlıqla mübarizə aparan hüquq-mühafizə orqanı deyil. Polis əməkdaşları hər gün insanların həyatının xilas olunması, təhlükəsizliyinin təmin edilməsi və fövqəladə hallarda operativ yardım göstərilməsi istiqamətində də fədakarlıq nümayiş etdirirlər. Sel və daşqınlar zamanı çaylarda köməksiz vəziyyətdə qalan insanların sudan çıxarılması, yanğın baş verən ərazilərdən sakinlərin təxliyəsi, itkin düşən şəxslərin axtarışı, yol-nəqliyyat hadisələri zamanı yaralıların xilas edilməsi, təbii fəlakətlər və digər fövqəladə hallarda əhaliyə yardım göstərilməsi polis əməkdaşlarının gündəlik fəaliyyətinin ayrılmaz hissəsinə çevrilib. Sosial şəbəkələrdə tez-tez yayılan bu cür görüntülər də göstərir ki, polis əməkdaşları bir çox hallarda həyatlarını riskə ataraq insanların köməyinə çatırlar.




Bununla yanaşı, polis əməkdaşları kütləvi tədbirlər zamanı ictimai asayişi qoruyur, məktəblərin, uşaq bağçalarının, dövlət müəssisələrinin və strateji obyektlərin təhlükəsizliyini təmin edir, yol hərəkətinin tənzimlənməsində, itkin düşmüş uşaqların ailələrinə qaytarılmasında, məişət zorakılığı, kibercinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, insan alveri və digər hüquqazidd əməllərlə mübarizədə mühüm rol oynayırlar.

Azərbaycan polisi eyni zamanda dövlətçiliyimizin və ərazi bütövlüyümüzün qorunması uğrunda gedən döyüşlərdə də böyük qəhrəmanlıq nümunələri göstərib. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda ön cəbhəyə yollanan ilk nizami qüvvələrdən biri məhz milis əməkdaşları və sonradan Daxili Qoşunlar olub. Birinci Qarabağ müharibəsində 1700-ə yaxın polis əməkdaşı və hərbi qulluqçu şəhid olub, 1710 nəfər yaralanıb. Göstərdikləri şücaətə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər isə müxtəlif orden və medallara layiq görülüb.

44 günlük Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları və polis əməkdaşları ön sıralarda döyüşərək mühüm tapşırıqları uğurla yerinə yetiriblər. Müharibə zamanı Daxili Qoşunların 66 hərbi qulluqçusu şəhid olub, 346 nəfər yaralanıb. Prezident İlham Əliyevin sərəncamları ilə Daxili Qoşunların 1690 əməkdaşı müxtəlif orden və medallarla təltif olunub, onlardan 4 nəfərə ”Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.

2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı da Daxili İşlər Nazirliyinin əməkdaşları qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər. Həmin əməliyyatlarda DİN-in 20 əməkdaşı şəhidlik zirvəsinə ucalıb.

İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, müvəqqəti komendantlıqların fəaliyyəti, Böyük Qayıdış proqramının icrası, mina təhlükəsinin aradan qaldırılması, qanunsuz silah və partlayıcı vasitələrin aşkarlanaraq zərərsizləşdirilməsi istiqamətində də polis əməkdaşları gecə-gündüz xidmət aparırlar.

Bu gün Azərbaycan polisi müasir çağırışlara uyğun fəaliyyət göstərən, beynəlxalq standartlara cavab verən, peşəkar və mərkəzləşdirilmiş hüquq-mühafizə sistemi kimi fəaliyyətini davam etdirir. Cinayətkarlıqla mübarizə, kibertəhlükəsizliyin təmin olunması, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması Daxili İşlər orqanlarının əsas fəaliyyət istiqamətlərindəndir.

**108 illik şərəfli yol göstərir ki, Azərbaycan polisi yalnız qanunun keşiyində dayanan qurum deyil, həm də çətin gündə insanların ilk üz tutduğu ünvanlardan biridir. Gündəlik xidmətdə, fövqəladə hadisələrdə, təbii fəlakətlər zamanı, müharibə meydanında və ölkənin təhlükəsizliyinin təmin edilməsində göstərdikləri xidmətlər polis əməkdaşlarının Vətənə və xalqa sədaqətinin bariz nümunəsidir.**

***İqbal ALISOY,***
***Bakıvaxtı.az Xəbər Portalının təsisçisi***



## Xalqımızın güvən yeri: Azərbaycan Polisi

**Bəzən bir şəhərin rahat yuxusunun arxasında görünməyən qəhrəmanlar dayanır. Səhər işə tələsən insanların, məktəbə gedən uşaqların, axşam evinə arxayın qayıdan ailələrin bəlkə də heç düşünmədiyi bir həqiqət var: təhlükəsizlik təsadüf deyil. O, gecəsini gündüzünə qatan insanların səssiz xidmətinin nəticəsidir.**

**Polis forması çiyinlərə qoyulan ağır məsuliyyətin, dövlətə sədaqətin və xalqa xidmət andının rəmzidir. Həmin forma geyinildiyi andan etibarən şəxsi rahatlıq arxa plana keçir, ön plana isə qanunun aliliyi, vətəndaşın təhlükəsizliyi və dövlətin maraqları çıxır.**

**Azərbaycan polisi uzun və şərəfli inkişaf yolu keçib. Müstəqilliyimizin ilk illərində ölkənin üzləşdiyi çətin sınaqlardan tutmuş, terrora, cinayətkarlığa və ictimai təhlükəsizliyə yönələn təhdidlərə qədər hər mərhələdə öz peşəkarlığını nümayiş etdirib. 44 günlük Vətən müharibəsində və sonrakı dövrdə də polis əməkdaşları ön cəbhədə və arxa cəbhədə dövlətə sədaqətin necə yaşandığını göstərdilər. Onların bir qismi şəhidlik zirvəsinə ucaldı, bir qismi isə sağlamlığını itirsə də, Vətənə xidmət andına sadiq qaldı.**




**Ancaq polisin ən böyük uğuru təkcə cinayətkarın yaxalanması deyil. Onun ən böyük uğuru cəmiyyətin özünü təhlükəsiz hiss etməsidir. İnsanlar övladlarını rahatlıqla məktəbə yola salanda, gecə küçədə arxayın addımlayanda, qanunun onları qoruyacağına inananda polis öz missiyasını yerinə yetirmiş olur.**

**Bu peşənin qəhrəmanlığı çox vaxt alqışlarla deyil, səssizliklə ölçülür. Onlar bayram günlərində də xidmət başındadırlar, ailə süfrəsindən qalxıb çağırışa gedirlər, bəzən öz doğmalarından əvvəl tanımadıqları insanların həyatını xilas etməyə tələsirlər. Çünki onların peşəsi məsuliyyətdir, vicdandır, dövlətə və xalqa verilmiş sözdür.**

**Azərbaycan Polisi Günü dövlətçiliyin keşiyində dayanan, qanunun aliliyini qoruyan, cəmiyyətin təhlükəsizliyi naminə fədakarlıq göstərən insanların əməyinə verilən dəyərin ifadəsidir.**

**Sükutun da bir səsi olur. O səs bəzən gecənin qaranlığında xidmət aparan polis avtomobilinin işığında, bəzən vətəndaşın ”çox sağ olun” sözündə, bəzən isə təhlükəsiz sabaha açılan bir səhərin səssizliyində eşidilir. Çünki dövləti güclü edən yalnız sərhədlərini qoruyanlar deyil, həm də onun daxilində qanunun, nizamın və əmin-amanlığın keşiyində dayananlardır.**

**Azərbaycan Polisi Günü münasibətilə bütün polis əməkdaşlarını təbrik edir, şəhid olmuş daxili işlər orqanları əməkdaşlarının əziz xatirəsini ehtiramla yad edir, xidmətdə olan hər bir polisə möhkəm cansağlığı, qətiyyət və şərəfli fəaliyyət arzulayıram.**

## *“Azərbaycan İsraildəki səfirini məsləhətləşmələr üçün geri çağırmalıdır”*



**”İsrail parlamenti qondarma erməni soyqırımını tanıyarsa, Azərbaycan İsraildən səfirliyini geri çağırmalıdır. İlk növbədə bu qərar Azərbaycan -Ermənistan normallaşma prosesini hədəfə alır. Görünür, İsrailin Baş naziri 40 günlük İsrail -İran müharibəsində Azərbaycanın İrana humanitar yardımı və Prezident İlham Əliyevin hər həftə M. Pezeşkianla telefon danışığını unutmaq istəmir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, deyib ki, İsrailin Baş naziri B.Netanyahu Qəzzada soyqırım həyata keçirib: ”Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən cinayətkar kimi rəsmi şəkildə tanınıb və həbsinə order verilib. Belə bir cinayətkar baş nazirin tarixdə olmayan qondarma bir soyqırımını tanıması absurddur.Ermənistan hakimiyyətinin imtina etdiyi soyqırım iddialarını tanımaq İsrailə müsbət nəticə verməyəcək. İsrailin Baş naziri müharibə cinayətkarıdı və rəsmi Bakı bu cinayətkar hökumətlə siyasi əlaqələri aşağı səviyyəyə endirməsi labüddür. Türkiyə ilə Azərbaycan strateji və qardaş müttəfiqdir. İsrailin qondarma erməni soyqırımını tanıması təkcə Türkiyəyə qarşı deyil, bu Azərbaycana qarşıdır”.

**Vasif ƏLİHÜSEYN**

## *Yasamalda vətəndaşın evinin qanunsuz sökülməsi iddialarına cavab*



**Bir sıra sosial şəbəkə platformalarında Yasamal rayonu, B. Səfəroğlu küçəsi 78 ünvanında yaşayan vətəndaşın evinin qanunsuz olaraq sökülməsi iddiaları yayılıb.**

Yasamal rayon Icra Hakimiyyətindən Adalet.az-a verilən xəbərə görə, Yasamal rayonu, B. Səfəroğlu küçəsi 78 ünvanında yaşayan sakin Tatyana Aqafonovanın yaşadığı evin istismar müddəti başa çatıb.

Qeyd edilib ki, müvafiq komissiya tərəfindən aparılan qiymətləndirmə və köçürülmə prosesi çərçivəsində sakin tərəfindən əmlakın bazar dəyərindən dəfələrlə yüksək məbləğ tələb edilib: ”Eyni zamanda, çıxarışla rəsmiləşdirilmiş sahədən əlavə, sakinin faktiki istifadəsində qanunsuz tikilmiş, binanın konstruktiv dayanıqlılığına mənfi təsir göstərən və qəzalı binanın vəziyyətini daha da ağırlaşdıran əlavə tikili mövcuddur və hal-hazırda evin deyil, sözügedən qanunsuz inşa edilmiş əlavə tikilinin söküntüsü işləri aparılır.

Qeyd edək ki, keçmiş ”Sovetski” kimi tanınan ərazidə istismar müddəti başa çatmış tikililərin söküntü işləri aparılır. Sakinlərə bazar qiymətinə uyğun kompensasiya ödənilməklə köçürülmə prosesi həyata keçirilir. Proses tam yekunlaşdıqdan sonra ərazinin abadlaşdırılması, mövcud tarixi binaların təmiri və bərpası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur”.

## *Türkiyədə genişmiqyaslı əməliyyat*

**Türkiyədə son bir ay ərzində dələduzluq və çirkli pulların yuyulmasına qarşı həyata keçirilən genişmiqyaslı əməliyyatlar nəticəsində yüzlərlə şübhəli saxlanılıb.**

Adalet.az xəbər verir ki, Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Polis Baş İdarəsinin İctimai Asayiş Departamentinin yaydığı məlumata görə, ölkənin 23 vilayətində ”Kvalifikasiyalı dələduzluq” və ”Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (pul yuyulması)” cinayətləri üzrə ümumilikdə 45 əməliyyat keçirilib.

Əməliyyatlar zamanı 307 şübhəli şəxs saxlanılıb. Araşdırmalar zamanı onların bank hesablarında ümumi dövriyyənin 5 milyard 388 milyon türk lirəsi təşkil etdiyi müəyyən edilib.

Rəsmi açıqlamada bildirilib ki, qanunsuz yollarla gəlir əldə etməyə çalışan cinayətkar şəbəkələrin və çirkli pulların leqallaşdırılması ilə məşğul olan qrupların ifşa edilməsi istiqamətində hüquq-mühafizə orqanlarının fəaliyyəti fasiləsiz davam etdirilir.

Qurum qeyd edib ki, bu istiqamətdə təhlükəsizlik qüvvələri və aidiyyəti dövlət strukturları ilə koordinasiyalı şəkildə mübarizə bundan sonra da qətiyyətlə davam etdiriləcək.



Elxan Şükürlü

# İnsanlarımıza etibar ünvanı olasınız!

*Azərbaycan olduqca çətin, mürəkkəb coğrafiyada yerləşir. Ölkəmiz Qərblə Şərqin, Şimalla Cənubun - fərqli mədəniyyətlərin, qüdrətli sivilizasiyaların həm toqquşma, həm də uzlaşma imkanlarına sahib unikal bir məkan, qovşaqdır.*

*"Körpü, qovşaq ölkə" statusu bizə təkcə üstünlüklər yox, həm də çoxsaylı risk və təhlükələr yaradır: hər kəs bu "körpü, qovşaq ölkə"nin öz nəzarətində olmasına çalışır, bunun üçünsə təkcə çöldən yox, daha çox da içdən davamlı və sistemli təxribat və pozuculuq işi aparır...*

*Bu baxımdan, Azərbaycanın müstəqil dövlət ola və müstəqil siyasət yürüdə bilməsinin birinci və ən vacib şərti ölkənin təhlükəsizliyini, daxili sabitliyi və ictimai asayişi təmin etmək, xalqımızı həm içdən, həm də çöldən gözləyən bütün risk və təhlükələrdən zamanında sığortalamaq, qorumaqdır!*

*Təhlükəsizliyi təmin edilməyən, daxili sabitliyi və əmin-amanlığı olmayan ölkə ciddi uğura imza ata, hər hansı müstəqil siyasətdən danışa və rifah dövlətinə çevrilə bilməz!*

*Bu gün Azərbaycanımızın təhlükəsizliyinin təmin edilməsində, ictimai-siyasi sabitliyin qorunub saxlanmasında müstəsna rolu olan, ən çox çalışan, ancaq həm də ən çox tənqid hədəfinə tuş gələn bir peşə təmsilçilərinin - Azərbaycan Polisinin bayramıdır!*

*Bu, vicdanı olan hər kəsin dilə gətirdiyi həqiqətdir: biz 2020-ci ilin Vətən Savaşında və 2023-cü ilin antiterror əməliyyatlarında həm də ona görə uğur qazana bildik ki, Azərbaycan Polisi üzərinə düşən ən mühüm vəzifəni layaqətlə və peşəkarlıqla yerinə yetirməyi bacardı!*

*Əgər düşmən və onun himayədarları illər boyu ölkəmizin içərisində yetişdirib, kritik anlar üçün hazırladığı qüvvələri Ordumuzun şücaətlə ön xətdə irəlilədəyi günlərdə arxada hərəkətə keçirməyi və içimizə nifaq, təfriqə salmağı bacarsaydı, hər şeyi bircə anda itirə bilərdik!*

*Ən azı, 1990-95-ci illər aralığında yaşanan olayları xatırlayaq: məgər bütün uğursuluqlarımızın və faciələrimizin, yaşadığımız çətinliklərin təməlində elə daha çox daxili sabitliyin təmin edilməməsi, nizamsızlıq və xaos durmurdumu?!*

*Şükür ki, o xaos, hərc-mərclik, başıpozuqluq dönəmi bitdi, ayrı-ayrı silahlı qrupların, cinayətkar dəstələrin və şəxslərin dövlətə öz şərtlərini diktə etmək, dövlətdən güclü görünmək və kefi istədiyi kimi davranmaq ənənələrinə son qoyuldu!*

*Uzun illər ən böyük arzumuz, Allaha duamız Azərbaycan Polisinin Şuşada, Xankəndidə, Xocalıda, Laçında, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda, Ağdamda, Ağdərədə, Xocavənddə... keşik çəkdiyi günləri görmək idi, onu da gördük!*

*Bundan sonrakı əsas işimizsə divarlarını - sərhədlərini yenicə bərpa edə bildiyimiz Evimizin - Dövlətimizin içini Cənnətə çevirmək, onu yalnız ƏDALƏTİN və QANUNUN hakim olduğu, milli-mənəvi dəyərlərimizin sayıqlıqla qorunduğu rifah dövlətinə çevirməkdir!*

*Şübhəsiz ki, bu işdə də ən böyük yük, ağırlıq yenə Azərbaycan Polsinin üzərinə düşür!*

*Öz vəzifələrini yerinə yetirərkənsə, Azərbaycan Polisi bizdən önçəki fatehlərin və müdriklərin iki deyimini heç vaxt unutmamalıdır: birincisi, "Məmləkətlər qılıncla fəth edilər, ancaq yalnız ədalətlə idarə olunar"; ikincisi, "Ədalətsiz güc zalım, gücsüz ədalətsə aciz olar!"*

*Ölkəmizi, xalqımızı, dəyərlərimizi təhlükələrdən qoruyan ən böyük ƏDALƏTLİ GÜC olmanız arzusuyla, bayramınız mübarək, Azərbaycan Polisi!*

*Həmişə düşmənlərimizə, zalıma və azğına keçilməz sədd, məzluma güvənc və ümid yeri, insanlarımıza etibar ünvanı olasınız!*

## Kiyevdə matəm elan edildi



**Ukraynanın paytaxtı Kiyevdə matəm elan edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Kiyev meri Vitali Kliçko bildirib.

Onun sözlərinə görə, iyulun 3-də Rusiyanın Kiyevə genişmiqyaslı hücumu nəticəsində ölənlərin xatirəsinə matəm günü elan edilib.

Matəm günü paytaxt Kiyevdə dövlət bayraqları endiriləcək, əyləncə xarakterli tədbirlər keçirilməyəcək və həlak olanların xatirəsi ehtiramla yad ediləcək.

Son məlumata əsasən, Rusiyanın Kiyevə genişmiqyaslı hücumu nəticəsində 13 nəfər ölüb, 86 nəfər isə yaralanıb.

# Əli qabarlı tələbə: yeni nəsil Qarabağda bərkimək istəyir?

**Son günlər yenə sosial şəbəkələrdə aktiv şəkildə Milli Məclisin deputatı Aqil Abbasın bir neçə il bundan əvvəl plenar iclasda etdiyi çıxışın videoyazısı müzakirə olunur. Deputat çıxışında tətil vaxtı tələbələri Qarabağa bərpa işlərində çalışmağa göndərilməsini təklif etmişdi. Videoyazıya görə, söhbət ”küçələrdə avara-avara gəzən tələbələrin” tərbiyəvi məqsədlə ödənişsiz işə cəlb edilməsindən gedir ki, bu da sosial şəbəkə istifadəçilərinin çılğın reaksiyasına səbəb olub.**

Qeyd edək ki, tələbə inşaat dəstələrinin bərpa olunması məsələsi, müxtəlif kontekslərdə Milli Məclisdə dəfələrlə səsləndirilib. Bu təşəbbüslər bir çox hallarda iqtisadi vəziyyətlə, digər hallarda isə, tələbələrin peşəkarlığının artırılması məqsədləri ilə irəli sürülüb.



**Milli Məclisin deputatı Aqil Abbas**, ”Haqqın. az”la söhbətində çıxışının montaj və təhrif edildiyinə əsəbləşdiyini bildirdi.

”Mən bu çıxışı parlamentdə dörd il bundan öncə etmişəm. Əslində mən, ali məktəblərdə tələbə inşaat dəstələrinin bərpa edilməsini təklif etmişəm. Burada ödənişsiz əməkdən söhbət getməyib. Tələbələrin iki aylıq əməyi, Qarabağda tikintidə çalışan digər işçilərin əmək haqqına uyğun ödənilməlidir.

Tikinti-bərpa işlərində çalışan işçilər ayda 1500 manat əmək haqqı alırlar. Beləliklə tələbələr təhsil haqlarını ödəyə bilər, yeni peşələrə sahib ola bilərlər.

Bundan başqa gələcəkdə Qarabağda ixtisaslarına uyğun işlə təmin olunmaq üçün üstünlük əldə edə bilərlər. Digər tərəfdən böyük tarixi hadisədə, Qarabağın bərpasında iştirak etmək tələbələrə mənəvi stimul verəcək”- deyə deputat çıxışına aydınlıq gətitib. O, həmçinin ideyanın bir çox tələbələr tərəfindən dəstəklənəcəyinə əmin olduğunu bildirib.

Qeyd edək ki, 1989-cu ildə Sovet İttifaqının bütün ali məktəblərində Ümumittifaq tələbə- inşaat dəstələri fəaliyyət göstərirdi. Bu, tələbələrin könüllü olaraq, SSRİ-nin irimiqyaslı obeyektlərində ödənişli əməyə cəlb edilməsi proqramı çərçiəsində həyata keçirilirdi.

Tələbələr Azərbaycanda Heydər Əliyev adına İdman Konsert Kompleksinin tikintisində, Bakı Dövlət Universitetinin yeni korpusunun, Azərbaycan arxitektura, tikinti və digər ali məktəblərin binalarının tikintilərində iştirak ediblər. Onlar həmçinin 1982-ci ildə İsmayıllıda baş verən zəlzələ nəticəsində dağılmış administrativ binaların, Qoşakənd, Təzəkənd və digər yaşayış məntəqələrinin bərpasında da iştirak ediblər, eyni zamanda SSRİ-nin digər regionlarında və hətta Çexoslovakiyada tikintilərdə çalışıblar.

Ekspert qiymətləndirməsi və **Alim iqtisadçı Vahid Əhmədov** tikinti dəstələrinin bərpa olunması ideyasını müsbət qiymətləndirib:

”Tələbələrin çoxu yayda işləmək istəyirlər. Tətil vaxtı onları əmək birjalarında görmək olur. Təbii ki, bu məsələyə tələbə inşaat dəstələri formasında baxmaq dövlət üçün müsbət



faktor kimi qiymətləndirmək olar. İki-üç ay ərzində onlar əlavə xərclərindən başqa 1000 manata qədər pul qazanna bilərlər ki, bu da onların illik təhsil haqlarının yarısı deməkdir. Beləliklə, Qarabağdakı bərpa işlərinə hər il 15-20 min əlavə qüvvə cəlb etmək olar. Hər il 55-60 minə yaxın vətəndaş tələbə olmaq hüququ qazanır”.

Alim-iqtisadçı Vahid Əhmədov özü də tələbə vaxtı Taqanroq şəhərində tələbə inşaat dəstəsində iştirak etdiyini bildirib: ”Mən tələbə olanda tələbə-inşaat dəstəsi ilə Taqanroqda işləmişəm. Tələbə inşaat dəstəsi hərəkatına hökumət tərəfindən ciddi nəzarət olunurdu. Heç bir məmurun övladı bu



hərəkatda iştirak etməkdən boyun qaçıra bilməzdi”.

Əhmədovun sözlərinə görə, bu ideyanın müvəffəqiyyətlə həyata keçirilməsi üçün iki vacib şərtə əməl olunmalıdır. Birincisi, bu işlərdə iştirak etmək bütün tələbələrə şamil olunmaqla məcburi qaydada həyata keçirilməlidir.

”İkincisi, tələbə-inşaat dəstələrində tələbələr üçün normal infrastruktur yaradılmalı, onlar yataqla, yeməkxana, tibbi xidmətlə və işləmək üçün digər şəraitlərlə təmin olunmalıdır. Yalnız bu şərtlər yerinə yetirilərsə tələbə-inşaat dəstələri müvəffəqiyyətlə həyata keçirilə bilər və bütün tərəflərə xeyir gətirər”- deyə Əhmədov bildirib.

Beləliklə, Aqil Abbasın təklifi əvvəlcə məcburi qaydada əməyə cəlb olunma kimi başa düşülsə də, əslində tələbələrin ödənişli əməyə cəlb olunması təşəbbüsü kimi qiymətləndirilməlidir. Lakin Vahid Əhmədov ədalətlə qeyd edir ki, yüksək nailiyyət üçün normal şəraitin yaradılması əsas faktor kimi qəbul olunmalıdır. Bu həmçinin normal şəraitdən başqa əməyə hörmət edilməsi və tələbələrin təhlükəsizliyinin təmin edilməsidir.

Xüsusilə qeyd etmək lazımdır ki, Qarabağın bərpası - uzun müddətli prosesdir. Bu böyük resurslar və güc tələb edir, tələbə-inşaat dəstələri bu zəncirin halqalarından biri ola bilər.

Tələbələr bu barədə nə düşünür?

Haqqın.az ölkənin iri ali məktəblərindən birində - Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələr arasında sorğu keçirib. Maraqlıdır ki, Qarabağda tələbə-inşaat dəstələrində iştirak etmək ideyası təkcə gənc oğlanların deyil, qızların da ürəyincədir. Çoxları qeyd etdi ki, belə bir qruplarla Qarabağda işləməyə getmək əla olardı.

Tələbələrin əksəriyyəti onsuz da təhsillə yanaşı işləyirlər: ”Kimisi ofsisiant, satıcı-məsləhətçi, çatdırılma xidmətində, həmçinin super market və otellərdə fəhlə kimi çalışırlar. Lakin Qarabağda iki aylıq işləmək onlara daha sərfəli görünür. Bundan başqa, bu səfərin romantika faktoru az rol oynamır. Eyni zamanda onlar dostları ilə azad olunmuş əraziləri ziyarət etmək imkanları qazanırlar”.

Tələbələr sosial şəbəkələrdə bu ideya ətrafında diskussiyalar açmağı təklif etdilər. Güman etmək olar ki, tələbə inşaat dəstələri məsələsi Milli Məclisdə də müzakirə olunacaq. Ona görə də tələbə inşaat dəstələrinin uğurlu təcrübəsi və müasir reallıq nəzərə alınaraq diskussiyaların aparılmasına ehtiyac var. Əgər bu təşəbbüs həyata keçirilərsə onda TİD Qarabağın bərpa olunmasında effektli alət olmaqla yanaşı, yeni nəsil azərbaycanlıların qiymətli təcrübə toplamasına, onlarda tarixi hadisələrə məsuliyyətlə yanaşmaq hissi formalaşdırmağa kömək edər.

Müəllimlərin ümumi fikrini Haqqın.az-a **ADPU-nun ictimaiyyət və marketinqlə əlaqələr şöbəsinin rəhbəri Taleh Mirzəyev** səsləndirdi: ” ADPU olaraq biz böyük məmnuniyyətlə işğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı təmir-bərpa işlərində iştirak etmək təşəbbüsünü dəstəkləyirik.

Müəllim və tələbələrin bu layihələrdə iştirak etmək imkanları bizim üçün prioritet məsələdir. Biz fəxrlə Qarabağda təhsil müəssisələrinin tikintisinin yüksəlişini izləyirik. Xüsusilə Qarabağ Universitetinin fəaliyyətini yük-



sək qiymətləndiririk. Əgər bununla bağlı müvafiq qərar və tələbələrin təmir-bərpa işlərində iştirak etmək mexanizmi hazırlanarsa biz əminik ki, universitetimizin əməkdaşları və tələbələri bu işdə aktiv iştirak edəcəklər”.

**Ceyhun Nəcəfov, Haqqın.az**
**Ruscadan tərcümə etdi: Rüstəm Hacıyev**



Səxavət MƏMMƏD

# Azərbaycan bu vəziyyəti öz xeyrinə çevirə bilər...

İsrail hökumətinin "erməni soyqırımı"nı tanıması ilə bağlı qətnamə qəbul etməsi və bu istiqamətdəki addımları regional geosiyasətdə yeni müzakirələrə yol açıb. İsrail hökuməti tərəfindən belə bir addımın atılmasının verə biləcəyi fəsadlar, eləcə də hər iki ölkənin Azərbaycan üzərindən apardığı hibrid müharibə barədə bir qədər sonra... Ancaq öncə gələk prosesin əsas doğurucu səbəbinə.

Təbii ki, İsrail tərəfi də, elə Azərbaycandakı bir çox siyasi şərhçilər də baş verənləri Türkiyənin Fələstin məsələsinə münasibəti, Qəzzada baş verənləri soyqırım adlandırması ilə əlaqələndirirlər. Ancaq Ankara-Tel-Əviv münasibətlərinin arxasında yatan əsas səbəb iki ölkənin müəyyən mənada Yaxın Şərqdə, xüsusilə Şərqi Aralıq dənizindəki amansız rəqabətindən irəli gəlir.

Hesab edirəm ki, Fələstin məsələsi, Qəzzada baş verənlər və ideoloji bəyanatlar kütlələrə xitab edən, medianın gündəmini zəbt edən və siyasi liderlərin daxili auditoriya üçün istifadə etdiyi görünən tərəf, yəni sadəcə vitrindir. Pərdəarxasında, dövlət maraqlarının toqquşduğu əsas məsələ isə məhz Şərqi Aralıq dənizi, enerji geosiyasəti və regional hegemonluq mübarizəsidir.

Bu o demək deyil ki, İsrailin Qəzzada törətdikləri qəbul edilən bir şeydir. Faktiki olaraq İsrailin Qəzzadakı hərəkətləri onu məzlum, soyqırıma məruz qalmış bir xalq olmaq imicindən tamamilə çıxarıb. İsrailin etdikləri vaxtilə ABŞ-nin yerli xalqlara, Fransanın Əlcəzairə, Almaniyanın yəhudilərə, Ermənistanın isə Xocalıda dinc əhaliyə qarşı törətdiyi qırğınlardan fərqlənmir.

Niyə Fələstini və Qəzzada baş verənləri prosesin vitrini hesab edirəm? Çünki 2022-ci ildə, Qəzza hadisələrindən əvvəl Türkiyə və İsrail münasibətləri qəfildən normallaşmağa başlamışdı. 2022-ci ilin martında İsrail Prezidenti İshak Hersoqun Ankaraya tarixi səfəri baş tutdu və ardından elə həmin ilin sentyabrında Nyu-Yorkda Ərdoğan-Netanyahu görüşü keçirildi. Səbəb nə idi, Fələstin problemimi həll olunmuşdu? Xeyr. Səbəb o idi ki, tərəflər Şərqi Aralıq dənizində (2009-cu ildə İsrail sahillərində "Tamar", 2010-cu ildə isə daha böyük "Leviafan" qaz yataqları) kəşf edilən qazın Türkiyə üzərindən Avropaya daşınmasını razılaşdırmaq istəyirdilər.

Tərəflər masada tam razılaşmaq üzrə ikən bu anlaşmanın baş tutmamasının və layihənin dondurulmasının arxasında həm iqtisadi-strateji fikir ayrılıqları, həm də geosiyasi fors-major hadisələr dayandı. Bir tərəfdən Tel-Əviv özünün ən mühüm strateji aktivi olan təbii qazın ixrac ipini tamamilə Türkiyənin əlinə verməkten çəkinirdi. İsrail rəhbərliyi qorxurdu ki, gələcəkdə münasibətlər yenidən pisləşsə, Ankara bu kəməri bağlayaraq Rusiyanın Avropaya etdiyi kimi İsraili şantaj edə bilər.

Türkiyə isə sözügedən qaz kəmərinin təkcə ərazisindən keçməsində yox, həm də bir enerji qovşağı kimi onun qiymətləndirilməsində və paylanmasında maraqlı idi. Üstəlik, İsrail qazını Türkiyəyə gətirmək üçün çəkiləcək sualtı boru kəməri coğrafi olaraq Cənubi Kiprin elan etdiyi dəniz zonalarından keçməli idi. Beynəlxalq dəniz hüququna görə, Cənubi Kipr bu kəmərin keçməsinə icazə verməli idi, Türkiyə isə bildiyimiz kimi, Cənubi Kipri dövlət kimi tanımır.

Danışıqlar uzandıqca İsrail alternativ yollar tapdı. Qazı boru xətti ilə Türkiyəyə aparmaq yerinə, borularla Misirə nəql etməyə başladı. Misirdəki mövcud maye qaz terminallarında İsrail qazı mayeləşdirilərək tankerlərlə Avropaya göndərildi. Bu infrastruktur hazır olduqdan sonra İsrailin Türkiyədən keçəcək boru kəmərinə olan kəskin ehtiyacı və asılılığı xeyli azaldı. Layihənin tabutuna vurulan son və ən ağır mismar isə 7 oktyabr 2023-cü ildə Qəzzada başlayan hadisələr oldu. Həmin vaxta qədər tərəflər hələ də texniki detalları müzakirə edirdilər və hətta Türkiyənin Enerji nazirinin Tel-Əvivə səfəri planlaşdırılırdı. Qəzza böhranı isə bu yarımçıq qalmış prosesi tamamilə dondurdu və müttəfiq olacaq tərəflər öncə rəqibə, hazırda isə düşmənə çevrildilər.

Təbii ki, Türkiyənin Şərqi Aralıq dənizində hüquqi və hərbi baxımdan sərtləşməsinin də ciddi səbəbləri var idi. 2019-cu ildə İsrail, Misir, Yunanıstan, Cənubi Kipr, İordaniya, İtaliya və Fələstin Qahirədə birləşərək rəsmi bir enerji bloku yaratdılar, 2020-ci ilin sentyabrında isə bu blok rəsmi beynəlxalq təşkilata çevrildi. Daha sonra bu təşkilata Fransa tam hüquqlu üzv kimi qoşuldu, ABŞ və Avropa İttifaqı isə müşahidəçi statusu aldılar. Regionun ən uzun sahil xəttinə malik ölkəsi olan Türkiyə isə bu forumdan tamamilə təcrid edildi. İsrailin rəhbərlik etdiyi bu koalisiyanın onu dənizdə tamamilə mühasirəyə aldığını görən Türkiyə, illərdir rəflərdə qalan hərbi-dəniz doktrinasını - Mavi Vətəni rəsmi dövlət siyasətinə çevirdi. Türkiyə dərhal özünün nəhəng kəşfiyyat və qazma gəmilərini hərbi gəmilərin müşayiəti ilə İsrail və Kiprin iddia etdiyi sahələrə göndərərək dolayısıyla bildirdi ki, mənim icazəm olmadan burada heç kim qaz çıxara və ya keçirə bilməz. Ardınca isə Türkiyə Aralıq dənizinin digər sahilindəki Liviya ilə dəniz sərhədi müqaviləsi imzaladı. Bu xətt İsrail-Yunanıstan koordinasiyalı EastMed layihəsinin keçəcəyi dəniz zonasını tam ortadan kəsdi və hüquqi olaraq həmin layihəni iflic etdi.

Türkiyənin layihədən kənarda saxlanılması ilə başlayan problem artıq hərbi müstəviyə də keçib. İsrail hazırda Yunanıstan və Kipr rumları ilə sıx hərbi əməkdaşlıq edir, üstəlik Fransa da bu prosesə qoşulub. Yəni, İsrailin qondarma "erməni soyqırımı"nı ortaya atmasında və Türkiyənin Qəzzada baş verənləri soyqırım kimi tanıtmaq üçün apardığı siyasətin arxasında Yaxın Şərqdə və Şərqi Aralıq dənizindəki amansız mübarizə durur. Yeri gəlmişkən, sözügedən layihə zaman-zaman Azərbaycanla Türkiyə arasında da müəyyən rəy ayrılıqlarına və soyuqluğa səbəb olmuşdu. Bizim bəzi analitiklərin iddia etdiyi siyasi islam və ya ərəblər qalıb kənarda fələstinliləri niyə Türkiyə müdafiə edir tipli yanaşmaları əslində elə həmin vitrinin bir hissəsidir.

Bəs bu rəqabətin Azərbaycana təsiri mümkündürmü? Şübhəsiz. Tərəflər onsuz da uzun illərdir ki, Azərbaycanda sosial şəbəkələr və mətbuat üzərindən kəşfiyyat, informasiya, media, iqtisadiyyat və ictimai rəy müstəvisində hibrid müharibə aparırlar. Hər iki dövlət Azərbaycan cəmiyyətinin ictimai rəyini öz xeyrinə manipulyasiya etmək üçün yumşaq gücdən istifadə edir.

Türkiyəpərəst xətt Azərbaycan mediasında, sosial şəbəkələrdə və ictimaiyyətdə mövcud olan güclü türksevərlik emosiyasından istifadə edərək İsrail əleyhinə rəy formalaşdırmağa çalışır. Bu tərəfin analitikləri Türkiyə Qarabağa görə Ermənistanla münasibətləri normallaşdırmadı fikrini daim göz önündə saxlayırlar.

İsrail isə əksinə, İkinci Qarabağ Müharibəsində verdiyi hərbi-texniki, yəni PUA-ları, raket sistemləri kimi dəstəyi mütəmadi olaraq xatırlatmaqla, çətin gündə yanınızda olan dost imicini qorumağa çalışır. İsrailpərəst analitiklər və yəhudi lobbisinə yaxın şəbəkələr media vasitəsilə Azərbaycan cəmiyyətinə İsraili itirsək, regional balans pozular tezisini aşılayırlar.

Azərbaycan cəmiyyəti daxilində bəzi qrupların mənəvi-dini təəssübkeşliklə strateji-milli maraqlar arasında qütbləşməsi məhz bu informasiya rəqabətinin nəticəsidir. Hətta bəzi məqamlar olur ki, cəmiyyətdə müzakirəyə çıxarılan məsələlərin hansı cəbhədən gəldiyi də məlum olmur. Çox zaman bu rəqabətin qurbanına Rusiya və İran çevrilir, arada ən çox tənqid olunan və söyülən onlar olur.

Digər tərəfdən, Azərbaycan həm Türkiyə, həm də İsrail müdafiə sənayesi üçün çox prestijli və mühüm bir bazardır və ordunun modernləşdirilməsi prosesində də ciddi rəqabət mövcuddur.

Türkiyə ordunun strukturunu tam olaraq NATO standartına, yəni öz modelinə uyğunlaşdırmaq və əsas silah tədarükçüsü olmaq istəyir. İsrail isə özünün yüksək texnoloji silahlarını, hava hücumundan müdafiə sistemlərini, peyk texnologiyalarını və kiber-mühafizəsini Azərbaycana satmaqda maraqlıdır.

Türkiyə və İsrail beynəlxalq platformalarda fərqli qətnamələr üzərindən qarşı-qarşıya gələcək və hər iki tərəf Azərbaycanın səsvermə zamanı öz xeyrinə mövqe nümayiş etdirməsini və ya ən azı neytral qalmasını tələb edəcək. Bu, Azərbaycan diplomatiyasını hər addımda "mina sahəsində" yerimək məcburiyyətində qoyur və bundan sonra daha çox qoyacaq.

Bu amansız mübarizə Azərbaycanın müəyyən mənada zərərinə də ola bilər. Ancaq nəzərə almaq lazımdır ki, nə Türkiyə, nə də İsrail Azərbaycanı kimin bir tərəfdaşı itirmək istəmir. Azərbaycan isə bu vəziyyəti öz xeyrinə çevirə bilər və hər iki tərəfdən istifadə edərək güclənmək üçün addımlar ata bilər. Rəsmi Bakının ən yaxşı bacardığı iş məhz budur; balanslaşdır və öz xeyrinə istifadə et. Bu siyasət ta o zamana qədər davam edər ki, tərəflər açıq hərbi savaşa girsinlər. Çünki belə bir halın yaşanması Azərbaycan üçün həqiqətən də arzuolunmaz və ağır nəticələr verə bilər.

Aqşin YENİSEY

# Xalq, yoxsa millət?



*Xalq kəlməsi XIX əsrdə ortaya atılıb, təbəə anlayışının əvəzedicisidir. Kim atdı bu kəlməni ortaya? Mərhum filosof Heydər Camala görə, xalq kəlməsini Avropada sağçı sosialistlər, Rusiyada kommunistlər uydurub.*

*Türk millətçi ideoloqu Nihal Adsız da eyni fikirdədir. İtalyan alim və yazıçısı Umberto Ekonun da bu sözdən xoşu gəlmirdi.*

*Xalq idarə olunanın adıdır. Millət idarə edəndir. Millət anlayışı siyasi baxımdan təhlükəlidir. Millət məsuliyyət deməkdir, xalq məsuliyyətsiz kütlədir.*

*Millətin öz müqəddəratını təyin etmək kimi bir məsuliyyəti var. Bu məsuliyyət onu ağı qaradan seçməyə məcbur edir. Millətə alim lazımdır, filosof lazımdır, yazıçı, aktyor, həkim, müəllim lazımdır. Millət buna görə özünün ən yaxşılarının qədrini bilir.*

*Xalqa öz müqəddəratı ilə maraqlandırmadığına görə, bunların heç biri lazım deyil, xalq allah umuduna yaşayan bir kütlədir. Ona görə də nə alim qədri bilir, nə filosof.*

*Millət rasional mənşəlidir, həyata ağıl, hüquq, məntiqlə yanaşır. Xalq irrasional mənşəlidir, ağılın yerinə inancı, hüququn yerinə ənənəni, məntiqin yerinə mövhumatı qoyur.*

*Qərb və Şərq cəmiyyətlərini ayıran uçrumun səbəbi də budur: Qərbdə yaşayanlar millətdir, Şərqdə yaşayanlar xalq.*

*Biz yenilənmək, inkişaf etmək istəyiriksə, ilk növbədə, bolşevik mirası olan bu xalqçılıqla vidalaşmalıyıq. Bu vidalaşma çox çətin olacaq. Çünki bizdə elm və təhsil, sənət və ədəbiyyat, hətta iqtisadiyyat belə bu xalq kəlməsinin üzərində qurulub.*

*Xalq kəlməsini qəfildən dartsaq bütün ölkə üstümüzə uçacaq. Uçmalıdı da! Uçub-dağılmalıdır ki, biz özümüzdə yenisini yaratmaq məsuliyyəti və ehtiyacı duyaq.*

*Bu məsuliyyət və ehtiyac olmasa, Azərbaycan qiyamətəcən hər gün ölüb-dirilən eyni adamların ölkəsi olacaq.*

# Hər çimərliyə getmək olmaz...



Artıq ölkəmizdə çimərlik mövsümü başlayıb. İnsanlar bu günü çox böyük səbrsizliklə gözləyirkər! Lap gözəl! Bak?da isə çimərliyin öz ləzzəti var.Çünki Xəzər dənizin sahillərində bir- birinində gözəl çimərliklər var.

Gözəl qum, günəş vannası və səpsərin dəniz... Yay mövsümü təzə başlayıb, amma dənizdə, çayda, gölldə boğulub ölənlərin sayı 30- a çatıb.Dünən( yəni iyunun 22- də Mərdakən çimərliyində suda dörd nəfər boğularaq ölüb. Onlardan ikisi qardaşdır! Bax bu ağır faciədir! Və onlar çimərliyin nəzarət olmayan yerində çimirlərmiş.

Bu isə böyük təhlükədir! Hansı ki, davamlı alaraq Fövqəladə Hallar Nazirliyinin çimərliklərə nəzarət edən əməkdaşları əhalini dəfələrlə xəbərdar ediblər ki, onlar nəzarət olunmayan yerlərdə çımməsinlər! Çünki bu, birmənalı olaraq böyük təhlükədir? Belə ki, həmin yerlərdə dərin çuxurlar var, insanlar isə bunu bilmir və dərin su çuxurlarına düşərək boğulub ölürlər! Ona görə də çimərliklərə gedərkən nəzarət olunan yerdə çimmək lazımdır.

Bir çox çimərliklər də isə normadan artıq bakteriyalar var.Bu barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov mətbuata məlumat verib. O bildirib ki, Sahil, Hövsan, Dübəndi , Sumqayıtın bir neçə çimərliyi, eləcə də şimal və cənub bölgələrindəki bir çox çimərlikdə dəniz suyundan götürülən nümunələr laboratoriya analizindən sonra onlara normadan artıq bakteriyalar aşkar edilmişdir. Bu isə o deməkdir ki, adını çəkdiyimiz çimərliklərdə çimmək təhlükidir! Ona görə də insanlar dediklərimizi nəzərə almalıdırlar. Çimərliyə gedərkən təhlükəsiz və təmiz su hövzələrinə üz tutmaq lazımdır!

Emil FAİQOĞLU



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Ən qəhrəman polis – Azərbaycan polisi!

## 2 iyul – Azərbaycan Polisinin Peşə Bayramıdır!

**Dünyanın hər yerində polis var, amma dünyanın hər yerindəki polisdən fərqli olaraq Azərbaycan polisi daha güclü, daha vətənpərvər və daha peşəkardır. Bunu tək biz demirik! Bunu xaricdən gələn əcnəbilər də deyirlər. Bunlar hamısı aydındır. Çünki Azərbaycan polisi bugünkü gücə, qüvvəyə, peşəkarlığa gəlib çatmaq üçün çox çətin, ağır bir yol keçib və bu yolda olmazın əzab-əziyyətin yaşayıb!**

**Müstəqilliyə çatmaq üçün keçilən əzablı anlar, Birinci və İkinci Qarabağ Müharibəsində onların qəhrəmanlığı, cinayətkarlığa qarşı mübarizə, ictimai asayişin qorunması, insanların təhlükəsizliyi polisin çiyninə böyük yük, böyük məsuliyyət qoyub. Heç şübhəsiz ki, bu missiyanı, bu vəzifəni həyata keçirmək elə də asan deyildi. Amma Azərbaycan polisi bu vəzifələrin öhdəsindən bütün dövrlərdə bacarıqla, peşəkarlıqla gəlib. Ulu Öndər Heydər Əliyev və prezident İlham Əliyev Azərbaycan polisinə həmişə yüksək dəyər verib və onlara güvənib.**



**Polis də ölkənin ən çətin siyasi-iqtisadi vəziyyətində prezidentin və xalqın yanında olub və ona göstərilən etimadı layiqincə doğruldub! Bir faktı da qeyd edək ki, həm Ulu Öndər Heydər Əliyev, həm də prezident İlham Əliyev Azərbaycan polisinin maddi-texniki bazasının möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayıb. Polis mütəmadi olaraq ən müasir və yeni texniki avadanlıqla, dünya standartlarına cavab verən nəqliyyat vasitələri ilə təchiz edilib!**

**Bu imkanlar hesabına polis öz vəzifə borcunu yüksək peşəkarlıqla yerinə yetirib. Onu da qeyd edək ki, bu gün Azərbaycan dünyanın ən sabit və sakit ölkələrindəndir. Məhz sabitliyin və əmin-amanlığın təmin olunmasında polisin xidmətləri əvəzsizdir. General-polkovnik Vilayət Eyvazov daxili işlər naziri təyin ediləndən sonra polisin gücü, nüfuzu daha da yüksəlib və cinayətkarlığa qarşı, xüsusilə də narkotikanın satışına, yayılmasına qarşı mübarizə bir qədər də gücləndirilib! Təsadüfi deyil ki, son illər polisin apardığı peşəkar axtarış-əməliyyat tədbirləri nəticəsində tonlarla müxtəlif narkotik vasitələr dövriyyədən çıxarılıb, narkotacirlər saxlanılaraq cinayət məsuliyyətinə cəlb ediliblər.**

**Bu birmənalı olaraq polisin peşəkarlığı hesabına həyata keçirilib. Əgər bu əməliyyatlar polis tərəfindən aparılmasaydı, görün nə qədər insan ölkəmizdə "ağ ölümün" qurbanı ola bilərdi! Buna görə yenə biz polisə "çox sağol" deməliyik! Azərbaycan polisi Birinci və İkinci Qarabağ savaşında, eləcə də antiterror əməliyyatıda əsl qəhrəmanlıq göstərib! Nə qədər şəhid olan, qazi olan polislərimiz olub.**

**Bununla yanaşı, cinayətkarlığa qarşı mübarizədə canından keçən, igidlik göstərən polis əməkdaşları var. Və onların hər birinin adı xalqımızın tarixinə qızıl hərflərlə yazılıb. Şəhidlərin yeri Cənnət olsun, qazilərimizə Allah kömək eləsin! Bu peşə bayramı günündə hər bir polisin öz zəhməti var! Biz "Ədalət" qəzeti olaraq polislə birgə böyük layihələr həyata keçirmişik və həmişə onların yanında olmuşuq! Daxili İşlər Nazirinin Baş Narkotiklərlə Mübarizə İdarəsi, Baş Dövlət Yol Polisi İdarəsi, İnsan Alverinə Qarşı Mübarizə İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Çevik Polis Alayı sözün həqiqi mənasında öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir, ölkəmizdə ictimai asayişi yüksək səviyyədə təmin edirlər.**

**Buna görə xalqımız onlara öz minnətdarlığını bildirir. Çevik Polis Alayının işini isə xüsusilə qeyd etmək istəyirik. Onlar həm dövlət tədbirlərində, həm də paytaxtımızda təhlükəsiyi yüksək səviyyədə təmin edirlər! Alayın Binəqədi bölüyünün komandiri Elvin Babayevin və əməkdaşlarının zəhmətini xüsusilə qeyd etmək lazımdır. Bununla yanaşı, Alayın Nizami, Suraxanı, Nərimanov, Yasamal, Səbail rayonlarının əməkdaşları da öz işlərinə məsuliyyətlə yanaşırlar.**

**Peşə bayramı münasibətilə cənab nazir, general-polkovnik Vilayət Eyvazov başda olmaqla, bütün polis əməkdaşlarını təbrik edir, onlara cansağlığı arzulayır, uğurlar diləyirik. Cənab polislər, prezidentimizə, xalqımıza sədaqətli xidmət etdiyinizə görə millətimiz də sizi çox istəyir! Tanrı Azərbaycan Polisini qorusun!!!**

## *Gecə yata bilmədim...*



.... Gecə saat 12:50 dəqiqədir, yata bilmirəm... Yağışın müsiqyə bənzər səsi məni yuxudan oyadır....Pəncərədən bir müddət yağan yağışa baxıram... Qəlbim və ruhum dincələr... Yadıma dünyasını dəyişmiş doğmalarım və dostlarım düşür... Gözlərim dolur... Və bir də yadıma Ramiz Rövşənin bu misraları düşür:

*Qız barmaqlarından nazik,*
*sentimental bir yağış,*
*Piano dillərtək çalır küçələri.*
*Belə gündə pişiklər də həzinləşər,*
*öpmək istər sərçələri...*

## *Bakı-Tbilisi qatarı...*



**Bu qatarın yola düşəcəyi günü gözləyənlərin sayı-hesabı yoxudu! Çünki uzun illərdir ki, Gürcüstanda yaşayan həmyerlimiz Azərbaycan gəlməkdə çətinlik çəkir, burdan oraya gedənlər sıxıntı keçirirdilər. Yeganə yol, hava yolu, yəni təyyarə ilə gedib- gəlmək idi**

Bu da min manata yaxın vəsait edirdi! Təbii ki, bu imkan da hər adamda yoxdur.Deməli , imkanı olmayanlar rəhmətə gedənin olsa, belə gedib - qayıda bilməzdi! Və Azərbaycan - Gürcüstan arasında sərnişin qatarının işləməsi ilə bağlı razılıq əldə edildi. İndi gün ərzində bir qatar Tbilisiyə yola düşür, bir qatarda Bakıya qayıdır. İnsaf naminə deyək ki, Bakı-Tbilisi qatarının fəaliyyəti Borçalda yaşayan insanları çox sevindirir! Ən azından ona görə ki, gün ərzində nə qədər insan öz doğma yurdunu gedib- qayıda bilir!Amma buna baxmayaraq insan axını çox olduğuna görə əksəriyyət insanlar yenə doğma yurduna gedə bilmir və növbə gözləyirlər! Bəs bu məsələlər öz həllini necə tapmalıdır?

Təbii ki, həmin məsələlərin həll üçün aidiyyəti qurum çıxış yolu axtarıb tapmalıdır. Bu yollardan biri sərnişin qatarına daha iki qatarın qoşulmasıdır. Heç şübhəsiz ki, bu addımin atılması problemin qismən həllinə kömək edəcək. Amma bu da problemi tamamilə həll edə bilməyəcək. Məsələnin yeganə həlli gündə iki sərnişin qatarının Bakıdan, iki də digər qatarın Tbilisidən çıxması nəticəsində mümkün ola bilər! Yoxsa , hələ əks- təqdirdə insanlar çox gözləməli olacaqlar!!!

## *Hər gün ət yemək ziyandı?*



**Elə adamlar var ki, hər gün ət yeməsə , rahat yata bilməz! Sanki onların həyat tərzi ət yeməkdən ibarətdir. Bu isə bir çox halda insan səhhətində problemlər yaradır. Həkim-kardioloq , tibb elmləri üzrə fəlsəfə doktoru Rafiq Yusifli deyir ki, ət yemək heç də pis deyil. Amma sadəcə olaraq hər gün bu qidanı qəbul eləmək sonradan bir çox fəsadlar yarada bilər .**

Bunun ən qorxulusu çox ət yeyərkən ürək damarlarının tutulmasdı. Çünki mal və qoyun ətindən digər ətlərə nisbətən daha çox xolesterin mövcuddur. Bu isə birbaşı ürək damarlarının titulmasına gətirib çıxarır.Belə pasiyentlərin vəziyyəti bir müddətdən sonra ağırlaşır. Onların ürəyində ya açıq əməliyyat aparılır, ya da stend qoyulur.

Ümumiyyətlə, xolesterin səviyyəsi yüksək olan açıq və qapalı ürək əməliyyatları keçirmək insanlar qırmızı ətdən çox istifadə etməsi məqsədəuyğun deyil. Onlar ən yaxşı halda balıq və quş ətindən istifadə edə bilərlər. Çünki bu dediyimiz ətlərdə xolesterin azdır. Hətta sağlam insanların da hər gün ət və ət məhsulları yeməsi məsləhət bilinmir! Göründüyü kimi, nəinki mal və qoyun əti , digər zərərli qidaların hər gün istehlak edilməsi insan səhhəti üçün fəsadlar yarada bilər. Düzgün qidalanma ən yaxşı sağlam həyat tərzidir!!!

## *Bu obyekt kimindir?*

**Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində " Anabala" abidəsinin qoyulduğu yerdə deyilənlərə görə, iki hektara yaxın yerdə möhtəşəm bir park salınacaq! Çox gözəl!Bu məqsədlə həmin ərazidə yerləşən bazar, mağazalar və digər ticarət köşklərinin hamısı sökülüb! Amma birindən başqa .**

Həmin obyektin şəklini də çəkmişik! Neçə olur ki, bütün ticarət obyektlərinin hamısı sökülür, amma bu obyekt qalır? Məsələnin də qaranlıq tərəfə budur. Bu sualı sakinlər bizim redaksiya da ünvanlayır.Lakin biz suala cavab verə bilmədik. Deyilənlərə görə, bu obyekt yüksək vəzifəli bir məmurundur. Faktları aydınlaşdırmaq üçün Qaraçuxur bələdiyyəsinin sədri İxtiyar müəllimlə əlaqə yaratmaq istədik.Dəfələrlə zəng vursaq da çox təəssüf ki, ondan cavab ala bilmədik!



Ona görə də digər icra orqanlarından bu məsələ ilə bağlı açıqlama gözləyirik. Parkın yaxınlığında həm də yüksək mərtəbəli bina da inşa ediləcək.Ancaq bəzi qurumlar bu tikintinin olacağını nədənsə gizli saxlamaq istəyirlər! Amma sakinlər deyirlər ki, orda artıq tikinti şirkətinin ofisi fəaliyyət göstərir, ev tikilməmişdən öncə alqı- satqı əməliyyatı həyata keçirilir! Ona görə də, sakinlər narahatdır.Onlar öyrənmək istəyirlər ki, burda park tikirlər, yoxsa yüksək mərtəbəli bina?! Üstəlik də parkda tikinti işləri aparan maşın və texnikanın səsindən sakinlərin nə gecəsi var, nə də gündüzü!!!

## *Dənizdən qumu hara daşıyırlar?..*



**Heç kimə sirr deyil ki, ekoloji tarazlığın pozulması bir çox problemlərin yaranmasına səbəb olur! Ən azından təbiətə vurulan zərbə bir müddətdən sonra insanların müxtəlif formalarda özünə qayıdır!**

Bax ,dənizdən belə bir mənzərədir. Bir çoxları Bakıda Xəzər dənizin sahilində mövcud olan qum kütləsini ekskavatorların köməyi ilə " Kamaz", " Kiraz" və digər yük maşınlarına yığdıraraq satış məqsədi ilə daşıyırlar. Kimlərsə həmin qumlarsan milyonlarla pul qazanır. Dənizin ekoloji çəhətdən tarazlığı pozulmaqla bir çox problemlər yaranır

. Ayrı - ayrı işbazların dünya vecinə deyil. Bəs , aidiyyəti dövlət qurumları təbiətə , dənizə vurulan zərərə niyə göz. yumurlar! Bax , əsas qəliz məsələ də elə budur.Bakinin Novxanı, Mərdəkan , Pirşağı, Şüvəlan və digər çimərliklərinin yaxınlığından hər gün onlarla yük maşını qum daşınır. Heç şübhəsiz ki, bu qumdan tikinti materialları kimi istifadə olunur.

Axı onsuz da Xəzər dənizi günbəgün quruyur və son illər daha çox dənizdə quruma halları yaranır. İnsanların gözü qarşısında Xəzər su azlığından " can verir", bir yandan da bəzi adamlar dənizdəki qumu daşıyaraq onu yaman günə qoyurlar. Belə getsə, bir müddətdən sonra dənizdə qum qalmayacaq və o, öz gözəlliyin itirəcəkdir! Bu proses nə vaxta kimə davam edəcək? Onu deyə bilmərik. Bunu ən yaxşı halda aidiyyəti qurumlar söyləyə bilər! Onlarsa hələ ki, mövcud vəziyyətə göz yumur və susurlar???

## *Bu il bütün meyvələr baha olacaq...*



**Son illər nəinki ölkəmizdə , eləcə də dünyanın hər yerində iqlim dəyişikliyi baş verib! Qeyri-sabit hava şəraiti kənd təsərrüfatına daha böyük ziyan vurub!**

Ölkəmizdə yağan intensiv yağışlar, dolu və külək məmləkətimizdə çox pis vəziyyət yaranıb! Üstəlik də sel sularının təsərrüfatları basması hayvandığa və tostan- tərəvəz məhsullarına da kifayət qədər ziyan vurub! Meyvəçilikdən isə heç danışmağa dəyməz!

Çünki fasiləsiz yağışlar , dolu və külək ərik, alma, gilas , albalı, şaftalı, heyva ağaclarını məhv eldi. Ağacları budaqları , meyvələri, yarpaqları ilə yanaşı, külək bəzi ağacları kökündən çıxardı.

Belə hadisə zamanı avtomobilini o ağacın altında saxlamış insanlar da ziyan görüblər! Bütün bunlar insanların həyat tərzinə , yaşasına mənfi təsir göstərib. Yəni bu il kənd adamları ehtiyac içində olacaq, qazancları zəifləyəcək.

Eyini zamanda bazarlarda alamanın, gilasın, albalının, əriyin... qiyməti baha olacaq . İndi yaxşı gilasın bir kiloqramı 8 manata və daha baha qiymətə satılır. Belə çıxır ki, kasıb adamlar bu il gilas, giləınar, ərik yeməyəcək!!!

**Emil FAİQOĞLU**



# YENƏ O ŞAHANƏ GÖZƏLLİYİN CAZİBƏSİNDƏ

**Vətən müharibəsindəki Böyük Qələbəmizin təntənəsi, yalnız irəliyə olan ədalətli yolumuzun işığında ölkəmizin daha da inkişafı bizi hədsiz ruhlandırır. Düşmənin viran qoyduğu Qarabağımızda yeni quruculuq işlərinin çoxşaxəli dinamikası,doğma torpaqlara kiçik və böyük köçlərin davam etməsi bütün dünyanın diqqət mərkəzindədir. Heyrətamizdir!**

Qazanılan uğurların müntəzəm xarakter alması Qax rayonunun da həyatında öz əksini tapmaqdadır. Bütün bunlar rayonun stabil inkişafından xəbər verir. Son dövrlər artıq Qaxın istər mərkəzində-Qax şəhərində, istərsə də yaxınuzaq bütün kəndlərində ürəkaçan təsərrüfat və quruculuq işləri uğurla davam etməkdədir. Şəhər və kəndlər eyni qayğı və diqqət



sahəsində müasir yaşayış məkanlarına çevrilməkdədir. Yeni yollar , yeni tikililər, park və bağlar, digər sosial və mədəni tərəqqi... Bu mənada rayon mərkəzinin mövcudluğundan bəri öz ənənələri üzərində büsbütün müasirləşməsi də inkişafın təntənəsini təsdiqləyir.

Rayon rəhbərliyi yorulmadan yüksəlişə doğru əlavə imkanlar axtarışındadır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin istək və tələblərinə bütün istiqamətlər üzrə yüksək səviyyədə əməl olunur. Xalqla iqtidar birliyi Qax rayonunun əsas simasıdır.




...Və beləcə Qax rayonunda vaxt bu günün və gələcəyin xeyrinə işləyir.İnsanlar bütün bunların yüksək səviyyədə davam etməsinin fərqindədirlər. Bu səbəbdən də rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar qəbulları zamanı birgə məsləhətləşmələr, daha uğurlu inkişaf yollarının axtarışı,real təklif və arzular yetərincə səmərəli olunb inkişafın stimullaşmasını saxlayır.

Rayonda şəhid ailələrinə ,qazilərə yüksək həssaslıq göstərilməsi nümunəvi haldır. Bütün məsələlərə böyük ciddiyətlə yanaşılır. Rayon rəhbərliyinin bu istiqamətdəki fəaliyyəti yüksək qiymətləndirilir.

Qaxda mədəni kütləvi tədbirlərə də xüsusi həvəs və diqqətlə yanaşılır. Kitab və rəsm sərgiləri, müxtəlif idman yarışları, ədəbiyyat tədbirləri...



Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı,həm də səmimi bir insandır. Bu gözəl keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da yaxınlaşdırır.

Və bütün bunların da nəticəsində rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Bu, xalqa və dövlətçiliyə xidmətin nümunəvi göstəricisidir. Bütün bunlar vətənpərvərliyin, xalqla iqtidar birliyinin, xoş niyyətli əməllərin nəticəsidir.

Son illər onsuz da iftixar və sevincin mənbəyi daha geniş əhatəni əks etdirir.44 günlük Vətən müharibəsindəki şanlı Qələbəmiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin igid Azərbaycan oğulları ilə birlikdə Qarabağın tam azad olunması bir ayrı ruh, bir ayrı ovqat yaratmışdır. Vətənin işğalçılardan azad edilməsində Qax rayonu da fəal mübarizə aparmışdır.

Rayonda şəhidlərin xatirəsi daim əziz tutulur,qazilər hər yerdə hörmətlə qarşılanır. Bu məsələlərə rayonda həqiqətən müstəsna həssaslıqla yanaşılır.

Qaxın müasirliyindən, təbiət gözəlliklərindən söhbət açıb şəhərdəki "İçəribazar" tarixi kompleksini gəzməsən olmur. Buradan rayonun həm qədim, həm də yaddaşlarda yaşayan unudulmaz hadisələrlə zəngin tarixi hadisələri xatırlanır.

Hələ Kürmük çayı boyunca zirvələri göz qamaşdıran dağlara doğru aparan yolun sağı-solu ... dünyanın ən gözəl mənzərələri ... Hələ bir az yuxarılarda sanki bəd nəzərlərdən gizlənirmiş kimi İlisu fenomeni!

Bu yurda , qədim İlisu sultanlığının paytaxtına doğru uzanan yol .



İlisu yolu! Bunu əvvəllər də yazmışdım. Sanki burada yeni bir şəhər salınır, bu şəhər Ulu körpünü də keçib az qala İlisuya qovuşmaqdadır.

Bu kiçik dağ rayonunun adı bənzərsiz brendlərinə görədir ki indi çox böyük səslənir, ucsuz-bucaqsız görünür, özünə sığmır da sanki...



İlisu, şimal-qərb bölgəsində hamının özününkü hesab etdiyi möhtəşəm kənd! Amma qədim abidələri nəzərə almasaq, sanki müasir görkəmli gözəl bir şəhər !

**Beləcə Qax rayonu daha böyük yüksəlişin, daha gözəl günlərin xoş sorağındadır.**

**Məzahir ƏHMƏDOĞLU**



# "İnancın batil olmaması mümkün deyil..."

**"Öz inancında psixoloji sakitlik tapan sıravi insanlar neandertalların zamanında da olub, indi də var, gələcəkdə də olacaq. Ancaq hansısa ixtisasa yiyələnib özünü oxumuş, savadlı zənn edən, eyni zamanda inancına hörmət olunması uğrunda saçını-başını yolan həkimlərə, müəllimlərə, professorlara, yazarlara və s. universitet diplomuyla silahlanmış şəxslərə bunu bağışlamaq günah olar".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

Onun sözlərinə görə, Kəldanilərin başı işə-gücə qarışanda yeniyetmə İbrahim peyğəmbər məbədə girib öz xalqının min illik inancını təmsil edən bütlərini qırdı, xalq xəbər tutanda onları cahilliklə suçladı:

"Yeniyetmə İsa peyğəmbər musəvilərin qurban mərasiminə baxanda öz xalqının inancından ürəyi bulandı və qurbanlıq quzusunu qoltuğuna vurub məbəddən qaçdı. Min illik musəvi inancının düşməninə çevrildi. Məhəmməd peyğəmbər həmçinin. Kəbəyə girib öz xalqının min illik inancının bütlərini vurub-dağıtdı. Bu gün öz inancına hörmət tələb edən hər üç dinin mənsubları özlərindən əvvəlkilərin inancına hörmətsizlik edən bir peyğəmbərin davamçılardır. Deyə bilərsiniz ki, onlar batil inanclar idi, bütpərəstlik idi və s. İnancın batil olmaması mümkün deyil, çünki heç bir inancın sübutu, dəlili yoxdur. Ona görə inanc özünü bəri başdan ağlın mühakiməsindən azad edir, "məni qəlbinlə qəbul et" deyir. Çünki ağıl sübut tələb edir. Bizim inancını ixtisasından üstün tutan həkimlər, müəllimlər, professorlar, yazarlar və s. diplomlu neandertallar öz inanclarının yaranma tarixinə baxsınlar. Əgər peyğəmbərlər özlərindən əvvəlkilərin min illik inanclarına hörmətlə yanaşsaydılar, bu gün onlar bütpərəst olmayacaqdılarmı?".

**Vasif**

# İlin sonuna qədər Azərbaycan ilk vaksinini istehsal edəcək

**Azərbaycanda ilk dəfə olaraq bu ilin sonunadək yerli baytarlıq vaksininin istehsalına başlanılması planlaşdırılır. Bunlar quduzluq xəstəliyinə qarşı tətbiq olunacaq və tamamilə Azərbaycan istehsalı olan vaksinlərdir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Trendə müsahibəsində deyib. Onun sözlərinə görə, "Rabisafe" adlanan bu vaksinlər Qida Təhlükəsizliyi İnstitutunun Qubadakı istehsal müəssisəsində hazırlanır:

"Gələn ildən etibarən Azərbaycan quduzluğa qarşı həm vəhşi heyvanlar, həm də ev heyvanları arasında aparılan vaksinasiyanı öz istehsalı olan preparatlarla həyata keçirəcək. Bu məqsədlə, xüsusilə vəhşi heyvanlar üçün aldadıcı yemlər vasitəsilə vaksinasiya aparılacaq. İstehsal edilən bu vaksinlər beynəlxalq standartlara tam uyğun olduğundan, gələcəkdə onların digər ölkələrə ixracı da nəzərdə tutulur".

Sədr, həmçinin bildirib ki, gələcəkdə heyvandarlıq və quşçuluq sahəsində digər preparatların da istehsalı nəzərdə tutulur.

Qoşqar Təhməzli qeyd edib ki, qarşıdakı dövrdə həyata keçirilməsi nəzərdə tutulan ən mühüm tədbirlərdən biri işğaldan azad olunmuş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında dabaq xəstəliyindən azad zonaların yaradılmasıdır:

**"Bu məqsədə nail olacağımız təqdirdə həmin zonalarda qeydiyyata alınmış təsərrüfatlarda dabaq əleyhinə vaksinasiya aparıldıqdan sonra istehsal olunan heyvandarlıq məhsullarının dünyanın müxtəlif ölkələrinə ixracı mümkün olacaq".**



Sevil Azadqızı
Ədəbi təhlil-tənqidçi

# ƏBÜLFƏT MƏDƏTOĞLU YARADICILIĞINDA QARABAĞ HƏSRƏTİ...

**Qarabağ... Azərbaycanın qəlbi, ruhu, mənəviyyatı və yaddaşı. Uca dağları göylərə baş çəkən, sıldırım qayaları əfsanələr danışan, sərin bulaqları nağmələr pıçıldayan, yaşıl meşələri əsrlərin sirrini qoruyan bu müqəddəs diyar əsrlər boyu sənətkarların ilham mənbəyi olmuşdur.**

**Qarabağın hər qarışı tarixdir, hər çiçəyi xatirədir, hər daşı vətən sevgisinin rəmzidir. Bu füsunkar yurdun qədim yaşayış məskənlərindən biri olan Xocavənd rayonunun Tuğ kəndi də Azərbaycan mədəniyyətinə və ədəbiyyatına dəyərli simalar bəxş etmişdir. Həmin simalardan biri də Əməkdar jurnalist, tanınmış şair və publisist Əbülfət Mədətoğludur.**

**Əbülfət Mədətoğlunun "Dan üzünün pıçıltısı" şeiri sevginin insan ruhunda yaratdığı mənəvi yüksəlişi və təbiətlə insan hisslərinin vəhdətini poetik dillə ifadə edən lirik nümunələrdəndir. Şair dan yerinin açılması, göy üzü, Günəş və Ay kimi təbiət obrazlarından istifadə edərək sevginin sirli, cazibədar və fəlsəfi mahiyyətini oxucuya çatdırır.**

**Şeirdə sevgi təkcə duyğu kimi deyil, insanı dəyişdirən, onu mənən ucaldan qüdrətli bir qüvvə kimi təqdim olunur.**

*"Qanadlanan ruhumun*
*İzi hopur səmaya...*
*Gözündən atəş damır,*
*Həm Günəşə, həm Aya!.."*

**Şeirin bu bəndində lirik qəhrəmanın sevgi qarşısında yaşadığı mənəvi yüksəliş təsvir edilir. "Qanadlanan ruhumun izi hopur səmaya" misrası metaforik məna daşıyır və sevginin insan ruhunu yüksəldərək onu sonsuzluğa, ilahi bir aləmə qovuşdurduğunu ifadə edir. "Gözündən atəş damır" misrasında isə atəş obrazı ehtirası, hərarəti və güclü hissləri simvolizə edir. Günəş və Ay obrazlarının birlikdə işlənməsi sevilənin baxışlarının bütün kainatı əhatə edən qüdrətini göstərir.**

**Bu bənddə şair sevginin insanın ruhuna qanad verən, onu mənəvi cəhətdən zənginləşdirən və bütün varlığını öz təsiri altına alan sehrli gücünü yüksək poetik ifadələrlə təqdim etmişdir.**

**Mədətoğlu (Əliyev Əbülfət Mədət oğlu) 1 yanvar 1959-cu ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illəri Qarabağın saf təbiəti, dağların əzəməti, bulaqların zümzüməsi və kənd həyatının mənəvi zənginliyi içərisində keçmişdir. Sonralar doğma yurddan ayrılıq, Qarabağ dərdi və yurd həsrəti onun taleyində olduğu kimi, yaradıcılığında da dərin izlər buraxmışdır.**

**Buna görə də onun şeirlərində Qarabağ nisgili, vətən sevgisi, sevgi duyğuları və insanın mənəvi iztirabları başlıca mövzu kimi çıxış edir.**

**Əbülfət Mədətoğlunun yaradıcılığı səmimiyyət, sadəlik və yüksək mənəvi dəyərlər üzərində qurulmuşdur. O, yaşadıqlarını yazan, duyduqlarını sözə çevirən şairdir. Onun misralarında süni pafosdan əsər-əlamət yoxdur. Şair insan qəlbinin ən kövrək məqamlarını poetik dillə ifadə etməyi bacarır:**

*"Bu səhər yenə də mənsiz açıldı,*
*Sən öz tellərini say ki, gün keçsin..."*

**Bu misralar ayrılığın, tənhalığın və bitməyən həsrətin poetik ifadəsidir. Şair zamanın keçməsini saç tellərini saymaq qədər uzun və çətin bir proses kimi təqdim edir. Burada sadə bir bənzətmə insan ruhunun dərin ağrılarını ifadə edən güclü poetik obraza çevrilmişdir.**



Əbülfət Mədətoğlunun şeirlərində sevgi bəzən ilahi bir məna daşıyır:

*"Mən duaçı, sən isə*
*Duaların ünvanı..."*

Bu misralarda sevilən insan müqəddəs bir varlıq səviyyəsinə yüksəldilir.

Sevgi adi hiss olmaqdan çıxaraq mənəvi kamilləşmə və daxili saflaşma vasitəsinə çevrilir. Şairin sevgi lirikasının əsas üstünlüyü də məhz hisslərin səmimiliyi və mənəvi dərinliyidir.

Şairin poeziyasında təbiət obrazları da xüsusi yer tutur:

*"Bir yarpaq qopub düşdü*
*Dodaqdan söz qopan tək..."*

Burada yarpağın qopması ayrılığı, itgini və zamanın keçiciliyini simvolizə edir. Şair təbiət hadisələrini insanın daxili aləmi ilə vəhdətdə təqdim edir. Təbiət onun yaradıcılığında sadəcə fon deyil, hisslərin və duyğuların poetik ifadə vasitəsidir.

Əbülfət Mədətoğlunun yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur. Onun şeirlərində Qarabağ təkcə coğrafi məkan deyil, uşaqlığın, xatirələrin, mənəvi köklərin və insanın özünüdərk hissinin rəmzidir.

O, doğma yurdun ağrısını şəxsi ağrı kimi yaşayır və misralarında həmin ağrını böyük sənətkarlıqla ifadə edir. Təsadüfi deyildir ki, Xalq şairi Bəxtiyar Vahabzadə onun yaradıcılığını yüksək qiymətləndirərək yazırdı ki, Əbülfət Mədətoğlunun misralarından "Qarabağ fəryadı hıçqırır".

Şairin "Ürəyim" şeirində üçüncü bənddin son misralarından ürəyin artıq sadəcə hiss edən bir varlıq olmadığını, sevdiyinin baxışları və nazı ilə yenidən biçimlənən, yenidən yaranan bir mənəvi aləmə çevrildiyini göstərir.

Xüsusilə son iki misra bu duyğunun poetik kulminasiyası təsirini yaradır:

*"Gecə-gündüz baxışınla, ədanla,*
*Şumlanıbdır, əkilibdir ürəyim..."*

Burada "şumlanmaq" və "əkilmək" sözləri kənd həyatından götürülmüş bədii təşbehlərdir. Necə ki, torpaq məhsul vermək üçün əvvəlcə şumlanır, sonra ona toxum səpilir, eləcə də lirik qəhrəmanın ürəyi sevgilinin baxışları və davranışları ilə alt-üst edilmiş, duyğularla yenidən becərilmişdir. Bu misralar sevginin insanın daxili dünyasını dəyişdirən, onu yenidən yaradan qüvvə olduğunu göstərir. Şair ürəyi münbit torpağa bənzədərək sevginin həm yaralayan, həm də yeni ümidlər cücərdən ilahi bir güc olduğunu yüksək poetik ifadə ilə canlandırmışdır.

Əbülfət Mədətoğlu yalnız şair deyil, həm də peşəkar jurnalist və publisistdir. O, uzun illər Azərbaycan mətbuatında səmərəli fəaliyyət göstərmiş, "Ədalət" qəzetinin baş redaktor müavini kimi milli mətbuatın inkişafına mühüm töhfələr vermişdir. Onun jurnalistikası da poeziyası kimi vətəndaş mövqeyi, milli dəyərlərə bağlılığı və sözə məsuliyyət hissi ilə seçilir. "Əməkdar jurnalist", "Qızıl qələm", "Məmməd Araz", "Qızıl Kəlmə" və digər nüfuzlu mükafatlara layiq görülməsi onun çoxillik fəaliyyətinə verilən yüksək qiymətdir.

Əbülfət Mədətoğlunun nəşr olunmuş kitabları da onun zəngin yaradıcılıq dünyasını əks etdirir. Onun "Səməni nəğməsi", "Nilufər çiçəyi", "Dərdini danışan adam", "Nişanə", "Ehtiyacın elçi daşı", Döymək istədiyim qapılar", "Sevgi pıçıltıları", "Ürəyim sənlə danışır", "Sözə ünvanlanmış on beş məktub" və digər kitabları oxucular tərəfindən maraqla qarşılanmışdır. Bu kitabların hər birində insanın mənəvi dünyası, yurd sevgisi, sevgi duyğuları və həyatın fəlsəfəsi öz poetik ifadəsini tapmışdır.

Əbülfət Mədətoğlunun yaradıcılığı bütövlükdə Qarabağın poetik salnaməsi, insan qəlbinin duyğu xəritəsi və milli-mənəvi dəyərlərin bədii təcəssümüdür.

Onun misralarında vətən sevgisi, yurd nisgili, sevginin saflığı və insanın mənəvi əzabı bir-birinə qovuşur.

O, sözün qüdrətinə inanaraq doğulduğu torpağın ağrısını, insan ruhunun kövrəkliyini və milli yaddaşımızın dəyərini poeziya vasitəsilə gələcək nəsillərə çatdırmışdır. Buna görə də Əbülfət Mədətoğlu müasir Azərbaycan ədəbiyyatında Qarabağın yaddaşını, insanın mənəvi aləmini və vətən sevgisini yüksək sənətkarlıqla yaşadan dəyərli qələm sahiblərindən biri kimi daim hörmət və ehtiramla xatırlanacaqdır.

Sizə cansağlığı və bütün işlərinizdə uğurlar arzulayıram!

# BİR ŞƏKLİN İŞIĞINDA

**Onunla yolumuz uzun illər öncə kəsişmişdi. Və bu kəsişmənin də mərkəzində ikimizin ortaq dostu dayanmışdı. Təbii ki, bu ortaqlığın da mayası söz idi, ədəbiyyat idi. Deməli, üçümüz də sözün işığına təkcə cəm olmamışdıq, həm də könül vermişdik, özümüzü o işığa bələmişdik. Oxuya-oxuya, yeni söz havası araya-araya və bir də öz sözümüzün zamanın, cəmiyyətin, oxucunun ruhuna köklənməsi üçün öyrənirdik, yazırdıq...**

İllər sürətli, zaman hakim, yaş öz işini görən, həyat da ki amansız. Qayğılar çoxaldıqca, yük ağırlaşdıqca və təbii ki, sözün meydanı hər cür fürsətcil, yad, bəzən də tamam dəxlisiz adamlarla dolanda bir addım geri çəkilmək, həm o meydana, həm də özünə kənardan baxmaq kimi hallar bizdən də yan keçmədi. Özümüzə də, sözümüzə də baxdıq, özümüz haqqında, sözümüz haqqında fikirlər də eşitdik, bir də baxıb gördük ki, yaş öz işini görüb. Mən erkən, yəni gənclik illərindən tanıdığım, sözünə və özünə böyük sayqı ilə yanaşdığım, tələbə yoldaşım, dostum Sabir Abdinin vasitəsilə tanıdım Tapdıq bəyi. Mətbuatdan imzasına bələd olduğum bir dəyərli ziyalını kəşf etdim özüm üçün. Oturuşu-duruşu, söhbətləri kimi sözü də sanballı olan Tapdıq bəyin yaradıcılığındakı dağ havası, torpaq bərəkəti könlümü xoş etdi. Xüsusilə onun yurda ocağa bağlılığı, ağır həyat sınaqlarına mərdanə dözümü və nəhayət itirdiyi doğmaları ilə bağlı hıçqırtı ilə yazdığı misralar ruhuma hakim kəsildi. İndinin özündə də Tapdıq bəyin



üzündəki nur, sözündəki işıq həmin o kövrəkliyi qoruyub saxlayır. Hər dəfə onun mətbuatda, eləcə də sosial şəbəkədə oxuduğum yazıları, poeziya nümunələri məni özünə doğru çəkir, öz aləminə aparır, qaytarır ötən illərə. Onda bir daha hiss edirəm ki, özünü və öz sözünü yazan Tapdıq Əlibəyli ədəbiyyatda da yerini tapıb. Yəni o, ədəbiyyatda yeri olan qələm adamıdır. Ona görə də özü də bəyan edir ki, "Şairliyin yaşı olmur"!

*Bəri başdan, dostum, deyim:*
*Xətrinə mən necə dəyim?*
*Ay əzizim, xanım alim,*
*Şairliyin yaşı olmur!*

*Şair özü qocalsa da,*
*Sözü vaxtdan ucadırsa,*
*Ömürdürsə uzun, qısa...*
*Şairliyin yaşı olmur!*

*Şairlik hiss, hal, məqamdır,*
*Gah dərvişlik, gah şamandır.*
*Gah səhərdir, gah axşamdır...*
*Şairliyin yaşı olmur!*

*Nə vaxt gəlsə ilham pərim,*
*Qantək tutur şairliyim.*
*Başqa vaxtlar öz dərd-sərim...*
*Şairliyin yaşı olmur!*

*İrad etdin ön sözümə,*
*Varmadın heç son sözümə.*
*Geyindirmə don sözümə...*
*Şairliyin yaşı olmur!*

Zənnimcə, bu səmimi bəyanatın səmimiyyətinə iynə ucu boyda da şübhə yeri yoxdur. Çünki söz də, onun sahibi də gözümüzün önündədir. Üstəlik, bir gerçəklik də var. Bu gerçəklik də əvvəldə dediyim kimi, Tapdıq Əlibəylinin yaddaşıdır. O, dünənin üstünə xətt çəkmir, dünəndən qopub ayrılmır. Özü ilə gətirdiyi dünəni bu günün işığında yeni çalarda yeni biçimdə biz oxuculara təqdim edir. Məsələn:

*Bir vaxt bir ev vardı bağlı-bağatlı...*
*İndi xəyallarım o evi tikir.*
*Anam çağırardı həzin bayatı...*
*Səs susub, yanğısı özünə çəkir.*

*Atamdan yadigar qalan üç söyüd,*
*Yayda sərinlərdi həyət-bacanı...*
*Nənəm səhər-axşam edərdi öyüd,*
*Mənsə dinc qoymazdım qardaş-bacını...*

Bir hissəsini təqdim etdiyim bu şeiri sona qədər oxuyanda artıq şairin yaddaşına və ocağa bağlılığına bir daha heyran oluram. Mən qədim dostumu doğum günü ilə bağlı yazdığım bu kiçik yazımda illər öncə kəsişən yolumuzun nişanəsi olan bir şəkli də oxuculara təqdim edirəm ki, həmin o zamanın xoşbəxtliyini hər kəs duya bilsin. Var ol, Tapdıq Əlibəyli! Yaxşı ki, arxivindən bu şəkli mənə də göndərdin.

**Əbülfət MƏDƏTOĞLU**

# ...Əvvəli yox sonu bitməz bir nəğmə!!

(əvvəli ötən sayımızda)

**Hidayət həm də uzun müddət Azərbaycanın kitab mədəniyyətinin beşiyi başında duran və onun inkişafı üçün həmişə çalışmış şəxslərdən biri olmuşdur. Onun rəhbərliyi ilə neçə illər rus "qlavlit"inin əksinə Azərbaycan həyatının müxtəlif sahələrinə aid minlərlə nüsxə kitablar nəşr olunmuş, onlardan bir çoxlarına ön söz yazmış və bəzilərinin ilk dəfə olaraq nəşrinə nail olmuş, onlara yeni həyat vermişdir. O, bu istiqamətdəki işlərini ömrünün sonuna kimi müvəffəqiyyətlə davam etridmişdi. Həm respublikamızda həm də xaricdə yaxşı bilirlər ki, Hidayət həm də görkəmli dövlət xadimidir.**

Məlum olduğu kimi 1992-ci ildən Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri təyin olunub və 1993-cü ilden isə Azərbaycan Respublikasının milli Siyasət məsələləri üzrə Dövlət müşaviri təyin olunub və bu çətin həm də şərəfli vəzifədə 2006-cı ilin avqust ayına kimi müvəffəqiyyətlə fəaliyyət göstərmiş, Dövlətin və ümummilli liderimiz H.Əliyevin bu sahədə müəyyənləşdirdiyi Milli siyasət məsələlərinin həll olunmasında bütün bilik və bacarığını əsirgəməmişdir. Bu illərin qazanılmış təcrübəsi nəticəsində XX əsr Milli siyasətimizin tarixi, nəzəriyyəsi və inkişaf perspektivlərini özündə əks etdirən və həm də Hidayətin dövlət adamı kimi siyasi baxışlarını özündə əks etdirən çox qiymətli bir əsər.- "Heydər Əliyev və Azərbaycanda Milli siyasət" əsəri meydana gəldi. Həmin illərdə verdiyi yüzlərlə müsahibələri, yazdığı məqalələri və keçirilmiş görüşləri də bura əlavə etsək yaxşı mənada insanı heyrətə gətirəcək bir nəticə göz önündə canlanır.

Hidayət 2006-cı ilin iyul ayından hörmətli prezidentimiz İ.Əliyevin sərəncamı ilə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə rəhbərlik etmişdir. O, bu müddət ərzində Dövlət Komitəsinin işində çox ciddi yeniliklər etmişdir. Az bir vaxtda Dövlət Komitənin maddi-texniki bazası möhkəmləndirilmiş, ciddi kadr dəyişiklikləri edilərək peşəkar kadr təminatı yaradılmış, Dövlət - din münasibətləri təkmilləşdirilmiş, dövlətin dini siyasətinin strategiyası hazırlanmış, RİH başçılarının yanında dini komissiyalar yaradılmış və onların əsasnaməsi təspiq edilmişdir. Respublika üzrə 350-ə yaxın dini icmaların işi yenidən qurulmuş, 50-ə yaxın yeni dini icma dövlət qeydiyyatına alınmış, dini təhsillilərin, məscidlərin, ziyarətgahların, məlumat bankları yaradılmış və digər əhəmiyyətli işlər görülmüşdür.

Dövlət Komitəsinin xətti ilə 2007-ci ilin aprel ayının 3-4-də Bakı şəhərində keçirilən Beynəlxalq Konfrans burada görülən işlərin yekun zirvə oldu. O, bu beynəlxalq konfransda təşkilatçı olmaqla yanaşı həm də "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" adlı çox əhatəli bir məruzə ilə çıxış etmiş və burada "Milli-mənəvi dəyərlərə qayıdış", "Dini dözümlülük ənənələrinin qorunub saxlanılması", "Tarixi dini abidələrimizin bərpası" və "Heydər Əliyev İslam dünyasının tarixi şəxsiyyətlərindən biri kimi" məsələlərdən ilk dəfə olaraq ətraflı bəhs etmiş, həmin məsələləri demək olar ki, ilk dəfə elmi təqdiqata gətirmişdir.

Hidayət yorulmaz mədəniyyət işçisi və peşəkar teatr xadimidir. O, 16 il İrəvan Dövlət Azərbaycan Dram teatrına rəhbərlik etmiş, burada dünya və Azərbaycanlı müəlliflərn 100-lərlə əsərlərinin tamaşaya qoyulmasına nail olmuşdur və "Məhəbbət yaşayır hələ...", "Məni qınamayın" və "Bu dünyanın adamları" adlı üç dram əsərini də özü yazmışdır.

Mövzu baxımından onun dram əsərləri də özünəməxsusluğu ilə seçilir. Bu əsərlər haqda çox görkəmli insanların, xüsusilə də mütəxəssislərin yaxşı fikirləri vardır. Lakin "Hidayət" adlı biblioqrafik göstəricinin müəllif və tərtibçisi Bəybala Ələsgərovun bir fikri daha maraqlıdır: "Hidayət bu pyeslərı ilə həyat hadisələrinə, insanlara, duyduğu, anladığı dünyaya münasibətini özünəməxsus şəkildə əks etdirən nasir kimi, şair və dramaturq kimi yetişdiyini göstərir".

Hidayət Ümummilli liderimiz Heydər Əliyevin qızıl kadr fondunun ən layiqli üzvü və onun ideyasının yorulmaz tədqiqatçısı, təbliğatçısı və onları həyata keçirmək üçün bütün imkanlarından istifadə edən bir şəxsiyyət olmuşdur. O, bu mövzuda bir neçə samballı əsərin müəllifi və bir neçə də fundamental kitabların tərtibatçısidir. Ən önəmli cəhət budur ki, Hidayət Heydər Əliyevin siyasi kursunu çox mükəmməl öyrənib, bilir və onu XXI yüzillikdə çox müvəffəqiyyətlə davam etdirmişdir. O bütün varlığı ilə H.Əliyev ideyalarına sadiqdir və onun ən etibarlı silahdaşı kimi müasir dövrdə təqdir olunmağa və nümunə göstərilməyə layiqdir.

Hidayət Azərbaycan ədəbiyyatı ilə yanaşı elmimizin də inkişafına öz dəyərli töhfələrini vermişdi və ömrünün sonuna kimi həmin istiqamətdə çox geniş yaradıcılıq imkanlarına malik olmuşdur.



Mədəniyyət tariximizdən, teatrdan, ədəbiyyatdan, siyasətdən, mətbuatdan, nəşriyat və poliqrafiya işindən, tanış insanlardan Hidayət çoxlu-soxlu dəyərli əsərlər yazmışdır. Lakin, Hidayətin yaradıcılığında Ermənistan Azərbaycan və Dağlıq Qarabağ mövzusu artıq tam bir silsilə təşkil edir: problemin tarixi kökləri, inkişaf xüsusiyyətləri və müasir vəziyyəti haqda onun çox qiymətli fikirləri vardır və həmin ideyalar Azərbaycan Dövlətinin bu məsələ haqda olan siyasi tələbləri ilə eynilik təşkil edir.

Dövlət adamı Hidayət heç zaman nə çıxışlarında nə yazılarında, nə də adi danışıqda ümummilli liderimiz Heydər Əliyev haqda keçmiş zamanda danışmırdı. Özünü də, hamını da bu mənada haqlı olaraq Heydər Əliyevə mənən borclu bilir və dəfələrlə xatırladır ki, Heydər Əliyevin fiziki yoxluğu onun mənəvi yaşayan ömrünə heç bir xələl gətirmir. Bu mənada o, Heydər Əliyevlə işlədiyi illəri ömrünün ən əziz illəri kimi xatırlayır və "H.Əliyev və Azərbaycanda milli siyasət", "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", "Şəxsiyyət haqda söz demək məsuliyyəti" adlı elmi cəhətdən çox aktual olan əsərləri bu cəhətdən diqqəti daha çox cəlb edir.

Hidayətin əsərlərində şifahi xalq yaradıcılığımız, klassik ədiblərimiz və ədəbiyyatımızın müasirləri haqda, dünya ədəbiyyatı və onlardan etdiyi tərcümələr, milli-mənəvi dəyərlərimiz haqda, xüsusilə də İslam dini haqda qiymətli yazıları - kitabları, məqalələri və müsahibələri var. Onlar da Azərbaycançılıq ideyasına xidmət edir və müəllifinin mövqeyini - Azərbaycançılıq və Dövlətçilik işinə həmişə sədaqətini bir daha oxuculara çatdırır.

Hidayətin vətəni Azərbaycan qarşısındakı xidmətləri xalqımız, ümummilli liderimiz Heydər Əliyev və hörmətli prezidentimiz İlham Əliyev tərəfindən həmişə yaxşı qiymətləndirilib və ona yetərincə fəxri adlar və mükafatlar verilmişdir. Doğrudur onun əməyinə başqa dövlətlər tərəfindən verilmiş təltifləri də var, lakin şair vətənin mükafatlarını bütün mükafatlardan üstün və əziz tuturdu.

Hidayətin yaradıcılığında salnaməçilik də ayrıca bir xətt olaraq formalaşmışdır. Onun yaradıcılığının bu istiqaməti Azərbaycan ədəbiyyatı üçün çox vacib olan bir amildir. Öz milli köklərindən ayrılmasınlar.

Hesab edirik ki, Hidayətin xoşbəxt şəxsiyyəti də, xoşbəxt gələcək günləri də milli kökə və milli şüura bağlı olduğuna görə əsərləri də uzunömürlü olacaq, müəllifinin işıqlı ideyaları kimi əbədi yaşayacaqdır.

Tarixlə müqayisədə insanların ömrü çox qısadır, lakin insanın yaratdığı sənət əsərləri zamanla ayaqlaşa bilir və əsrlərlə xalqının tarixində yaşayır. Bu mənada Hidayətin adı "Doxsanıncı il", "Şahidlər", "Didərginlər", "Sözün vaxtı", "Burdan min atlı keçdi" və "İrəvana 7 məktub" əsərləri ilə birlikdə ədəbiyyat karvanımızla çox əsrlər yola salacaq. Nə yollar, nə də zaman bu uzunömürlü kitablara pis baxmayacaq, əksinə onlarla yoldaşlıq edəcək, illərin çiynində gələcək nəsillərə bir Azərbaycan şairindən ərmağan aparacaq. Müəllif ürəyinin bütün hiss, həyacan və çırpıntıları ilə yazılan əsərlərin ömrü zamanla qoşadır və onun ömrü bitmir.

Böyük yaradan HidayətOrucovdan heç nəyi əsirgəməmişdi: şux qamət, gözəl boy-buxun, ləngərli yeriş, işıqlı təfəkkür, əməksevərlik, məhəbbət dolu ürək, iti zəka və istedad. Buna görə də o, siyasətdə də, bədii yaradıcılıqda da, diplomatiyada da, dövlət idarəçiliyində də, - bir sözlə insan fəaliyyətinin bütün sahələrində yüksək peşəkarlıq və bilik nümayiş etdirə bilirdi.

Bütün əsl şairlər kimi Hidayətin də yaradıcılığında məhəbbət mövzusu ayrıca yer tutur. Doğrudur, Hidayətin bədii yaradıcılığının başqa mözularına nisbətən məhəbbət şerləri azdır. Lakin onlar o qədər səmimi, təbii, axıcı, milli kolaritlidir ki, oxumaqdan doymaq olmur. Onun lirik qəhrəmanı bəzən qəmli, bəzən şən, bəzən də gözləri yollara boylanan, həsrətli tərənnüm olunur:

***Bu məktubu verirəm bu çapara,***  
***Çatıb atsın o ötüşən qatara,***  
***Göz yaşımda əks olubdu aypara-***  
***Səhər tezdən sənə yetsə, yaxşıdır.***

Şairin lirik qəhrəmanı vəfalı olması və sədaqətilə fəxr edir. Bu məhəbbətdən bezmir, ömrünü ondan kənar hiss etmir:

***Gəl heç görüşməyək, belə yaxşıdır,***  
***Sən qal xəyalımda su sonası tək.***  
***Hünərli, qeyrətli, isməlli, göyçək...***  
***Aylardan ap-arı, sulardan duru,***  
***Qəlbimə nur salsın gözünün nuru.***

Hidayət haqda bu qeydlərimi edərkən mən də xəyalən bir şair ömrünün yolu ilə irəliləmək istədim və nələr gördüm? Mehriban başlanan ömür karvanı Bakıya, İrəvana, yenə də Bakıya səfər edir. Daha sonralar dünyanın bir çox irili-xırdalı dövlətlərinə olan səfərləri...

Lakin hər yerdə onu doğma ana qucağı olan Azərbaycan özünə çəkir və şair də öz təsəllisini həmişə doğma Bakıda tapır. Ömür yolu həyatın çox sərt dolaylarından keçmiş şair-dramaturq hələ məlum Ermənistan Azərbaycan və Dağlıq Qarabağ hadisələrindən neçə il əvvəl uzaqgörənliklə yazmışdı:

Zəngəzurda doğuldum,  
İrəvanda yaşadım,  
Bakıda öləcəyəm !

Mən də deyirəm: Xeyr, şair, Siz əbədisiniz, dünən olmusunuz, bu gün varsınız və gələcəkdə də olacaqsınız! Çünki, əsərlərinizin ölməzliyi, əbədiliyi, bu nəticəni verir. Siz xalqımıza və vətənimizə öz yazılarınızla hələ çox xidmətlər edəcəksiniz.

Hidayətin şerlərinə çoxlu musiqilər bəstələnmişdir. Xoştbəxtlikdən onlar da uzunömürlüdür və gözəl nəğmələrdir.

Şair Hidayət öz ədəbi fəaliyyətində başqa sahələrdən fərqli olaraq şer yaradıcılığına üstünlük verir. Fikirlərimi də elə onun bu misrası ilə tamamlayıram:

Dünyadan şeyrlə götürün məni.. !

Budur əvvəli yox sonu bitməz bir nəğmə ömür -Hidayət ömrü

**Əlizadə NƏCƏFOV,**  
**tarix elmləri namizədi**

**30.08.2007-ci il**

## *Günay Əfəndiyeva: "Türk Dünyasında dərinləşən əməkdaşlıq mühiti"*



**Bu günlərdəAzərbaycannövbəti möhtəşəm tədbirə ev sahibliyi edir -Bakıda 100 il bundan əvvəl keçirilmiş Birinci Türkoloji Qurultaya həsr olunmuş "Türk Dünyası Həftəsi"öz işinə başlayıb.**

Tədbirə türk respublikaları daxil olmaqla 20 ölkədən rəsmilər, türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və nümayəndələri, eləcə də 126 türkoloq-alimqatılır.

"Türk Dünyası Həftəsi"nin açılış mərasimi Heydər Əliyev Mərkəzində böyük təntənə, ruh yüksəkliyi, qardaşlıq ab-havası ilə gerçəkləşdi.

Baxın, bir tədbirə 5 ölkənin prezidentlərinin - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət başçılarının təbrik məktubları ünvanlandı, ümumtürk həmrəyliyinə dəstəklərini ifadə edən fikirləri, xoş arzuları səsləndirildi.Dövlət başçılarının tədbirə xüsusi münasibəti, Türk dünyasının mənəvi birliyinin, həmrəyliyininortaq siyasi iradə iləmühüm vəhdət təşkil etdiyini bir daha nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məktubunda vurğuladığı kimi: "Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır".

Yüz il əvvəl Bakıda türk xalqlarının gələcəyini düşünən, dilini, tarixini, mədəniyyətini qorumağa çalışan böyük ziyalılar toplaşmışdı. Təəssüf ki, onların bir çoxu sonralar repressiyaların qurbanına çevrildi. Onların taleyi yarımçıq qaldı, amma irəli sürdüyü fikirlər, təşəbbüslər, arzulartəcəssüm tapdı.

Oziyalılartürk xalqlarınınbir-birinə daha da yaxınlaşacağına, həmrəyliknümayiş etdirəcəyinə inanırdılar;türk dünyasının birliyini gec-tez gerçəkləşəcək tarixi zərurət kimi görürdülər. Bu gün birgəsəylərinnəticəsində həmin arzular addım-addım həyata keçirilir, reallığa çevrilir. Düşünürəm ki, Türk Dünyasında günü-gündən dərinləşən əməkdaşlıq mühiti Qurultay iştirakçılarınınruhuna böyük ehtiramdır.

Bu gün türkölkələrinin başçılarının qardaşlıq münasibətləri,etimadı, sıx qarşılıqlı səfərləri, müntəzəm görüşləri,vahid siyasi baxışısayəsində türk dünyası tarixinin ən mühüm yaxınlaşma dövrünü yaşayır.

Nəqliyyat dəhlizlərindən enerji layihələrinə, elm və təhsildən mədəniyyətə qədər birgə təşəbbüslərin sayı günü-gündən daha da çoxalır, Türk Əməkdaşlıq Təşkilatlarınınfəaliyyətləri türk xalqlarının həyatın bütün sahələrində birlik və bərabərliyinin təşviqinə xidmət edir.

Bütün bunlar ortaq niyyətin, məqsədin, məsuliyyətinsərgilənməsidir.

Bütün bunlar dildə birliyin, fikirdə birliyin, işdə birliyin təzahürüdür.

Və bu birlik nə qədər möhkəmlənərsə, Türk Dünyasının qlobal miqyasda sözü, çəkisi, mövqeyi də bir o qədər güclü olacaq.

## *Relslər əyilir, asfaltlar əriyir - Avropa istidən əziyyət çəkir*

**Qərbi Avropada həddindən artıq istilər dəmir yolu relslərinin əyilməsinə və asfaltın əriməsinə səbəb olub. Bu da qatarların gecikməsinə və ləğvinə, nəqliyyat infrastrukturunun pozulmasına və çay naviqasiyasının məhdudlaşdırılmasına səbəb olub.**

Adalet.az xəbər verir ki, bu barədə BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) sözçüsü Jan Rodrigez məlumat yayıb. Onun sözlərinə görə, Qərbi Avropanı bürüyən şiddətli istilər iqlim risklərini, eləcə də onların nəqliyyat infrastrukturuna təsirini və nəticələrini açıq şəkildə nümayiş etdirib. "Budur, bir neçə nümunə: bir çox ölkələrdə dəmir yolunun deformasiyası səbəbindən qatarların gecikməsi və ləğvi, sərhəd avadanlıqlarının nasazlığı, qatarların istismarında fasilələr, genişləndirilmiş relslərdə kinetik yükü azaltmaq üçün lazım olan sürətin azalması; kabellərin və siqnalizasiya avadanlıqlarının qırılması; asfaltın əriməsi və deformasiyası; şəhərlərdə tıxaclara səbəb olan svetoforların sıradan çıxması; çay naviqasiyasındakı tıxacların çaylarda nəqliyyatın hərəkətini ləngitməsi və bir çox başqa nümunələr", - deyə o, Cenevrədə keçirilən brifinqdə bildirib.

Rodrigez dərc edilmiş komissiya hesabatına istinad edərək bildirib ki, 2050-2080-ci illərdə Avropanın dəmir yolu şəbəkəsinin təxminən 90%-i getdikcə daha yüksək temperaturlara məruz qalacaq. Nəqliyyat infrastrukturu ildə əlavə 10-15 gün 25 dərəcədən yuxarı temperaturlara, bəzi bölgələr isə 200 günə qədər davam gətirməli olacaq.

Daşdəmir ƏJDƏROĞLU,
dostun, əmioğlun



# HAMININ SƏMİMİ DOSTU...

## HƏMKARIMIZ FAİQ QİSMƏTOĞLUNUN 70 İLLİK YUBİLEYİNƏ

**Bu yazımı 36 ildən artıq dostluq etdiyim Faiq Qismət oğlu Hüseynov barədədir. Əvvəllər çox yazmışam onun haqqında - müxtəlif janrlarda. Bu dəfə isə yazımın quruluşunu dəyişirəm. Heç bilmirəm nədən başlayım? Onun insanlığındanmı, jurnalist fəaliyyətindənmi, publisistikasındanmı, vətənpərvərliyindənmi, torpaqsevərliyindənmi, dostluq etdiyi insana qayığısındanmı, dost təəssübkeşliyindənmi?**

"Ədalət" qəzetinin şöbə müdiri Faiq Qismətoğlunun (Hüseynov) 1990-2026-cı illərdəki çoxillik mətbuat fəaliyyətini müşayiət edən ən mühüm cəhət onun uca, təmənnasız və səmimi şəxsiyyəti olub. Jurnalistika camiəsində o, təkcə kəsərli qələmi ilə deyil, həm də ətrafındakılara qarşı göstərdiyi insanlığı, daxili təmizliyi və səmimiyyəti ilə dərin iz qoyub.

Faiq Qismətoğlunun bir insan kimi səmimiyyətini bəyan edən əsas xüsusiyyətləri xronoloji ardıcıllıqla diqqət yetirək.

### *Həmkarlarına və gənclərə münasibətdə səmimiyyət*

Uzun illər "Ədalət" qəzetində şöbə müdiri işlədiyi dövrdə redaksiyaya gələn gənc jurnalistlərə heç vaxt yuxarıdan aşağı baxmayıb. Onların yazılarını düzəldərkən bir şöbə müdiri kimi deyil, qayğıkeş, böyük qardaş kimi yanaşıb, onlara dəyərli məsləhət və tövsiyyələrini verib, gənclərin mətbuatda imzalarını tapmasına səmimi qəlbdən sevinib.

### *Qədirbilən həmkar*

O, qələm dostlarının uğurlarını heç vaxt qısqanmayan, əksinə, onların yaxşı yazılarını hər yerdə fəxrlə tərifləyən nadir mətbuat nümayəndələrindən biridir. Dünyasını dəyişən və ya unudulan köhnə jurnalistlər haqqında yazdığı xatirə yazıları onun vəfalı və səmimi qəlbinin göstəricisidir.

### *Yazılarında səmimiyyətin təzahürü maskasız və olduğu kimi*

Onun "Bizə qəzet lazımdı, ya yox?!", "Dərdini gizlədən adam" kimi publisistik yazılarında heç bir süni pafos və ya özünügöstərmə cəhdi yoxdur. O, oxucusu ilə qəzet səhifələrində sanki üz-üzə oturub dərdləşirmiş kimi səmimi bir dil qurmağı bacarır. O, dostlara qarşı da səmimidir, mehribandır. Həmişə mənim səmimiyyətimdən şövqlə söz açır, təmiz, təmənnasız jurnalist olduğumu dilə gətirir, çoxuna nümunə göstərir.

Bu gün isə mən SƏMİMİYYƏT sözünü 40 illik dostum Faiq Hüseynov haqqında cəsarətlə, elə səmimiyyətlə yazıram.

### *Həqiqətə sadiqlik*

Əməkdar jurnalist Faiq Qismətoğlu üçün səmimiyyət həm də dürüstlük deməkdir. O, cəmiyyətdə gördüyü nöqsanları, mətbuatın qarşılaşdığı çətinlikləri yazarkən heç bir konyunkturaya uymayıb, ürəyindən keçən həqiqətləri olduğu kimi ağ vərəqlərə köçürüb.

Bir oxucu kimi onun yazılarında səmimi ağrılarını və narahatlığını dərhal hiss edirik.

### *Doğma yurda və kökə bağlılıq*

Bir insan kimi onun ən səmimi və həssas tərəfi doğulub boya-başa çatdığı Füzuli rayonu, xüsusən də daha çox Böyük Bəhmənli kəndi ilə bağlıdır. İşğal dövrünün ağrılarını da, zəfərdən sonrakı qayıdış sevinclərini də öz daxili dünyasında çox dərindən yaşayıb və bu səmimi vətənpərvərlik hissini ətrafındakı hər kəsə sirayət etdirib.

### *Zəfər sevinci və Böyük qayıdış*

44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə və torpaqlarımızın azad olunması müəllifin yaradıcılığına yeni, coşqun bir nəfəs gətirib. Post-müharibə dövründə o, Qarabağın, Füzulinin yenidən qurulmasını, şəhidlərimizin xatirəsini və qazilərimizin qəhrəmanlıqlarını səmimi bir vətənpərvərlik nidası ilə oxuculara çatdırıb.



### *Şəhidlik və qəhrəmanlıq irsinə ehtiram*

Faiq Qismətoğlu vətən naminə canından keçən insanların unudulmasına imkan verməyən bir qələm sahibidir. O, Birinci və İkinci Qarabağ müharibələrinin qəhrəmanları, onların ailələri haqqında bədii-publisistik portretlər yaradaraq, vətənpərvərliyin ən ali formasını cəmiyyətə örnək kimi təqdim edib.

### *Milli mövqe və vətənpərvərlik*

Onun yaradıcılığında Qarabağ mövzusu, müstəqillik illərinin çətinlikləri və milli kimlik məsələləri əsas xətt təşkil edir. O, cəmiyyəti düşündürən mənəvi, sosioloji mövzuları fəlsəfi çalarlarla oxucuya təqdim edir.

### *Dövlətçiliyin və milli maraqların keşikçisi*

Faiq Qismətoğlu üçün vətənpərvərlik, sadəcə, şüar deyil, gündəlik iş fəaliyyətidir. 1990-cı illərin xaotik dövrlərindən başlayaraq, o, qəzet səhifələrində Azərbaycanın müstəqilliyini sarsıda biləcək daxili və xarici təhdidlərə qarşı hər zaman dövlətin və milli maraqların yanında yer alıb.

### *Siyasi-analitik publisistika*

Bu gün də "Ədalət" qəzetinin şöbə müdiri kimi yorulmadan fəaliyyət göstərən, özünün actual mövzulu yazıları ilə gündəmdə qalan və şirin yazılarını həvəslə oxuduğumuz və yaradıcılığında "Faiq Qismətoğlu" imzası ilə çıxış edən Faiq Hüseynov 1990-cı illərdən bəri fəaliyyət göstərən doğma qəzetinin formalaşmasında, onun yaradıcı mühitinin qorunmasında və müxtəlif analitik şöbələrinin idarə olunmasında mühüm xidmətləri olub. Bu qəzeti öz doğma balası kimi sevən, onun adına şərəf gətirən və eyni zamanda iş yoldaşlarının da təəssübünü çəkən F.Qismətoğlunun 1990-cı illərdən 2026-cı ilə qədərki çoxillik yaradıcılıq yolu Azərbaycan mətbuatının inkişaf mərhələlərini özündə əks etdirir. Müəllif qəzetdə daha çox aktual ictimai-sosial hadisələri, gündəlik həyatımızda baş verən prosesləri və Azərbaycanın daxili siyasi xəttini təhlil edən irihəcmli analitik məqalələrlə çıxış edir.O, fəaliyyət göstərdiyi bu illərdə milli-mənəvi dəyərlərin, ana dilinin təmizliyinin qorunması və gənc nəslə ötürülməsi üçün publisistik imkanlarından maksimum istifadə edib. Onun yazılarında Azərbaycan insanının mənəvi ucalığı hər zaman xüsusi qürurla tərənnüm olunur.

### *Prinsipiallıq və peşəkarlıq*

O, mətbuat prinsiplərinə sadiqliyi, hadisələrə obyektiv və dövlətçilik maraqları çərçivəsindən yanaşması ilə fərqlənən qələm sahibidir. Cəmiyyətdə və mətbuat ailəsində təmkinli və ziyalı mövqe nümayiş etdirən F.Qismətoğlu həmkarları arasında da seçilir. O, "Ədalət" qəzetinin ənənəvi, akademik və fəlsəfi yazı üslubunu qoruyub saxlayan, gənc nəsillə təcrübəsini bölüşməkdən çəkinməyən səmimi bir həmkar kimi xarakterizə olunur.

### *Sözə və sənətə Tanrı vergisi kimi yanaşma*

Yubilyar journalist üçün "Söz", sadəcə, bir informasiya vasitəsi deyil, dünyanın ən ali dəyəridir. O, məqalələrində mənəvi dəyərləri, insan talelərini və səmimiyyəti ön plana çəkir. Yazılarında bədii dillə publisistik dillərin sintezi güclüdür. İnsanların xarakterini açarkən istifadə etdiyi epitetlər ("dərdini gizlədən adam", "dövlətə sədaqətli adam") oxucunu dərhal mətndəki personajın daxili dünyasına aparır.

### *Xatirə və vəfadar qələm*

Dünyasını dəyişmiş ziyalılar, xüsusən də həmkarları, iş yoldaşları olmuş peşəkar jurnalistlər və ya şəhidlər haqqında yazarkən onun üslubunda dərin bir sarsıntı və eyni zamanda qürur hissi duyulur. O, keçmişi sənədləşdirən "yaddaş jurnalistikası"nın aparıcı simalarındandır.

### *Və sonda biblioqrafik məlumat*

Faiq Qismət oğlu Hüseynov 1 iyul 1956-cı ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. 1973-cü ildə Böyük Bəhmənli kənd orta məktəbini bitirmiş, daha sonra ali təhsil alaraq jurnalistika və publisistika sahəsinə yönəlib.

Mətbuatda aktiv fəaliyyətə ötən əsrin 70-80-ci illərindən başlasa da, onun imzasının tam formalaşması və kütləviləşməsi 1990-cı illərdən sonrakı müstəqillik dövrünə təsadüf edir. Uzun illərdir ki, müstəqil Azərbaycan mətbuatının ən köklü nəşrlərindən olan "Ədalət" qəzetində şöbə müdiri və aparıcı yazar kimi fəaliyyət göstərir.

Onun "Ədalət" qəzeti səhifələrində işıq üzü görmüş bəzi diqqətçəkən publisistik yazıları onun mövzu dairəsini göstərir. "Bizə qəzet lazımdı, ya yox?!" məqaləsi müasir dövrdə çap mediasının problemlərini, qəzet yayımındakı çətinlikləri təhlil edən analitik məqalə kimi yaddaşlara həkk edilib. "Dövlətə sədaqətli adam" yazısı ictimai-siyasi xadimlərin, dövlətçiliyə xidmət edən şəxsiyyətlərin portret cizgilərini canlandıran esse kimi onu bizə tanıtdırıb.

"Dərdini gizlədən adam" cəmiyyətdəki mənəvi-psixoloji məqamları və yaradıcı insanların daxili sarsıntılarını əks etdirən yazıdır.

### *Peşə sevinci*

İnsanın seçdiyi sənətdə tapdığı mənəvi rahatlıq əməyinin bəhrəsini görərkən keçirdiyi ali duyğudur. Hər bir peşənin özünəməxsus çətinlikləri olduğu kimi, heç bir maddi qarşılıqla ölçülməyən, insanı öz işinə bağlayan xüsusi sevincləri də var. Jurnalistin pərdəarxasında yaşadığı o gizli və müqəddəs sevinclər isə ona məxsus olur.

Bir jurnalist və ya publisist üçün ən böyük peşə sevinci günlərlə, aylarla üzərində çalışdığı, ürək ağrısı ilə qələmə aldığı bir yazının cəmiyyətdə əks-səda doğurmasıdır. İşıq üzü görən məqalənin kiminsə problemini həll etdiyini görmək, oxucudan gələn səmimi bir "Sağ ol, dərdinizə şərik oldunuz" sözünü eşitmək, haqsızlığa qarşı yazılan kəsərli sözün öz hədəfinə çatmasına şahid olmaq jurnalist əməyinin ən ali mükafatıdır. Haqqında bəhs etdiyimiz, 70 illik ömrünün 50 ilini mətbuata həsr edən, bu illəri kağız-kuğuz, kitabxananın toz basmış kitabları arasında keçirən həmkarımız Faiq Qismətoğlu da belə jurnalistlərdəndir. Bu sevinc hisslərini yaşamağa ən çox onun haqqı var.

**Onun üçün sevinc sıfırdan yaratdığı, xəyallarından kağıza, kağızdan isə reallığa, qəzet səhifəsinə köçürdüyü müxtəlif janrlı, mövzulu yazıların işıq üzü görməsidir. Öz əlləri ilə yazdığı məqalələrin, əzabla, amma sevinc hissi ilə qələmə aldığı yazılarınməhz insanlara xidmət etdiyini görmək yaradıcılıq eşqinin ən böyük zirvəsidir. Peşə sevinci, sadəcə, maaş kartında deyil, insanın "Mən bu gün kiməsə faydalı oldum" deyə bildiyi həmin səmimi hesabat anındadır. İşini sevən hər bir kəs, hansı sahədə çalışmasından asılı olmayaraq, öz sənətinin memarı və onun gətirdiyi mənəvi xoşbəxtliyin sahibidir. Hər zaman mənə "əmioğlu" deyə müraciət edən Faiq Qismətoğlu, 70-ci yubiley yaşın mübarək olsun!**

# Daş səmimiyyəti ilə yazılmış şeirlər



**Lütviyyə Əsgərzadə**
**Filologiya elmləri doktoru**

**Özümü bildim, biləli, dağların ucalığına, qayaların əzəmətli duruşuna heyran olmuşam. Bəzən saatlarla, heyrət və heyranlıqla dağları, qayaları, bəzən də, saatlarla çayın axışını izləmişəm, çay daşlarını və daşlardakı vizual gözəllikləri və fərqliliyi analiz edə - edə. Düşüncələrimə ayna tutmaq üçün onların yaranma və varolma proseslərini və forma baxımından əsaslı fərqlərin səbəblərini araşdırmışam. Qayalar unikaldır, biri digərinə bənzəmir. Əzəmət simvoluna çevrilən və təbii geoloji proseslər nəticəsində əmələ gələn, sərt, nahamar, kəskin qayalar milyon illər ərzində formalaşıb.**

Dağlardan qopan iti və kələ-kötür qaya parçalarının çay sularının təsiri ilə minlər boyunca aşınması və bir-birinə sürtünməsi nəticəsində yaranan çay daşları isə suyun (çayların) uzunmüddətli axını nəticəsində aşınaraq hamar və yuvarlaq forma alır, suyun təsiri ilə cilalandıqca, toxunanda hamar və sürüşkənləşir. Sürtülmədən hətta parlaqlaşır da. Əsrlərdir yerində dayanan, fəsillərin dəyişməsini sükutla izləyən daş nəhənglər dağlar, qayalar isə məğrur və sarsılmaz bir əzəmət rəmzidir. İnsan əli dəymədən yaranmış, hər bucağından fərqli bir sirr və qüdrət oxunan bu nəhəng daş sütunlar təbii sənət əsərləridir. Onlar yerin göyə dikilən etirazı, zamanın sarsılmaz yaddaşı və duasıdır.

Yaradıcılığı çağdaş Azərbaycan nəsrinin ən mühüm ədəbi hadisələrindən biri olan Seyran Səxavət də Azərbaycan ədəbiyyatında yaradıcılığı və şəxsiyyəti ilə bir qaya əzəməti, dağ vüqarı ilə boy göstərir. Seyran Səxavət, əyilməyi bacarmayan, fəsillərin kəskin küləklərinə köks gərərək daha da bərkiyən bir "insan-qayadır". Onun "dik" duruşu qayalar kimi bütövdür; nə yalanın yağışında aşınar, nə də mənfəət küləklərində yerini dəyişər. Seyran Səxavətin qələmi daşdan su çıxaran bir iradənin məhsuludur. Onun yaradıcılığındakı "dik" duruş, xalqın ruhundan gələn o sarsılmazlıq ruhudur. Bütövlükdə, Seyran Səxavət ədəbiyyatımızın zirvəsində dayanan, sükutu ilə də, hayqırtısı ilə də eyni dərəcədə ağır və sanballı bir imzadır, bir əzəmət, vüqar heykəlidir.

Müəllifin "Daş evlər"də, bütöv bir dövrün insan taleyini, cəmiyyət və fərd münasibətlərini psixoloji dərinliklə təhlil etdiyi kimi, biz də Azərbaycan ədəbiyyatında sərt qaya parçası kimi vüqarla və əzəmətlə dayanan, öz mövqeyi, öz sözü olan Seyran Səxavəti gücümüzün çatdığı, sözümüzün yetdiyi qədər təqdim etməyə çalışacağıq.

Bir haşiyə çıxaraq bildirim ki, əslində, bu yazını yazmağı çoxdan düşünürdüm, Seyran Səxavətin qələmdaşlarının və görkəmli elm adamlarının onun haqqında söylədiklərini oxuduqca, məni ciddi məsuliyyət hissi bürümüşdü. Oxuduqlarımdan bir neçəsini xatırlatmaq istəyirəm: "Seyran Səxavət müstəqillik dövrü Azərbaycan ədəbiyyatının "aparıcı arsenalı", əsas simalarından biridir" (İ. Həbibbəyli); "Seyran müəllimi oxumaq, dərk eləmək üçün yaradıcılığına dərindən bələd olmaq lazımdır. İnsanın daxili aləmində gedən təbəddülatları, insanı insan edən keyfiyyətləri, cəmiyyətdəki mövqeləşməni, yaxşını pisdən ayırmağı onun əsərlərində görə bilərik. Mən özümü Seyran Səxavətin əsərlərində tapıram. O xoşbəxt adamdır, ədəbiyyata şeirlə gəldi, gördü ki, misralara sığışa bilmir, sonra nəsrdə özünə geniş meydan tapdı. Onun nəsri axıcı, təkrarolunmazdır" (İ.Əliyeva); "Mən Seyranla 1963-cü ildən tanış olmuşam. Artıq 52-ci ildir ki, Seyranla bir yerdəyik. Bu taleyin işidir ki, həyatımızdan çox dostlar gəldi, getdi, yaxınlar, uzaqlar oldu, amma Allahın lütfüdür ki, bu qədər müddət ərzində Seyranla bir dəfə də sözümüz çəp gəlmədi, münasibətimiz pozulmadı. 50 il bundan əvvəl bir-birimizə necə səmimi idiksə, o səmimiyyət bu gün də qalır. Seyranı mənə və hamıya sevdirən xüsusiyyəti həm insan, həm də yazıçı kimi səmimiyyətidir. Seyran heç vaxt nə yazısında, nə davranışında saxtalıq etməyib. Mənə elə gəlir ki, bu onun ən böyük məziyyətidir. 50 il ərzində nələr, kimlər dəyişdi, amma Seyran dəyişmədi" (C. Nağıyev); "Seyran Səxavət çox böyük istedada malik bir insandır. Seyran müəllimin sənətdə çox zil səsi var. Yəni, o yazıda istədiyi nöqtəyə qalxa bilər. Onun bu kitablarının hər ikisində dönə-dönə zilə qalxdığının şahidi oluram. Seyran Səxavətin insana təsir eləyə bilməyən bircə cümləsi də yoxdur. Həm də insanı güldürə-güldürə, insanın içini işıqla doldura- doldura düşündürməsi möcüzədir. Seyran Səxavət bizim ədəbiyyatımızın sirri-sehri olan qələm sahiblərindən biridir. Onun əsərləri Nizaminin, Füzulinin, Mirzə Cəlilin və bütün böyük dahi sənətkarlarımızın əsərləri kimi bizim xalqımızın milli, mənəvi və ədəbi sərvətinə çevrilib" (V.Bəhmənli); "Seyran Səxavət heç vaxt konyukturaya getməyib. Zamanın, zəmanənin necə dəyişməsindən, nəyin aktuallaşmasından asılı olmayaraq, hər zaman öz inandığı, bildiyi həqiqəti yazıb" (N.Şəmsizadə). Bu fikirlərdən sonra hər zaman özünə, sözünə, üslubuna sadiq qalaraq yaşayan və yazan Seyran Səxavət haqqında yazmağa nə qədər məsuliyyətim artdısa, bir o qədər də yazmaq istəyim artıb çoxaldı.



Düşünürəm ki, Seyran Səxavətin həyatı və ömür yolunun təqdimatına ehtiyac yoxdur. O, öz adı, ingilis, fransız, alman, rus və fars daxil olmaqla dünyanın bir çox dillərinə tərcümə edilmiş zəngin yaradıcılığı ilə özünü Azərbaycan və Dünya oxucusuna təqdim edib. Azərbaycan nəsrinin ən gözəl yaradıcılarından biri olan Seyran Səxavət ədəbiyyata 1962-ci ildə gəlib, yəni mənim 2 yaşım olanda. 15-16 yaşlarımdan dövri mətbuatda rast gəldiyim şeirlərini, yazılarını sevə-sevə oxuduğum yazıçının haqqında yazmaq mənim üçün şərəfdir.

Seyran Səxavət ədəbi mühitə şeirlə gəlib, sonradan nasir və dramaturq kimi şöhrət qazanıb. Biz də ilk yazımızda "Ədəbiyyata təzə gələndə cavan şairlərin gözünü qorxudan, Azərbaycan şairlərinin xoşbəxtliyindən, Azərbaycan nasirlərinin bədbəxtliyindən poeziyadan nəsrə keçən" (R. Rövşən) Seyran Səxavətin poeziyasına nəzər salmağa çalışacağıq.

Ədəbiyyatımıza bir qaya əzəməti ilə daxil olan, sözü bütöv, duruşu "dik", xarakteri sarsılmaz "Seyran Səxavətin məhəbbət lirikasından bəhs edərkən, ilk növbədə onun şair obrazının sarsılmaz bütövlüyünü görməmək mümkün deyil. Şairin yaradıcılığındakı əyilməzlik, əslində onun insani bütövlüyünün poetik əksidir. Qaya necə ki, küləyin, yağışın qarşısında sınmır, Seyran Səxavət də həm həyatda, həm də sənətdə öz həqiqətini eyni vüqarla qoruyur. Onun üçün söz namusdur, daşın daxilinə həkk olunmuş silinməz yaddaşdır. Məhz bu dəyanətli duruş sayəsində onun məhəbbət mövzulu şeirləri oxucuya sadəcə hissləri deyil, həm də o hisslərin arxasında dayanan mərd bir sənətkar ruhunu diktə edir. Bütövlükdə, onun yaradıcılığı bir insanlıq manifestidir.

Poeziyasının ana xəttini səmimiyyət və kövrəklik, daxili sükut və insan taleyi və məhəbbət fəlsəfəsi təşkil edən şairin 22 yaşında yazdığı "Ay ilk məhəbbətim, son məhəbbətim" şeiri Azərbaycan poeziyasının ən gözəl, ən səmimi və dillər əzbəri olan sevgi şeiridir. "Sevginin ali bir hiss kimi təqdim olunduğu şeirdəki bu ölməz misraları müxtəlif aspektlərdən bənd-bənd təhlil eməkdə fayda var. Yanmaq və kül olmaq:

*Sən nə istəyirdin, nələr itirdin?*
*Qorxma kül olmaqdan, yan, məhəbbətim.*
*Sən mənim başıma nələr gətirdin,*
*Ay ilk məhəbbətim, son məhəbbətim.*

Sevgini atəşdə yanmağa bənzədən şair, yanmağın sonunun kül olmaqla bitdiyini də bilir. Buna rəğmən, ürəyinə hökm edir: "Qorxma kül olmaqdan, yan, məhəbbətim". Sevmək - yanmaqdırsa, yanmağın sonu kül olmaqdır. "Kül olmaqdan qorxmamaq" gənc şairin hökmüdür. Bunu şairin sevginin "odundan yanmaqdan və kül olmaqdan qorxmamağını", ali duyğu üçün insanın mərhələ-mərhələ nələrdən keçəcəyini və ya keçməli, bu yolda fədakarlıq göstərməli olduğunu, sevginin ilahiliyini və təkliyini vurğuladığı aşağıdakı bənddə izləyək:

*O parlaq sevgimdən çox utanıb dan,*
*Ulduzlar eşqimdən qızartı dərmiş.*
*İnsanlar bir dəfə doğulduğundan,*
*Elə bir dəfə də sevə bilərmiş...*

Bu şeirin ən məşhur bəndlərindəndir. Şözlərə fəlsəfi məna yükləyən şair insanların dünyaya gəlişi, sevməsi və hətta ölməsi ilə bağ qurur. Həqiqətən də, elə şeylər var ki, insanlar üçün fiziki olaraq bir dəfə verilib, olum və ölüm kimi. Olum və ölüm həyatın fəlsəfəsi olduğu kimi, sevgi də həyatın fəlsəfəsidir. Və olum ilk, ölüm son olduğu kimi, "ilk məhəbbət" də "son məhəbbət" olmalıdır. İnsan yaşamında bu fəlsəfəni izləmək üçün fədakarlıqla yanaşı, sadiq olmalı, gözlərini sadiqliyə keşikçi etməlidir:

*Mənəm, milyard naxış səpmişəm göyə,*
*De, varmı hesabı naxışlarımın.*
*Kirpiklər özgəyə baxmayım deyə,*
*Çəkir keşiyini baxışlarımın...*

Belə bir deyim var, "Göz gördü, könül sevdi". Könül sevgisinə sadiq qalsın deyə, göz bir başqasına baxmamalıdır. Lakin gözün missiyası görməkdir. Şair gözlər özgəyə baxmaması üçün kirpiklərin baxışlarının keşikçisi olmasını istəyir, kirpiklərə keşikçi olmaq missiyasını yükləyir. Digər tərəfdən də, dini inancımızdakı, "iki göz iki gözə halaldır", - fikrini, ilahi məhrəmliyi xatırladır. Bu ifadədəki "halallıq" sadəcə dini yox, daha çox mənəvi bir anlayışdır. Əgər bir insan digərinə qaya kimi sadiqdirsə, onun baxışları ancaq qarşı tərəfə "halaldır". Bu, xəyanətdən və saxtalıqdan uzaq olan bir məhəbbətin təsdiqidir. Şairin misralara pıçıldadığı təklik və məhəbbətsizlik qorxusunu izləyək:

*Elə sızıldayır qəlbim tar kimi,*
*Sən kimin eşqini daşıyacaqsan?*
*Bəlkə də divarlar, maşınlar kimi,*
*Sən də məhəbbətsiz yaşayacaqsan...*

Ruhu olan insan sevgisiz yaşaya bilməz. Şair sevgisiz yaşamağı cansız əşyalara, divarlara, maşınlara bənzədir. Divar kimi, maşınlar kimi sevgisiz yaşamaqsa, yaşamaq deyil. Eşq elə bir müqəddəs hiss, ilahidən verilmiş bir nemətdir ki, bəzən cansız daşın da qəlbində çiçək açdırır. Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında "Eşq düşsə daşın da qəlbinə əgər, / Gövhərdən özünə məşuq düzəldər", - yazaraq məhəbbətin cansız varlıqlara belə təsir edərək, onları canlandıra biləcək qədər qüdrətli olduğunu vurğulayır.

*Sən bir soyuq ulduz, mən gözlərinəm,*
*Eybi yox, mənimçün həmişə varsan.*
*Sıxma ürəyimi, ürək cəhənnəm,*
*Axı sən ordasan, sən sıxılarsan...*

"Sıxma ürəyimi, ürək cəhənnəm, / Axı sən ordasan, sən sıxılarsan..." misraları Seyran Səxavət poeziyasının fədakarlıq zirvəsidir. Şair öz ürəyini, öz acısını, varlığını deyil, o ürəyin içindəkini düşünür. "Ürək cəhənnəm" desə də, həmən o ürəyin içindəkini düşünür, ürəyi qorumağın vacibliyini vurğulayır: "Axı sən ordasan". Ürəyini yox, öz daxilindəki sevdiyini incitməkdən qorxur. Bu sevginin ən ali məqamıdır. Bu şeir Hegelsayağı desək, "Sevənin özünü unudub, bir başqa "mən"də tapmasıdır". Şair, "Sən mənimçün həmişə varsan", - deməklə fiziki ayrılığı mənəvi əbədiyyətlə məğlub edir.

Seyran Səxavətin gənclik eşqi ilə yazdığı sevgi şeirləri özünəməxsusdur. Bunu onun məhəbbətin ən saf, ən toxunulmamış mərhələsini, "pıçıltı və baxış" mərhələsini təsvir etdiyi "Utancaq məhəbbət" şeirində izləməyimiz sözlərimizi daha hökmlü edər:

***Günlərin bir günündə***
***Bir utancaq məhəbbət***
***Doğulmuşdu sinəmdə.***
***Bir gözəlin baxışı***
***Ulduz-ulduz doğranıb***
***Dağılmışdı sinəmdə.***

Sevginin hələ dilə gəlməyən, yalnız ruhun dərinliyində titrəyən halını "utancaq" adlandıran şair "Doğulmuşdu sinəmdə", - ifadəsi ilə sevgini kənardan gələn bir hiss kimi deyil, daxildən, insanın öz bətnindən, ürəyindən doğan bir canlı varlıq kimi təqdim edir. Buradakı "Baxışın ulduz-ulduz doğranması", - ifadəsi mükəmməl bir poetik tapıntıdır. Gözəlin baxışı şairin sinəsinə sadəcə dəymir, ora işıq saçaraq daxil olur və minlərlə parıltıya, ulduza bölünür. Bu, insanın daxili dünyasının bir anda aydınlanmasıdır. "Dağılmışdı sinəmdə", - ifadəsində sevginin nizamsız, coşqun və idarəolunmaz bir güc olduğunu, o gücün bir nöqtədə durmadığını, insanın bütün varlığına yayıldığını göstərir. Seyran Səxavətin bu "utancaqlığı" əslində, ən böyük cəsarətidir. Çünki bu, ulduzların sinədə dağılmasına icazə vermək, ruhun qapılarını tam açmaq deməkdir.

Bəzən məhz bu "utancaq məhəbbət" zaman keçdikcə o "ilk və son məhəbbətin" gətirdiyi fırtınaya çevrilə bilir. Bəzən isə o "utancaq" məhəbbət şairi çox şeylərə həsrət qoyur. Gözləri görsə də, ürəyi baxmağı qadağan edir:

***Gözlərimin qarası***
***Həsrət qalmış qapqara,***
***Şəvə kimi tellərə.***
***Əllərimin həsrəti***
***Həsrət dolu əllərə.***

***İllər sürünüb keçib,***
***İllərimin çoxusu***
***Gözümə şimşək kimi***
***Bir an görünüb keçib.***

***...İstəyirəm birinin***
***Ürəyinə axım mən -***
***Donur,***
***axa bilmirəm.***
***İstəyirəm birinə***
***Oğrun-oğrun baxım mən,***
***Gözlərim görə-görə***
***Yenə baxa bilmirəm.***

Bütövlükdə, mütləq bir həsrət və ruhun hərəkətsizliyi üzərində qurulan bu şeiri oxuduqca, "bu nə sevgi, İlahi", demək keçir içimdən. Misralarda insanın daxili aləmindəki "istək" ilə "imkan" arasındakı dərin və ağrılı uçurum o qədər incə bir ustalıqla təsvir edilir ki...

Mətni tamamilə fərdi bir rakursdan rənglərin və hisslərin həsrəti üzərindən də təhlil edə bilərik. Şair "qara" rəngi (gözün qarası və şəvə tellər) bir-birinə qovuşmayan iki sahil kimi təqdim edir. Burada "qapqara" ifadəsi kədəri yox, arzunun intensivliyini göstərir. Əllərin həsrəti isə toxunma ehtiyacının yoxluğunu deyil, həmin boşluğun özünün bir "əşyaya", bir ağırlığa çevrilməsini ifadə edir. "İllərimin çoxusu gözümə şimşək kimi bir an görünüb keçib", - misrasında zamanın nisbiliyi izah edilir. İnsan acı çəkəndə illər "sürünür", amma dönüb arxaya baxanda həmin illər sanki heç yaşanmamış kimi, bir anlıq işıq parıltısı tək yox olur. Bu, ömrün sürəti qarşısında ruhun keçirdiyi dəhşətli bir heyrətdir. Şairin "axmaq" istəməsi onun həyat eşqini və sevgiyə meylliliyini göstərsə də, lakin "donur, axa bilmir". "Donur, axa bilmirəm", - etirafı mənəvi bir qadağadır. Bu, insanın öz daxili dünyasında qurduğu "donma nöqtəsi"dir. Qəlbi buz kimi donmuş, insan başqa bir insanın ürəyinə axa bilməz. Bu, daxili bir sarsıntının, "baxışlara qoyulan qadağa"nın nəticəsidir.

Fikrimizcə, şeirin ən yüksək psixoloji nöqtəsi: "Gözlərim görə-görə yenə baxa bilmirəm", - misrasıdır. Görmək fiziki bir prosesdir və insan istədiyi və ya istəmədiyi hər şeyi görür. Baxmaq isə mənəvi prosesdir. Yəni şair obyekti görür, amma ona baxmağa, onu duymağa, onu özünə yaxın buraxmağa mənəvi gücüm çatmır və ya baxmaq istəmir. Bu, bir növ "könüllü korluq" və ya özünü qoruma instinktidir. Bir insanın gördüyü halda baxa bilməməsi, onun sevgisinə böyük sədaqəti və fədakarlığıdır.

***Utancaq məhəbbətim!***
***Heç bilmirəm hardasan?!***
***Bəlkə özgə baxışlar***
***Qollarını bağlayıb,***
***Bəlkə elə dardasan***

***Utancaq məhəbbətim?!***
***Bilsəm ki, yaşayırsan***
***Dağlar gizlədib səni,***
***O pəhləvan dağları***
***Yumruğumla əzərəm.***
***Bilsəm dənizlərdəsən,***
***Mən bütün dənizləri***
***Dalğa-dalğa gəzərəm.***

Şeirin bu hissəsində o "donmuş" və "baxa bilməyən" lirik qəhrəmanı birdən-birə vulkanik bir enerjiyə, mifik bir gücə çevirir. Utancaqlıq yerini sarsılmaz bir qətiyyətə verir. "Qolların bağlanması" və "Darlıq" ehtimalı" şairin sevgisini uzaqlarda axtararkən, onun azad olmadığı düşüncəsidir. "Özgə baxışların qolları bağlaması" istiarəsi (gizli təşbeh) möhtəşəmdir. Burada baxış sadəcə görmək deyil, həm də bir zəncirdir, məhdudiyyətdir. Öz sevgisini "darlıqda" (sıxıntıda) təsəvvür edərək, müəllifin ona qarşı böyük bir məsuliyyət və şəfqət hissidir.

**(ardı növbəti sayımızda)**

# Faiq Qismətoğlunun 70 yaşı qeyd olundu

**Dünən Azərbaycan Mətbuat Şurasında əməkdar jurnalist, "Ədalət" qəzetinin şöbə müdiri Faiq Qismətoğlunun (Hüseynov Faiq Qismət oğlu) 70 illik yubileyinə həsr olunmuş toplantı keçirilib.**

Adalet.az xəbər verir ki, tədbiri giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, 1979-cu ildə Bakı



Dövlət Universitetinin Jurnalistika fakultəsini bitirmiş F.Qismətoğlu həyatını doğma peşəsinə bağlayıb, təxminən, 10 ilə yaxın müddətdə Bakı Radio Zavodunun çoxtirajlı "İmpuls" qəzetində çalışıb, 1990-cı ildən indiyədək "Ədalət" qəzetində şöbə müdiridir. MŞ sədri, eyni zamanda, deyib ki, yubilyar ötən müddətdə yüksək bacarığı və istedadı ilə fərqlənib, "Ədalət"də müxtəlif janrlı minlərlə məqalə qələmə alıb, Birinci və İkinci Qarabağ müharibəsi ilə bağlı çoxsaylı materiallar hazırlayıb.

R.Məcid onu da bildirib ki, F.Qismətoğlu jurnalistikaya sədaqətli xidmətin nümunəsidir. Bu fikri toplantıda çıxış edənlərdən yazıçı-publisist Vaqif Bəhmənli, veteran jurnalist, müstəqillik dövrü Azərbaycan mətbuatında öz dəst-xətti ilə tanınan "7 gün" qəzetinin baş redaktoru olmuş Emin Eminbəyli, politoloq və jurnalist Elşad Həsənov, Müstəqil Araşdırmaçı Jurnalistlər Liqasının sədri Qafar Çaxmaqlı, əməkdar jurnalist, Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, jurnalist-publisist İqbal Əlisoy, jurnalistlər Zaur Vəliyev və Asif Talıboğlu, F.Qismətoğlunun yaxın dostları Kamran Əhmədov, Nizami Allahyarov və başqaları da dilə gətirərək vurğulayıblar ki, yubilyarın yaradıcılığında başlıca xarakterik cəhət mövzu zənginliyidir. Elə mövzular ki, hər zaman həyatdan götürülüb, oxuculara son dərəcə səlis və oxunaqlı şəkildə çatdırılıb. Bunun nəticəsində F.Qismətoğlu cəmiyyətdə yetkin qələm sahibi kimi tanınaraq populyarlaşıb. Çıxış edənlər, həmçinin, F.Qismətoğlunun son dərəcə incə publisistik duyuma malik olmasından söz açıb, bu cəhətin onun çoxsaylı yaradıcılıq nümunələrində özünü göstərdiyini deyib, yubilyarı səmimi və qayğıkeş həmkar, əsl dost kimi səciyyələndirən cəhətlərə diqqət çəkib, təbriklərini çatdırıblar.











**Qeyd edək ki, R.Məcid F.Qismətoğlunun Mətbuat Şurasının diplomu ilə təltif olunduğunu bildirib və diplomu ona təqdim edib. Sonda çıxış edən yubilyar xoş sözlərə, yaradıcılığına verilən yüksək dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib.**

*Seyran SƏXAVƏT*

## Faiq Qismətoğlunun qisməti...



**Mən Faiqi uzun illərdi tanıyıram - lap tələbəlikdən. O, gülərüz, istiqanlı, bir az da utancaq oğlan kimi gözlərimdə şəkillənib və bu "şəkil" bu günə qədər dəyişməyib - Faiqə oxşaya-oxşaya öz yerində dirənib - dayanıb.**

**Deyirlər ki, qələm sahiblərinin yazdıqları özünə oxşayır - düz də deyirlər, bəs kimə oxşamalıdı, özünə bənzəməlidir də... yoxsa... necə deyərlər, apar qaytar.**

**Faiqin yazdıqları hamısı özüdür; başqalarına girişməkdənsə, ən yaxşı və sərrast tanıdığına girişib - özünə və yazdıqları da göz qabağındadı.**

**Faiq Qismətoğlu bədii yaradıcılıqla da məşğul olmuş və "Dünyanın o üzü" kitabının müəllifidir.**

**Qələm dostumuz həm də tale adamıdı; bəzi jurnalistlərdən fərqli olaraq o, öz tərcümeyi-halını özü yazanlardandır - yəni hazıra nazir olmayıb; gizli deyil ki, elə söz dünyasında da, həyatımızın müxtəlif sahələrində də özü doğmamışdan qabaq tərcümeyi-halı "doğulanlar" var - belələrinə bic doğulmuş tərcümeyi-hal da demək olar ki, Faiq bu mənada sözün halal yerindəndi və başqa söhbət ola bilməz.**

**Bu da Faiq Qismətoğlunun qismətidi - İlahi qismət.**

**Faiq, öpürəm, təbrik edirəm.**

## *Bakcell ilə Bakıda unudulmaz UFC həyəcanı yaşandı*

**Bakcell-in əsas tərəfdaşlığı ilə 27 iyun tarixində keçirilən UFC turniri Bakını qlobal MMA-nın diqqət mərkəzinə çevirib.**



Adalet.az xəbər verir ki, turnirin əsas döyüşündə Rafael Fiziyev Manuel Torres üzərində inamlı qələbə qazanaraq azarkeşlərə möhtəşəm performans nümayiş etdirib. Gecənin diqqətçəkən qarşılaşmalarından birində isə Fərman Həsənov UFC-də debüt görüşünü Erik Nolan üzərində qələbə ilə başa vuraraq azarkeşlərini sevindirib.

Bakcell əsas tərəfdaş qismində UFC-nin Azərbaycanda keçirilməsinə dəstək göstərməklə ölkədə beynəlxalq idman tədbirlərinin inkişafına və Azərbaycanın qlobal idman xəritəsində mövqeyinin daha da möhkəmlənməsinə töhfə verməyə davam edir.

Qeyd edək ki, şirkət artıq ikinci ildir qlobal MMA təşkilatı UFC-nin Azərbaycanda keçirilən turnirinə dəstək verir. Dünyada milyonlarla azarkeşi bir araya gətirən UFC ən nüfuzlu və populyar döyüş idmanı təşkilatlarından biri hesab olunur.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.

# "Ağıl insanın mütləq varlanacağına zəmanət vermir"

**"Materialist insan kasıba "Əgər bu qədər ağıllısansa, niyə kasıbsan?", spiritual insan isə varlıya "Əgər bu qədər müdriksənsə, bu qədər var-dövləti nə üçün toplamısan?" sualını verir. Əslində hər iki sual eyni yanlış düşüncədən qaynaqlanır. Hər iki tərəf insanı tək bir meyarla qiymətləndirir. Ağıl insanın mütləq varlanacağına zəmanət vermir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bunun üçün ağılla yanaşı, zəhmət, qarşıya çıxan fürsətlər, ailə və qohum dəstəyi, dost



çevrəsi, peşəkar əlaqələr, düzgün zamanlama və bəzən də şans mühüm rol oynayır:

"Digər tərəfdən, böyük sərvətə sahib olmaq da insanın mənəviyyatdan uzaq olduğunu göstərmir. Əksinə, böyük sərvət yaratmaq, onu səmərəli idarə etmək və uzun illər qorumaq əksər hallarda yüksək intellekt, uzaqgörənlik, nizam-intizam və məsuliyyət tələb edir. Deməli, ağıllı olub kasıb olmaq da mümkündür, müdrik olub varlı olmaq da. Əlqərəz, insanları nə çox puluna görə, nə də pulsuzluğuna görə mühakimə etmək düzgün yanaşma deyil. Ən doğru meyar onların cəmiyyət üçün yaratdığı dəyər və bu nəticəyə hansı yolla çatmasıdır".

**Sübhan**

## *Yuxu üçün ideal otaq temperaturu neçədir?*

**Yuxu üzrə mütəxəssis Brayan Çen rahat və keyfiyyətli yuxu üçün ideal otaq temperaturunu açıqlayıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Lenta.ru" məlumat yayıb.

Mütəxəssis bildirib ki, ideal temperatur 15,5-19,4 dərəcə arasında olmalıdır.

Onun sözlərinə görə, bu göstərici əksər insanların seçdiyi temperaturdan daha aşağıdır.

Çen qeyd edib ki, yuxu zamanı bədən temperaturu minimum səviyyəyə düşür və bu, insanın bioloji ritmi ilə əlaqəlidir. Güclü isti havada isə beyin dərin yuxu mərhələlərinə çatmaqda çətinlik çəkir.

Brayan Çen yaxşı yuxu üçün otağın temperaturunu uyğun saxlamaqla yanaşı, yüngül yataq dəstindən istifadə etməyi, kofeinli və şəkərli içkilərdən uzaq durmağı tövsiyə edib.



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Əyalətdə yaşasa da...

## (Arif Fərzəlinin 70 yaşına)

***Qatyanın dibində bir çiçək gördüm -***
***Gözləri qamaşdı, gördü sehrdi.***
***Gördü daş deyil, götürüb ata,***
***Gördü heyvan deyil, gördü quş deyil.***
***Tuşlaya oxunu, çəkə yayını***
***Qayanın dibində bir çiçək gördü,***
***Çırtladı çiçəyi, əsdi ürəyi,***
***Gördü ürəyini sıxan şeirdi***
***Gördü, damarından axan şeirdi.***
***Atdı yayını,***
***Götürüb oxunu, gəldi yaxına***
***Qayanın üzərinə,***
***var gücüylı basdı.***
***Ilk şeirini yazdı***

"İlk şeir" adlı bu şeirin müəllifi Arif Fərzəlidir. O, bu şeiri iyirmi yaşlarında yazmışdı. Şeiri sehirli çiçəyə bənzədirdi. Və indi 70 yaşına çatanda da Arif o sehirli çiçəkdən - şeirdən ayrılmayıb. Arif Fərzəli BDU-nu bitirib, uzun illər orta məktəb- Masallının Xırlandalı kəndində müəllim işləyib . Ədəbi aləmdə bir şair kimi tanınıb, sevilib. Əyalətdə yaşasa da, böyük ədəbi mühitdə yeri var.

Arif Fərzəli səksəninci illərin əvvəllərində o gur şeir axınında ədəbiyyata gəldi. Elə bir dövrdə ki, hər zaman olduğu kimi seçilmək, fərqlənmək, öz məxsusi deyim tərzini, dünyaya, həyata poetik görümünü hifz eləmək o qədər də asan deyildi. "Səksənincilər" sırasında istedadlı cavanlar az deyildi və çox keçmədən onların əksəriyyəti poeziyada etiraf olundular - Ağalar Mirzə, Adil Mirseyid, Akif Səməd, Əbülfət Mədətoğlu, Əjdər Ol, Əlisəmid Kür, Ramiz Qusarçaylı, Ağacəfər Həsənli, Nisəbəyim, Namizəd Xalidoğlu, Sabir Sarvan, Səməd Qara-çöp, Məmməd İlqar, Ziröddin Qafarlı, Qəşəm Nəcəfzadə, Zahid Sarıtorpaq, Adil Cəmil, Saday Şəkərli, Mahirə Abdulla, Akif Əhmədgil imzaları bir ədəbi nəslin formalaşdığını sübut etdi. Onlar şeirləri ilə ədəbiyyatda yeni bir SƏS (əlbəttə, bir nəslin SƏSi) yaratdılar. Eyni ədəbi nəslə mənsub olan bu şairlərin mövzuları bir-birinə yaxın olsa da, yazı tərzi, poetik ifadə üsulu bir-birinə bənzəmirdi.

Arif Fərzəli Xudakərim Fərzəliyevin oğludur. Xudakərim müəllim cənub bölgəsində tanınan, sevilən ziyalılardan biri idi və təkcə kənd müəllimi kimi deyil, həm də bir şair kimi tanınırdı. Özü də bəhri-təvil ustası kimi. Əlbəttə, "ot kökü üstdə bitər" və Arifın də şeirə, sənətə meyil etməsində Xudakərim müəllimin böyük təsiri olub.

Arif Fərzəli Vətənini, elini, obasını, kəndini sevən bir şairdir və mənim fıkrimcə, hər hansı şair haqqında söhbətə də elə bu nöqtədən başlamaq lazımdır. Təbiət şeiri də, məhəbbət şeiri də bundan sonra gəlir.

***Dilinin ucunda***
***ilk sözün nübarı,***
***çoxdan gözləyirdim***
***bu baharı.***
***Çörək desən-çörəyin olar,***
***su desən-suyun olar,***
***ana desən-anan olar.***
***Amma ilk dəfə***
***vətən de, qızım!***
***Vətənin olsun-***
***çörəyin də olacaq,***
***suyun da olacaq,***
***anan da olacaq.***

Bu şeiri Arf Fərzəli 40 il bundan əvvəl yazıb və bu 40 il ərzində Arifin şeirlərindən Vətən rayihəsi əksilməyib. Vətəndən yazmaq, təbii ki, onu çılpaq və ritorik, şablon ifadələrlə, yavan-yalxı sözlərlə tərənnüm etmək deyil.

Əgər özünü Vətənin bir zərrəsi hesab edirsənsə və həm də şairsənsə, yazdığın şeir də Vətənin adına layiq olmalıdır. Arifın birbaşa tərənnüm, vəsf şeirləri yoxdur, o, həmişə mədhdən, tərifdən qaçıb. Vətənin başına gələn fəlakət, tarixin keçmişində yaşanan kədərli olaylar da düşündürüb onu, uğurlar da. "Qanlı şənbə duası" şeirini oxuyuram və oxuduğum 20 yanvar faciəsi ilə bağlı onlarla, yüzlərlə şeirdən bircəsinə belə oxşamır bu şeir:

***Səni and verirəm öz qüdrətinə,***
***Müqəddəs adına and verrəm səni!***
***Bu qəmi-qüssəni çox görmə mənə,***
***Alma bu kədərin əlindən məni.***

***Məlhəm istəmirəm səndən, ilahi!***
***Mənəm, istəmirəm tər-təsəllini.***
***Alma bu kədəri məndən, ilahi!***
***Alma bu kədərin əlindən məni.***

Arif Fərzəlinin şeirləri həyatdan, yaşadığı mühitdən gələn təsirləri, intibaları əks etdirir.

Amma təkrar edim ki, Arifın şeiri o zaman uğurlu alınır ki, orada şeirin mahiyyətini təşkil edən, ona ruh və can vcrən bədii təsvir vasitələri öz əksini tapır. Baxın:

***Uçqunu, daşqını almaz eyninə,***
***Almaz qayalarla döş-döşə durar.***
***Buludu, dumanı geyər əyninə,***
***Bu kənd şimşəklərə soba yandırar.***

Arif Fərzəli bu günün həqiqətləri ilə yaşayan şairdir. Amma "dövran"şairi deyil, yenə sovet dönəmində olduğu kimi liderlərə, əmək qabaqcıllarına şeirlər həsr etsin. Bu günün şairi son dərəcə mürəkkəb, təzadlli, xaotik dövrümüzün, amma heç vaxt gələcək haqqında ümidimizi itirmədiyimiz çağımızın həqiqətlərini qələmə almalıdır. Bu həqiqətlərin içində "tənha adamın yuxularından" tutmuş divardan asılmış əsgər şəkillərinə qədər, bugünkü toy bazarının milli adətlərimizin üstünə çökməsindən tutmuş qələmin, sözün müqəddəsliyinə qədər hər şeyi taparsan.

Arif yaşadığı o balaca kənddən dünyaya, kainata, Yerə, Göyə, insan cəmiyyətinə, təbiətə boylana bilir.

Və onun şeirlərində sevgi əzəblarını da duya bilərsən:

***Sağım durub öz solumu qarğıyar,***
***Kim girdi ki, özüm girdim araya.***
***Bu ürəyi, bu taleyi yarıya***
***Böləmmədim bu sevdanın yolunda.***

***Oz əlimnən qayçılandım bir ömür,***
***Qamçıladım-qamçılandım bir ömür.***
***Bir buluddum, damcılandım bir ömür,***
***Sellənmədim bu sevdanın yolunda.***

***Nə üstünə çaxa bildim özümü,***
***Nə üstündən yığa bildim izimi.***
***Dədə Kərəm, külün tutsun gözümü,***
***Oləmmədim bu sevdanın yolunda.***

Arif Fərzəli bir neçə ildi ki, səs tellərindən əziyyət çəkir, çətin danışır. Amma şeirlərində mən onun gur səsini eşidirəm. Arif pıçıltıyla danışmağı sevmir, şeirlərində də səssizlik, sükunət hiss eləmədim. Amma bunun əksinə, qışqırtı, bağırtı da yoxdu. SƏS var, Səda var, həzinliyi də, kövrəkliyi də, etirazı da, sevincini ifadə etməyi də, qəmini bizimlə bölüşməyi də o SƏSdən gəlir. Həyatı, dünyanı, insanları sevir: "Dünya yaşamalı dünyadı elə, Öpüb oxşamalı dünyadı, qardaş" - deyir.

**Masallının Muğan çölündə - Xırmandalı kəndində, hir ocaq başında, nəvə şirinliyində, isti təndir çörəyinin ətrində... və bir də özü üçün yaratdığı və heç bir zaman ayrıla bilmədiyi şeir dünyasında yazır - varadır ARİF FƏRZƏLİ.**



**Qəşəm İSABƏYLİ**

# HACAĞA ƏMİOĞLU

## (xatirə-portret)

Bizim Xəlsədə bir Hacağamız vardı. O, təkcə bizim deyildi, bütün kəndin Hacağası idi. Gəl ki, o da minlər, on minlər kimi təqaüd yaşına çatmadan öldü. Düzdü, Hacağaya qədər kəndimizin cavan-cavan övladları köçmüşdü dünyadan. Heç birinin də ruhu nigaran deyildi. Amma Hacağa sinəsi dağlı getdi. Boyu bərabəri evlənməli oğlu var idi. Səhər apardı qoyunlarını otarmağa, günorta meyitini gətirdilər.

Bu, gözləri gözəllik axtaran gənc niyə öldü, nədən öldü, kim öldürdü, bilinmədi. Dedilər, özü özünə qəsd eləyib. Adam da 1 kilo yükə əyilən yulğun ağacından özünü asa bilər?!

Elə bu dərd də Hacağanı sındırdı. Günlərlə gedib balasının qəbrini qucaqlayıb, ağlayardı. Axırda yorğan-döşəyə düşdü. Neçə il idi yatdığı yerdən, ehtiyacı olmasaydı, durmazdı. Xəstəliyi vardı, amma ölümcül deyildi. İstəsəydi hələ də yaşayardı. Gəl ki, can qorxusundan hərdən həkimə gedər, qoşa-qoşa "təcili yardım" çağırtdırar, sağalıb ayağa durmaq istəyərdi. Hərdən də həyatdan bezib, günlərlə üzünü divara çevirib yatar, verməsəydilər, dilinə bir qaşıq su da vurmazdı. "Ay Allah!" deyib, özünə ölüm arzulayardı. Qardaşı Molla Hacoğlan gələndə,

-Bir ölüm iynəsi olsaydı, vurardın, canım qurtarardı... - deyib, onu da peşman eləyərdi.

***

Kür üstündə adı bu gün də yaxşılığa çəkilən Hacmayıl bəyin kiçik nəvələrindən idi Hacağa. Elə bizim də kiçiyimiz idi. Birimizin kiçik qardaşımız, birimizin kiçik dayıoğlumuz, birimizin də kiçik əmoğlumuz idi Hacağa. Bəxtinə qohumluğun heç birindən "böyüklük" düşməmişdi. Odur ki, hamımız istəyirdik biz deyəni desin Hacağa. Gəl ki, nə Allah deyəni deyirdi, nə də biz deyəni deyirdi Hacağa.

-Bilirəm, məndən nə istəyirsiniz. İstəyirsiniz kiçiyiniz olum. Məndən ötrü böyük o kəsdir ki... o, böyük elə mən özüməm ki, varam.

Buna görə də Hacağanın adının qabağına bir "tərs" ləğəbini də qoymuşduq.

Rəhmətlik atası Hacalı əmim nə tökmüşdü, onu da yığışdırmışdı Hacağa.

Sovet dönəmində kənd adamları barama qurdu saxlayırdı. Hacalı əmim də adəti üzrə bir yaz günü... Özü danışırdı ki, getdim barama qurdu götürməyə, Hacbala dedi:

-Hacalı, Səftərin oğlu sənə qurd yazmayıb.

Daban aldım Qocalı kəndinə, girdim Əlsahibin yanına:

-Niyə qoymursan mənə qurd versinlər?! - Dedim.

-Sən barama planını yerinə yetirmirsən! - Dedi.

-Elə buna görə?!

-Bu azdı bəyəm?!

Dedim:

-İllərlərcədi Sabirabad barama planını yerinə yetirmir, nə yaxşı hər il ona qurd verirlər?!

Rəhmətliyin xırda gülüşü vardı. Güldü-güldü, sonra dedi, get götür.

Hacağa da atası kimi söz deyənini qabağına diri sözlə çıxardı.

Bir gün bibim oğlanları Ehtibarla Yengibar zarafatla Hacağanı divara dirəyir. Yengibar qaşlarını çatıb, gözlərini zilləyir Hacağaya:

-O nə arvaddı almısan, ə?! Dinəndə də yekə-yekə deyirsən, arvadım var!

-Əlindən iş-güc də gəlmir?! - Bu yandan da Ehtibar deyir.

-Vallah, mən belə arvadı, - qardaşlar xorla deyir, - beş oğlan da doğsaydı, bir gün də saxlamazdıq!

Hacağa da qayıdır ki:

-Neyləyim, yaxşı arvadları seçib götürdünüz, pisini də verdiniz mənə.

***

Hacağa savadlıydı, dərrakəliydi.

Bir dəfə kənd evimizdə oturub, yazı-pozuyla məşğul olurdum. Birdən orta məktəbin aşağı sinfində oxuyan Hacağanın səsini eşitdim:

- ...sobaka kusayet.

Əlim üzümdə qaldı. Tez lüğəti açdım...

Ədəbiyyata da böyük marağı vardı. Yadımdadı, Hacoğlan əmoğluydu, Hacağaydı, bir də bir neçə nəfər, Füzulinin "Ley-li-Məcnun" əsərindən girişi əzbər deyirdim:

"Arayişi-söhbət eylə, saqi,
Ver badə, mürüvvətilə, saqi..."

Söz ağzımdan çıxar-çıxmaz Hacağa səhfimi düzəltdi:

-... mürüvvət eylə....

Bu başın sahibi özünə bir gün ağlamadı. Bəlkə də "yiyəvay" dərdindən Hacağa ali məktəbə sənəd də vermədi heç.

***

Allah elə bil sınağa çəkmək üçün gətirmişdi onu dünyaya. Özünə bab həyat yoldaşı tapmaqda da bəxti yar olmadı Hacağaya. Anası, rəhmətlik Quba əmidostu öz kəndlərindən gözəl bir qız almışdı ona. Nə oldusa Hacağa bu qızdan üz döndərdi. İş düşdü məhkəməyə.

Hakim Hacağaya güc gəlmək istəyib:

-Yoldaşını boşaya bilməzsən!

-Niyə, cənab hakim?

-İxtiyarın yoxdu!

-Cənab hakim, şalvara kağızdan yamaq qoymaq olar?!

Ağlı bir şey kəsdirməyən hakim mat-mat baxır Hacağanın üzünə. Sonra da hirslə deyir:

-Bu nə sözdü, ə... nə demək istəyirsən?!

-Demək istəyirəm ki, şalvarı yuyanda, yamaq da yuyulub gedəcək!

***

Üç gün əvvələ qədər bilirdim ki, Hacağa sağdı. Ürəyim bütöv idi. Öz-özümə düşünürdüm, inşallah, sağalıb durar ayağa.

Srağagün qardaşı Hacı Hacoğlan zəng elədi ki, bəs Hacağanı da aparıb dəfn elədik. Deyirdim, ürəyim daşlaşıb, ağlamaram indən belə. Amma Hacağanı torpağa qoyanda ağladım. Qardaşın belə şirin olduğunu bilməzdim.

# Tər çox güclü dərman imiş...

**Kosmetik cəhətdən xoşagəlməz bir fenomen olan tər, əslində müalicəvi xüsusiyyətlərinə görə bir çox dərmanı üstələyən super antibakterial agentdir. Amerika Birləşmiş Ştatlarından olan alimlər bu nəticəyə gəliblər.**

Tədqiqat nəticəsində tərin bakteriyalar üçün universal bir vasitə olduğu qənaətinə gəlinib.

"Təbiətin özü tərəfindən icad edilən insan tərindən başqa, ən davamlı bakteriyalar üçün daha yaxşı bir vasitə yoxdur.

Tərkibində istənilən zərərli mikroorqanizmi məhv edə bilən bir maddə var", - deyə alimlər bildirib.

Sözügedən maddə zülal dermisiddir. Dermisid yalnız insan tərində aktivləşir: zərərli bakteriyaları öldürən, onların hüceyrə membranlarına nüfuz edən bir virus kimi çıxış edir.

Tərin əsas komponentindən istifadə edərək, həkimlər bakteriyalara qarşı müqavimət kimi ciddi tibbi problemi həll edə biləcək yeni nəsil antibiotiklər yaratmağı planlaşdırırlar.

**Əvvəllər avstraliyalı tədqiqatçılar burun seliyinin bədən üçün əla qoruyucu vasitə ola biləcəyini irəli sürərək insanlara onu udmaqdan çəkinməməyi məsləhət görürdülər. Onlar deyirlər ki, udulduqda burun ifrazatı faydalı mikrofloranın aktivatoru kimi çıxış edir və nəticədə immun sistemini gücləndirir.**




# BAYAT

№ 89 (949)




# Mənim gecələrim hər gecə oyaq



Ağa LAÇINLI

## Fəxri üçün

Oğlum, mən müqəddəs bildim atamı,
Həmişə atana sən hörmət elə.
Bəlkə heç qalmadım ağlın kəsənə,
Dözüb ağrılara dəyanət elə.

Günəş ol - bəşəri isitmək üçün,
Şahin ol - zirvədə dövr etmək üçün.
Ellərin adını yüksəltmək üçün
Böyük işdən yapış, mənzil qət elə.

Düşmən toxmağıdır oğul, ay oğlum,
A mənim qanadım, a mənim qolum!
Səhvimi öyrənmə, qurbanın olum,
Yaxşı adətimə sən adət elə.

Mən özüm hamıya ağ gün dilədim,
Soruşma, bəs kimi xoşbəxt elədim?
Mən ancaq ümidlə baş girələdim,
Bacar, ümidləri həqiqət elə...

Oğlum, bir Vətən var, bir də ki, məslək,
Vətənin borcunu verəsən gərək...
İşığın parlamaz yanmasa ürək,
Məsləkin naminə cəsarət elə.

Ağayam, atanam, gəl tut yerimi,
Görsün nəsillərim diləklərimi...
Sən allah, mən sənə dediklərimi
Sən də övladına nəsihət elə.

## Bağışla

İlahi, mən laçınam,
gərək uçam, uçunam.
Mən də Sənin suçunam,-
məni Sənə bağışla.

Mən sonranın indisi,
mən cırtdanın irisi.
Bu imanlı iblisi
dəli cinə bağışla.

Könül sığmır yataba,
məcnunluğa nə toba.
Peyğəmbərə, Kitaba,
bir də dinə bağışla.

Alnım göyə güzgüdü,
aldığım od gürzüdü.
Kin sevgidən güclüdü,
eşqi kinə bağışla.

İlahi, mən dərdə lək,
şırımı çək, çarpaz ək,
Sən də təksən, mən də tək,
məni Sənə bağışla.

Buyur, güllə gülünü,
ruh dirildən ölünü.
Hər kəsin öz çölünü
öz içinə bağışla.

Uçdum balın iyinə,
Hər pətəkdə yüz iynə...
Yemi qapıb yeyənə,
dəni çinə bağışla.

İlahi, mən kor quşam,
qor üstünə qonmuşam.
Dönə-dönə yanmışam,
dönə-dönə bağışla...

## Səmimiyyət

Ərk ilə evinə gəlmişəm, ay dost;
Görürəm, açıqdır qaşın-qabağın.
Komanı imarət bilmişəm, ay dost,
Nə gərək utanıb tər axıtmağın.

Səndən dünya malı ummayıram mən,
Sanma bəyənmirəm yavan loxmanı.
Doyursan qəlbimi səmimiyyətdən,
Bağrıma basaram kasıb daxmanı.

Sən danış səmimi, kiri səmimi,
Səmimiyyət qəlbin məhək daşıdır.
Söhbət olacaqsa qeyri-səmimi,
Dinib-danışmamaq daha yaxşıdır.

Dostum, doğrultmasa əməl niyyəti,
İnsan necə qalxar, necə ucalar?
Bir ölçü götürsək səmimiyyəti,
Alim var, çobandan geridə qalar.

Bir acı baxışdan sınmış ürəyi
Sağaldan o hansı şirin nemətdir?..
Dada gətirən də duzu, çörəyi,
Elə səmimiyyət, səmimiyyətdir.

## Ölmərəm

Ölüm, məni nə beləcə hərlərsən, -
Mən bir ömrü sürməyincə ölmərəm.
Öz anama, öz Tanrıma borcum var,
Aldığımı verməyincə ölmərəm.

Nə istərsən can ağacım quruya,
Arız olub nə girmisən araya?
Sən öləsən, il kərpicli saraya
Yüz neçəni hörməyincə ölmərəm.

Qarı düşmən, bu nə qorxu kinosu,
Neçəyədi bu möhlətin kilosu?
Dəhrələyib dərd bitirən kol-kosu,
Sərgiliyə sərməyincə ölmərəm.

Nə dilərsən soluxuban sozalım,
Axı niyə çarpaz dağla yazılım?
Əkdiyimi biçməyincə, a zalım,
Səpdiyimi dərməyincə ölmərəm.

Qoca quldur, məni azca qarala,
İnanmıram inam sapı qırıla.
Tufan qopa, iki dünya bir ola,
Gözləncimi görməyincə ölmərəm.

Könüllərdi mənim evim-eşiyim,
Könül olsun axırıncı beşiyim.
Qorxuram ki, qəbirdə də üşüyüm,
Ürəklərə girməyincə ölmərəm.

## Qapını aç

Qapını yüyrək aç mən qayıdanda,
Ay qədir bilənim, üzə gülənim.
Barı öz qapıma gəlib qonanda
Açar qabağıma yüyürsün mənim.

Qapılar önündə ürəyim yanıb,
Yolsuzlar daş olub yolu hörəndə.
Üzümə oxarta qapı qapanıb,
Qorxuram qapını bağlı görəndə.

Mənim xoşum gəlmir söz böyütməkdən,
Sözün də yalanı ölüb-itibdi.
Qapı qabağında boyun bükməkdən
Az qala boynum da əyri bitibdi.

Kürlük görə-görə kürküm od alır,
Arılıq öyrədir ad-sanı kirli.
Kəsib qapıları hay-haray salır
Büllura bürünən qızıl zəncirli.

Qapı qabağında qaraldı qanım,
Öyrəşə bilmədim düzü danmağa.
Öyrəşdi varlığım, günüm, gümanım
Qanmaz qapısında donub-durmağa.

Yoruldu, dirəndi diribaş dilək,
Dünyadan iriymiş keçilməz qoruq.
Ölüm kilidləri önə sərilcək
Asılı qalırıq, adsız oluruq.

Bağlıca qapılar bağrı çatladır,
Bəzən də ölümdən qaçıram birbaş.
Ərkim bir evimə, bir sənə çatır,
Qapını yüyrək aç, istəkli sirdaş.

## Ayrıca qalarıq

Ayrıca qalarıq min il, milyon il,
Torpağın torunda görüşmək çətin.
Bağlanaq birliyə barı beş-on il,
Alaq hayıfını uzun həsrətin.

Əzizim, ömür də bir haqqı-saydı,
İnsan bu dünyada gərək sevinə.
Səni görməyimə güman olsaydı,
Yalvarıb gedərdim qəbir evinə.

Dünya bəndə vurub bizə də gülər,
Ürək sayğacında hesabını çək.
Anın yarısıdı yaşanan günlər,
Yatılan illəri ölçü götürsək.

Ayrıca qalarıq bir qarışlıqda,
Qaralar gözünün qara çırağı.
Vallah, üşüməzdim mən o qışlıqda,
Eşidə bilsəydim bu səs-sorağı.

Orda qarğışın da könül oxşardı,
Durğunluq gölündə duyğu göyərməz.
Darıxsaq bəlkə də ruh qovuşardı,
Amma ruh görüşü bu dadı verməz.

Ayrıca qalarıq qaranlıq qatda,
Orda ödənici ödəmək çətin.
Gəl yaxşı dolanaq yaman həyatda,
Alaq hayıfını uzun həsrətin.

## İlahi, sən məni o kəndə yetir

İlahi, sən məni o kəndə yetir, -
O kəndin diləyi dildə göyərən.
O kəndin yığvalı oğuldan yetim,
O kəndin qızları qarğış əyirən.

Qocası bürünüb his çuxasına,
Qarısı ah çəkib qapıda bitir.
İlahi, bağışla el duasına,
İlahi, sən məni o kəndə yetir.

Bağışla dəhrənin paslı yasına,
Bağışla cəhrənin qəm havasına;
Bağışla köhlənin yatan tısına,
Bağışla məhlənin tor hanasına;

Bağışla, bağışla bu əkilmişi,
Bağışla bucağın boş qalmasına;
Bağışla yollara baxış əkmişin
Qarıyıb-quruyub daş olmasına.

İlahi, coş gələ mən bağrıdaşa,
Sarınam bir axşam yağış kəndirə;
Yaylaq yalvarsına, bulaq barışa,
Düşəm dan yerindən dədə kəndinə.

Ya da diləklərin qolu açıla,
Qayğı boxçasını biryolluq atam.
Arılar tel vura bu arıçıya,
Üzür kağızını üzümə tutam.

Gedəm eşitmədən hədə-hədyanı,
Malımı maralla otara biləm.
Qulunun qurd yemiş dəli madyanı
Qayanın qaşından qaytara biləm.

Sökülə canımın ağrı sırığı,
Duyğum bozalaşa gobud ağılnan.
Yetimi-yesiri, könlü sınığı
Yedirdib-içirdəm noğul-nağılnan.

Qayıda dünyanın bu dolaşanı,
Varlığım yoxluğun dibindən çıxa.
Çıxardam ağzımdan çullu dovşanı,
Nallı qarışqa da cibimdən çıxa.

Çıxa xurcunumdan çitin bahası,
Bəzənə bir evin köhnə kəfrəmi.
Bacı-qardaşımın beçə balası
Qomara bir anda ballı süfrəmi.

İlahi, əlimə girəvə düşə,
Ayrılıq külünü yollara səpəm.
Söykəyib alnımı ana göyrüşə,
Görüşlü anları gözümə təpəm.

İlahi, köməyim gör necə itir,
İlahi, sən məni o kəndə yetir.
Yetir biçiləsi biçənəyinə,
Yetir Gün qovuran boz güneyinə.

Yetir bulaqdakı axşam neyinə.
Yetir dan yelinə, çay küləyinə.
Yetir qış qarına, yaz çiçəyinə.
Yetir kom ulduzun göbələyinə.

Yetir can havalı yan tütəyinə.
Yetir yal-yamacın göy ipəyinə, -
Yaşıl bələyinə, ağ bələyinə,
Gülünə, gölünə, daha nəyinə...

İlahi, sən mənim izimi yetir
Dağılmış qəbirin son köməyinə;
Ağsaqqal çağımda özümü yetir
Ağlayan bir evin ağbirçəyinə.

İlahi, sən məni o kəndə yetir,
İlahi, sən məni o kənddə bitir!..

## Mənim gecələrim

Mənim gecələrim hər gecə oyaq,
Mənim gecələrim gözləri açıq.
Mənim gecələrim özündən dümağ,
Gündüzə qarışıq, Günə bulaşıq.

Bir tut ağacıyam - tərəcəm masa,
Silkinib tökürəm bütün xarımı.
Şeir yazmayanda -
mən heç olmasa
Üstünü örtürəm balalarımın.

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 24 (2496) 3 iyul 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



# AĞDAMIN HƏR DAŞINA QURBAN OLAQ

**İnsanların qəlbinə, ürəyinə və iç dünyasına daxil olanda onlar hər şeyi sənə olduğu kimi danışır. Dərdini, kədərini, sevincini və hətta gülüşünü belə səndən gizlətmir. Çünki o insanlar dünyada hər şeydən üstün səmimiyyəti və ünsiyyəti tuturlar. Səmimiyyəti və ünsiyyəti üstün tutan adamlar isə həmişə təbii görünür.**

Aydındır ki, yurd yerindən 30 il didərgin düşmüş və bu günlər doğma yurdları Ağdam şəhərinə qayıdan insanların da hisslərini, sevinclərini və keçirdikləri həyəcanları başa düşmək olar. Sadəcə olaraq, bu adamlara qarşı bir balaca diqqətli, həssas olsan görəcəksən ki, onlar bu 30 ildə Vətən ayrılığına necə bir mərdliklə dözüblər. Onu da görəcəksən ki, bu insanlar hətta məcburi köçkün olduqları ilk gündən belə Ağdama qayıtmaq ümidlərini heç vaxt itirməyiblər. Onlara bu ümidi verən göydə Allah, yerdə Ulu Öndər Heydər Əliyev və prezident, Ali Baş Komandan İlham Əliyev olub.



Əlbəttə, hər bir qarabağlı kimi, ağdamlıların da məcburi köçkünlük və qaçqınlıq dövründə ağır, çətin günləri çox olub. Amma onların ümidsiz və inamsız günləri olmayıb, Çətin şəraitdə, heç bir məişət şəraiti olmayan yaşayış yerlərində məskunlaşmaq, 30 il orda yaşamaq və günlərin bir günündə də Vətənə dönmək elə də asan məsələ deyil. Düzdür, onları məskunlaşdığı yerdə yerli sakinlər hörmətlə qarşılayıblar. Çətin gündə arxa durublar, kömək olublar, ancaq bu o demək deyil ki, yurd yerindən didərgin düşmüş ağdamlıların bəzi çətinlikləri də oldu. Çünki Vətən dərdindən, yurd həsrətindən bir çox yaşlı insanlar buna dözməyib dünyalarını dəyişdilər. Amma onların övladları, nəvələri düz 30 il Ağdama qayıdacağı günləri səbirsizliklə gözlədilər və nəhayət, o gün 30 ildən sonra gəldi. O günü ağdamlıların dünyasında günəş doğdu, qəlblərində işıq yarandı, nur oldu O günü ağdamlıların qaçqınlıq və məcburi köçkünlük dövründə rəhmətə gedən və dünyasını dəyişən insanların da ruhları sevindi. O günü Ağdama gedən yol da sanki qısaldı. Çünki yollarda Ağdam şəhərinə qayıdan insanları öncə gözləyən yaz çiçəkləri, yaz ətri, lalələr, bənövşələr və gözəlliklər idi. Bu gözəlliklərin ətrini ağdamlılar şəhərə daxil olan kimi hiss etdilər və duydular. Çünki o torpaq da, o çiçək də, o gül də qaçqınlıq dövründə onların yuxusuna girirdi. Amma indi heç nə yuxu deyildi. Onlar o çiçəkləri, gülləri görürdülər və sevinirdilər.

Ağdam şəhərinə 92 ailə və 332 nəfər köçürülüb. Onlar müxtəlif rayonlarda yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış insanlardır. Bu insanların sevincini görmək, çöhrələrində təbəssümə baxmaq necə də gözəl anlardı. Onların hər birinin ürəyi, qəlbi az qala sevincindən yerindən çıxa. Vətənə qayıdan insanların arasında qocalar da var, gənclər də, yeniyetmələr də. Onlar hamısı doğma şəhəri olan Ağdama qayıdıblar.

Elşən Kazımov Ağdamda təzə mənzil alan sakinlərdən biridir. Onun sevincindən dili ağzına sığmır.

Deyir:

- Ağdamın hər daşına, hər cığırına, hər gülünə, hər çiçəyinə qurban olum. Ə, qardaş, vallah, buranın havası, suyu, torpağı heç harda yoxdur. Meyvə ağacını bu il torpağa basdırırdın, gələn il meyvə verirdi. Özü də elə-belə meyvə yox ey, bal kimi şirin. Yeyəndə adam dadından doymurdu. İndi baxıram, yollarda yeni ağaclar, güllər, çiçəklər əkilib. Allah qoysa, bir ildən sonra Ağdam şəhəri özü bir cənnətə çevriləcək. Çox sağ olsun prezident, Ali Baş Komandan İlham Əliyev Ağdamı yenidən tikir və yenidən qurur. Və yenidən möhtəşəm Ağdam inşa edilir. Biz bura gələndə gözlərimizə inanmadıq. Yeni mənzillərlə yanaşı, şəhərdə bizə lazım olan bütün infrastruktur əsaslı surətdə təzədən qurulub. Asfalt yollar, bir-birindən gözəl parklar, xiyabanlar, işıq, qaz və su sistemləri, üstəlik də məktəb və uşaq bağçası. Hələ mən yeni açılacaq iş yerlərini demirəm. Bunlar hamısı bizə yeni bir dünya və yeni bir nəfəs gətirir. O nəfəs ki bunu bizə göydə Allah, yerdə Ali Baş Komandan, Azərbaycan Ordusu, əsgərlərimiz, şəhidlərimiz və qazilərimiz bəxş edib. Əlbəttə, bütün bunları görməmək, qiymətləndirməmək və dəyər verməmək böyük günah olardı.

Elşən Kazımov bizimlə söhbətində onu da qeyd etdi ki, bu təkcə mənim sevincim deyil, 92 ailənin və 332 nəfərin sevincidir. Hansı qapını açsan, hansı evin qapısını döysən orda bu sevincin şahidi olarsan. Hələ biz ömrümüz boyu belə sevinməmişdik. Elşən qardaşımızın sözünə qüvvət olaraq Ağdam şəhərində yeni mənzilə köçmüş bir evin də qapısını döydük.

O evin qapısını bizə Anar Məmmədov adlı yaşlı bir kişi açdı. Özü də gülər üzlə, sevinə-sevinə. Xoş gəldin dedi və otağa dəvət elədi. Masanın üstündə cürbəcür şirniyyatlar və bir də pürrəngi çay vardı. Anar kişi dedi ki, mən çox yerdə çay içmişəm, amma Ağdamın suyundan dəmlənmiş çayı heç harda içməmişəm, çünki bunun dadı-tamı bambaşqadı. Özü də çay necə gözəl dəm alıbsa qıpqırmızı, xoruz quyruğu kimidir. Mən də bu xoruz quyruğu kimi qıpqırmızı çaydan bir armudu stəkan içdim və ləzzət elədi. Və Anar kişinin dediyi fikrə şərik çıxdım. Doğrudan da Ağdamın suyundan dəmlənmiş çayın dadı çox ləzzətli idi.

Anar Məmmədov mənimlə söhbətində dedi:

- Qardaş oğlu, danışığından görürəm ki, sən də qarabağlısan. Qadan alım, Qarabağın harasındansan?

Mən də cavab verdim:

- Füzulidən.

- Day de ki, bir kənddənik də.

- Bütün qarabağlılar bax belə, bal kimi şirin olur.

**Anar kişi mənimlə söhbətində onu da vurğuladı ki, axşam qonağım olsan Ağdam aşı bişirəcəyik, yeyərsən və görərsən ki, nətəhər dadlıdır. Mən də dedim ki, çox sağ ol, Anar kişi, Allah canınızı sağ eləsin və ruzunuz da bol olsun. Qazanınız qaynasın və süfrəniz bol olsun. Həmişə də dadlı və ləzzətli Ağdam aşı bişirəsiniz!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "TƏBRİZDƏN ZƏLİMXANA SALAM!"




**Xalq şairi Zəlimxan Yaqub artıq on ildir ki, cismən həyatda olmasa da, bir-birindən gözəl şeirləri, poemaları, unudulmaz xatirələri ilə milyonların qəlbində yaşayır. Dünyasını dəyişməsindən keçən bu illər ərzində onun şeir və poemalarından və eləcə də haqqında yazılanlardan ibarət ondan artıq kitab nəşr olunub.**

Bu günlərdə aşıqların ifasında onun şeirlərindən ibarət audiodiskin Türkiyədə işıq üzü görməsi isə onun təkcə Azərbaycanda yox, bütün Türk dünyasında sevilən söz ustadı olduğunu bir daha göstərir. Bu barədə məlumat verən Əməkdar mədəniyyət işçisi, Z.Yaqub irsinin yorulmaz tədqiqatçısı Musa Nəbioğlu bildirib ki, Z.Yaqubun şeirləri aşıqların repertuarında mühüm yer tutur və indiyədək ayrı-ayrı aşıqların ifasında onlarla audio və videodisklər buraxılıb. Türkiyədə yaşayıb fəaliyyət göstərən iş adamı Əli Poladın maliyyə dəstəyi ilə "Volkan" qrupu (bədii rəhbəri və aranjmançı Aydın Mehdipur) tərəfindən ərsəyə gətirilən bu diskin özəlliyi isə ondan ibarətdir ki, burada dinləyicilər eyni şeiri sazın müşayiəti ilə həm Z.Yaqubun özünün, həm də aşığın ifasında eşidə biləcəklər.

Türkiyədə ərsəyə gətirilən "Əli Polad təqdim edir: Təbrizdən Zəlimxana salam!" adlı bu audiodiskdə şairin 12 şeiri ("Mən öz dastanımı yazıb gəlmişəm", "Vəfalıymış", "Bu yaşıl ağacın altı bizimdi", "Gözəl dünya, gözəllərin var olsun", "Gözəllər", "Ay sədəfli saz", "Belə qocalasan", "Çəkərsiniz", "Xatirələrdə", "Dünya", "Dedilər məclisdə bədnəzər olar" və "Allah, gözlərə bax") Təbrizli aşıqlar Salar Mehdipur, Məhbub Əbdi, Əmir Novruzi və Ramin Mollapur tərəfindən "Sultanı", "İncəgülü", "Dastanı", "Bəhməni", "Bayramı" və digər klassik aşıq havaları üstündə ifa olunub.

Audiodiskə əlavə olunan bukletdə Zəlimxan Yaqubun həyat və yaradıcılığı barədə qısa bilgi verilir.

## Oturaq həyat tərzi ölüm riskini artırır

**Hər saatda beş dəqiqəlik qısa fasilələr etmək, uzun müddət oturmağın yaratdığı zərəri azaltmağın ən təsirli və real yolu ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə araşdırma "British Journal of Sports Medicine" jurnalında dərc olunub.

Tədqiqat, "Body Electric Challenge" layihəsinə qatılan 19.000-dən çox yetkinin məlumatlarına əsaslanır. Tədqiqatda hər 30, 60 və 120 dəqiqədən bir fasilələrlə iki həftə ərzində müxtəlif fəaliyyət rejimləri araşdırılıb.

Nəticələr göstərir ki, müntəzəm qısa gəzintilər üçün bütün seçimlər iştirakçılar tərəfindən məqbul və mümkün kimi qəbul edilmiş və rifahın yaxşılaşmasına səbəb olmuşdur. Bununla belə, rejimlər arasında əhəmiyyətli fərqlər qeydə alınmışdır. İştirakçılar arasında ən çox yayılmış seçim hər 60 dəqiqədən bir fasilə vermək idi. Bu seçim orta tezliyi yüksək intensivliklə birləşdirir. Məhz bu seçim ən balanslı effekti verib: yorğunluğun əhəmiyyətli dərəcədə azalması, əhval-ruhiyyənin yaxşılaşması və eyni zamanda real şəraitdə yaxşı mümkünlük. Hər 30 dəqiqədən bir daha tez-tez fasilələr əhval-ruhiyyəyə və yorğunluq səviyyəsinə ən güclü müsbət təsir göstərsə də, gün ərzində onlara əməl etmək baxımından o qədər də əlverişli olmayıb. Bütün variantlarda iştirakçılar yorğunluğun azaldığını, əhval-ruhiyyənin yaxşılaşdığını, eləcə də mənfi emosional fonun azaldığını bildiriblər. Eyni zamanda, əlavə fasilələrə baxmayaraq, iş səmərəliliyi göstəriciləri praktik olaraq pisləşməyib. Müəlliflər qeyd edirlər ki, müntəzəm qısa fasilələr səbəbindən məhsuldarlığın azalması ilə bağlı narahatlıqlar təsdiqlənməyib: iş səmərəliliyindəki dəyişikliklər minimal və hətta bir qədər müsbət olub.

Orta hesabla, yüksək gəlirli ölkələrdə yetkinlər gündə 11-12 saat oturaq həyat keçirirlər ki, bu da xroniki xəstəliklər və vaxtından əvvəl ölüm riskinin artması ilə əlaqələndirilir. Bu kontekstdə, fəaliyyət modellərindəki kiçik dəyişikliklər belə əhəmiyyətli ictimai təsir göstərə bilər. Eyni zamanda, tədqiqatçılar hesab edirlər ki, əldə edilən nəticələr, xüsusən də əsasən oturaq həyat tərzi sürən insanlar üçün fiziki fəaliyyətlə bağlı gələcək tövsiyələrin formalaşdırılmasında istifadə edilə bilər.

# Məşhurlar yay tətilini harada keçirəcək

**Bildiyimiz kimi yay fəsli deyəndə ilk ağıla gələn fikir istirahət olur. Hər kəs istirahət etmək istəyir. Ancaq xarakterlər kimi istirahətlər də fərqlidir. Kimisi doğmaları ilə zaman keçirməyi istirahət sayır, kimisi sevdiyi işlə məşğul olmağa istirahət deyir, kimisə də vətəndən uzağa getməyi daha uyğun istirahət növü hesab edir.**









Adalet.az bu dəfə də istirahətlə bağlı məşhurların fikirlərin öyrənib. İlin 11 ayını fasiləsiz olaraq işləyən aktyorlar, rejissorlar tətillərini necə keçirirlər?

**Aktyor Tural Əhməd** tətil haqda heç bir şey düşünmədiyini deyir:

" Bu haqda bir şey düşünməmişəm. Çünki hazırda işləyirəm. Teatrda işlərimiz çoxdur. Əgər məzuniyyətə çıxaramsa, tətil haqda nəsə düşünərəm. Ancaq indi bu haqda konkret bir söz deyə bilmərəm".

**Rejissor Kənan Mahmudov** isə istirahətin daha çox mənəvi rahatlıq üçün edilməsinin tərəfdarıdır:

"Biz aktyorlar yay ərzində işləyirik ki, yeni mövsümdə tamaşaçıların qarşısına yeni layihələrlə gələk. İstirahət üçün heç nə düşünə bilmirəm, çünki işlərim çoxdur. Ancaq əsas məqam istirahətin coğrafiya məsələsi olmamasıdır. Əgər sevdiyin işlə məşğulsansa, səni anlayan insanlar, doğmaların sənin yanındadırsa, məncə bu, ən gözəl istirahətdir.

Ən böyük ağılsızlıq isə böyük məbləğlər xərcləyib göstəriş üçün uzaq ölkələrə gedib su hovuzlarında şəkil çəkdirməkdir. Məgər bizim ölkəmizdə həmin su hovuzları yoxdur? İnsanların böyük bir hissəsi təəssüf ki, istirahəti öz rahatlıqları üçün deyil, qohumuna, dostuna, ətrafına göstərmək üçün edirlər. Bu isə əsla istirahət deyil. Belə istirahətlər adama rahatlıq gətirmir"

**Aktyor Rəşat Kəsəmənli** də digər həmkarları kimi hələ də yeni layihələr üzərində çalışır:

"Tətillə bağlı heç bir şey düşünmürəm. Çünki teatrda işlərimiz bitməyib. Bizim hələ qostrol səfərlərimiz var. İyul ayinin 22-nə kimi teatrdayıq. Ancaq məzuniyyətim başlayandan sonra birinci növbədə ənənəvi olaraq doğma yurdum Ağstafaya gedəcəm. Mənim üçün ən gözəl istirahət doğma yurduma getməkdir. Ağstafada istirahət edəcəm. Sonra isə Azərbayacanın digər gözəl güşələrinə getməyi düşünürəm. Ancaq ölkədən kənara etməklə bağlı heç bir planım yoxdur".

**Aktyor Amid Qasımov** isə maraqlı cavabı ilə diqqət çəkib:

"Bu çox maraqlı sualdır. Mənim üçün aktyor olmaq bütün ömrünü tətildə keçirmək deməkdir. Onun sənətdən başqa heç bir gerçəkliyi olmur. Belə bir komfortu nəylə əvəz etmək olar?! Bilmirəm.

Əgər sözlərim sizə pafoslu gəldisə, belə də deyə bilərəm: Aktyor ömründə 2 dəfə tətilə çıxır. Bir anasının bətnində, bir də qəbirdə".

**Əntiqə KƏRİMZADƏ**

## Əməkdar artist: "Mən özümlə, sözümlə məşğulam"



**Görkəmi ilə diqqət çəkən Əməkdar artist Dilarə Əliyeva onun haqqında deyilən sözlərə cavab verib. Adalet.az bildirir ki, o, xeyli çəki verməsinə də aydınlıq gətirib:**

"Hər kəs məni qınayır ki, arıqladıqca səsim də dəyişib. Ancaq heç kəsə izah edə bilmirəm ki, mən sizin məni görmək istədiyiniz kimiyəm. Siz yaxşı görmək istəyirsinizsə yaxşı görürsünüz, pis görmək istəyirsinizsə pis görürsünüz. Lap deyək ki, nitqimdə müsbət dəyişiklik var. Bunun nəyi pisdir axı? İnsanlar niyə yaxşıya doğru qəbul etmirlər?

Kiminsə qeybətini etmirəm. Mən özümlə, sözümlə məşğulam.

Tamaşaçıların fikrinə hörmətlə yanaşıram. Məni sevən sevəcək, sevməyən də sevməyəcək".

**Əntiqə**

## Kamilə Nəbiyeva Özbəkistanda keçirilən festivalda qalib oldu



**Müğənni Kamilə Nəbiyeva Özbəkistanın Namanqan Makom festivalında 1-ci yerin qalibi olub.**

Bu haqda Adalet.az-a Xalq artisti Gülyaz Məmmədova məlumat verib. "Kamilə Nəbiyeva yenə də möhtəşəm gözəl səsi, ifası ilə sənət möhürünü vurub. Orda kompozisiya təqdim edib. O, mənim tələbəmdi, müəllim kimi mən də qürur duydum. Juri Xalq artisti Mənsum İbrahimov olub. Kamilə 15-dən çox ölkə arasında birinci yerə layiq görülüb", - deyə o bildirib.

**Vasif**

## Müğənni: "Anam deyir ki, övladın olsa, belə düşünməzdin"



**Müğənni Mənzurə Musayeva şəxsi həyatından danışıb. Adalet.az bildirir ki, o, övladı olmadığı üçün bəzən şükr etdiyini bildirib:**

"Həmişə düşünmüşəm ki, övladım olsa çox xoşbəxt qadın olardım. İndi də xoşbəxtəm. Amma onda çox xoşbəxt olardım. Bir sirrim- sözüm olanda onunla bölüşərdim. Mən bütün bacı və qardaş balalarını çox istəyirəm. Amma övladın dadı nədir bilmirəm. Mənə qismət olmadı. Həmişə düşünürəm ki, övladım olsaydı eyni mən dediyim kimi olardı.

Anam deyir ki, yox, övladın olsa, belə düşünməzdin. Ancaq bəzi məqamlarda anlayıram ki, bəlkə də övladım olsa, heç xeyirli övlad olmayacaqdı. Mənə zülm edəcəkdi. Məgər azdır övladı sarıdan əziyyət çəkən valideynlər? Bəlkə də Allahın mənə yazığı gəlib mənə övlad verməyib. Həmişə bu haqda düşünmüşəm".

## Qumral tənqidlərə cavab verdi: "Ərim var"

**Qumral Musayeva xanım həmkarlarının ondan danışmasına münasibət bildirib. Adalet.az-a danışan müğənni hər yerə həyat yoldaşı ilə getdiyini deyib:**

"Heç kəs məni qınaya bilməz. Əri olmayanlar niyə məndən danışır? Mənim ərim var, hər yerə onunla gedirəm. Nə geyinirəmsə, yoldaşımın razılığı ilə geyinirəm. O mənim geyimlərimə qadağa qoymur. Ondan icazəsiz heç yerə getmirəm".

**Əntiqə**

**Əhmədov Oruc Şofiq oğluna məxsus 0064846 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Zeynalov Azər Akif oğlunun adına verilmiş 025626 saylı veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 284
Çapa imzalanmışdır: 02.07.2026